www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 iyul 2014-cü il Çərşənbə axşamı № 185 (5894) Qiymıəti 40 qəpik

**Xəbər**

## Prokuror Orxan Zeynalova 18 il iş istədi

yazısı səh.2-də

**Gündəm**

### ABŞ-ın Azərbaycanı Rusiyadan gizli qorumaq planı



Konqresə təqdim olunan layihə hazırkı mərhələdə Kremlin Qarabağda yeni savaş açmasını əngəlləməyə yönəlib

yazısı səh.8-də

### Bu gün Milli Mətbuat Günüdür

yazısı səh.2-də

### Azərbaycan iqtidarı Ərdoğanın prezident olmasını istəyir

yazısı səh.11-də

### "Malayziya təyyarəsini rusiyapərəst separatçılar vurub"

Qərb mediası terror aktında birmənalı şəkildə Rusiyanı göstərir

yazısı səh.13-də

*Qubad İbadoğlu:*

### "QHT sektorunda həbslər gündəmə gələ bilər"

yazısı səh.5-də

### Müstəqil QHT-lər çətin durumdadır

İqtidar siyasi hədəflər üçün xaricdən qrant axınının qarşısını almağa başlayıb

yazısı səh.9-da

### Rauf Mirqədirovun istintaqındakı müəmmalı disk...

yazısı səh.3-də

### Deputatlar İraq türkmənləri üçün həyəcan təbili çalır

yazısı səh.4-də

### Rusiya miqrantlara dil, tarix, qanun şərti qoyur

yazısı səh.11-də

**Ramazan ayının 24-cü günü**

İftar 21.21. İmsaq (azan) 5.02 (QMI-nin cədvəli)

24-cü günün duası: "İlahi, bu gün Səndən, Səni razı salan əməlləri istəyirəm və Səni qəzəbə gətirən əməllərdən Sənə pənah aparıram. Səndən istəyirəm ki, belə bir gündə məni, Sənə itaət etməyə və günah etməməyə müvəffəq edəsən. Ey, hacəti olanlara səxavət və kərəm edən Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Hakimiyyət məmur vitrinini YAP rəhbərliyi ilə təzələyir

# DİNİ KOMİTƏ SƏDRİ POSTUNA ŞOK TƏYİNAT

Uzun müddətdir boş qalan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi Mübariz Qurbanlıya tapşırıldı; iqtidar partiyasının funksionerləri dövlət işlərinə irəli çəkilir; bir sıra məmurlarla bağlı yaşanan problemlər iqtidarı bu sahədə yeni addımlar atmağa vadar edir



Mübariz Qurbanlı

yazısı səh.4-də

## Prokurorluq sabiq nazirin oğlunun tikinti şirkətini möhürlədi

"SEVİL" MMC-ni Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi qapatdı; şirkətin işçiləri, menecerləri, mühasibləri saxlanılıb, rəhbəri Aynur Zeynalovun isə Türkiyəyə qaçdığı deyilir

yazısı səh.12-də



Maksim Musayev

### Qocaman YAP-çıdan şok açıqlamalar və ittihamlar

yazısı səh.6-da



Qüdrət Həsənquliyev

### Deputat naziri və səfirləri topa tutdu

yazısı səh.8-də



### Abbas Abbasovun "İstiqlal" ordeninin alınması təklifinə reaksiyalar gəldi

yazısı səh.11-də



## Prokuror Orxan Zeynalova 18 il iş istədi

### Qətldə suçlanan azərbaycanlı son sözündə günahsız olduğunu dedi

**Moskva sakini Yeqor Şerbakovu qətlə yetirməkdə şübhəli bilinərək həbs olunan Azərbaycan vətəndaşı Orxan Zeynalovun məhkəmə prosesi davam etdirilib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, Moskva Şəhər Məhkəməsində keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.**

Prokuror Orxan Zeynalova 10 ilini ağır rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 18 il iş istəyib.

Məhkəmə prosesində Orxan Zeynalovun vəkilləri müdafiə nitqi ilə çıxış ediblər. Vəkil Viktor Anikuşkin çıxışında bildirib ki, Rusiya hüquq-mühafizə orqanları təqsirsizlik prezumpsiyasına tüpürüb: "Orxan Zeynalov saxlanılan zaman kobud qanun pozuntusuna yol verilib. Bütün televiziya kanallarında da bu göstərilib. Orxan saxlanılan zaman ona elektroşok verilib, döyülüb, cinayət işi üzrə yeganə şahid olan Kseniya Popovanın ifadələrində həm istintaq, həm də məhkəmə zamanı ziddiyyətli məqamlar aşkar olunub. O, istintaq və məhkəmə zamanı Orxanla Yeqor arasında mübahisənin hansı səbəbdən baş verdiyini deyə bilməyib. Orxan Zeynalov, özünün dediyi kimi, günahsızdır, cinayət törətməyib. Hesab edirik ki, ona bəraət verilməlidir" .

**O. Zeynalovun digər vəkili Abbasmirzə Abdullayev də çıxışında K. Popovanın ifadəsində ziddiyyətli məqamların olduğunu söyləyib:** "Biz məhkəmədən Kseniya Popovanın yalan detektorundan keçirilməsini tələb etdik. Lakin vəsatətimiz təmin olunmadı. Hesab edirik ki, o, nəyisə gizlədir. Onun barəsində qanuni hökm çıxarılmasını xahiş edirik. Orxan günahsızdır" .

**Daha sonra prosesdə O. Zeynalov son söz deyib. O, günahkar olmadığını deyib:** "Hadisə baş verən gün Moskvada olmamışam. Bütün bunlar əvvəlcədən hazırlanmış ssenaridir. Çünki "Pakrov" bazarını bağlamaq istəyirdilər. Ona görə də bunu düzüb qoşdular. Mən bu gün günahsız yerə burda oturmuşam. Yeqorun ölüb-ölmədiyini deyə bilmərəm. Amma onu deyə bilərəm ki, mən heç kimi öldürməmişəm. Allah hamısını görür. Mən onu öldürsəydim, Rusiyadan qaçardım".

Sonra məhkəmə hökmünün iyulun 28-də elan olunacağı bildirilib.

Qeyd edək ki, ötən il oktyabrın 10-da Rusiya paytaxtının Qərbi Birulyovo rayonunda 25 yaşlı Y. Şerbakovun qafqazlı tərəfindən qətlə yetirilməsi yerli sakinlərin etirazına səbəb olub. Qatilin tapılmasını tələb edən yüzlərlə rus milliyyətçisi və "skinhedlər" Qərbi Birulyovo rayonunda yerləşən "Biryuza" ticarət mərkəzi və "Pokrov" meyvə-tərəvəz bazasına hücum edərək orada çalışan Qafqaz və Orta Asyadan olan miqrantları döyüblər. Hadisə yerinə xüsusi təyinatlı polis dəstələri yeridilib. "Skinhedlər" polislərə də müqavimət göstəriblər. Onlar ticarət mərkəzində yerləşən mağazalara, ətrafdakı obyektlərə və avtomobillərə ciddi zərər vurublar. İğtişaş nəticəsində xeyli sayda miqrant və yerli sakin yaralanıb.

Y. Şerbakovun qətlində şübhəli bilinən Azərbaycan vətəndaşı O. Zeynalov oktyabrın 15-də Moskva ətrafındakı Kolomna şəhərində saxlanılıb və vertolyotla Moskvaya aparılıb.

O, ilkin dindirmə zamanı qətli özünümüdafiə məqsədilə törətdiyini söyləyib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

## İran səfirliyi Zahid Orucun narkotik ittihamını cavabsız qoydu

### Səfirlikdən bildiriblər ki, deputatın ittihamlarına cavab verilməyəcək

**Xəbər verdiyimiz kimi, Milli Məclisin deputatı Zahid Orucun Gürcüstan ərazisində ələ keçirilən narkotikin Azərbaycana İrandan ötürülməsi ilə bağlı açıqlaması sərt etirazla qarşılanıb. İranın Azərbaycandakı səfirliyinin mətbuat xidmətinin rəhbəri Seyid Məhəmməd Ayətullahi Azərbaycan parlamentinin təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Orucun İranı narkotik maddələrin tranzitinə kömək etməkdə ittiham etməsinə etiraz bildirib. Səfirlikdən verilən açıqlamada qeyd olunur ki, Zahid Oruc bu məsələdə İranı ittiham etdiyinə görə Azərbaycanın Xarici İşlər Nazirliyinə etiraz notası təqdim ediləcək.**

Ancaq bu hadisədən sonra mətbuata təkrar açıqlama verən Z.Oruc İran hakimiyyətini növbəti dəfə ittiham edib: "İran səfirliyinin bu cür tələm-tələsik nota ilə çıxış etməsi, bir parlament üzvünün çıxışından guya narahat olaraq hərəkətə gəlməsinin səbəbləri tamamilə başqadır. Məsələ ondadır ki, pərdələnən, illərlə Azərbaycan insanına qarşı həyata keçirilmiş "ağ ölüm" siyasətinin müəllifi İranın özüdür!"

Z.Oruc İran dövlətini bütövlükdə Azərbaycana qarşı qəsddə suçlamadığını, ancaq İranın uzun illər ərzində narkotik tranzitini əsas hədəf olaraq həm də Azərbaycana, Gürcüstan azərbaycanlılarına və digər ölkələrə yönəltdiyini deyib: "Azərbaycan uzun illər ərzində İranın bu setini ifşa edib. Bu məsələlərlə bağlı hökumət xətti ilə getmiş gizli yazışmalara söykənərək deyirəm - İran bu məsələdə suçludur! Bu, sadəcə, özfəaliyyət deyil. İran Əfqanıstanda bu plantasiyaların salınmasında, sonradan Azərbaycan kimi ölkələrə, Avropaya göndərilməsində maraqlıdır. Bu maraq təkcə maddi fayda deyil, Azərbaycan insanına qarşı bir qəsd proqramları mövcuddur. Bu, İranın məxfi doktrinalarında ifadə olunub. Bu, Azərbaycan hakimiyyətinə bəlli məsələdir. Belə olan təqdirdə bir parlament üzvünün mövqeyinə qarşı nota ilə çıxış etmək, guya bununla Azərbaycandan sorğu tələb etmək prinsipsizlikdir. İranın notasını əsassız hesab edirəm. O notaya qarşı cildlərlə sənədləri təqdim edib İrana göndərmək mümkündür".

Z. Orucun son açıqlamalarına İranın Azərbaycandakı səfirliyindən münasibət öyrənmək istədik. Ancaq səfirlikdən bildirdilər ki, səfir Z.Orucun açıqlamaları ilə tanışdır və bu barədə yazılı açıqlama ilə daha əvvəl çıxış edib. Bu səbəbdən də ikinci bir açıqlamaya ehtiyac görmürlər.



Zahid Oruc

Xatırladaq ki, iyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi Əfqanıstandan İran və Azərbaycan üzərindən tranzitlə 2 ton 790 kiloqram saflaşdırılmış heroin daşınmasının qarşısının alındığını açıqlayıb. Azərbaycan Respublikası Parlamentinin üzvü Zahid Oruc "Yeni Musavat" qəzetinə verdiyi müsahibəsində Azərbaycan Respublikası ərazisindən Gürcüstana keçən narkotik maddələrin tranzit edilməsində İran qurumlarını ittiham etmişdi.

❑ KƏNAN



## Əvəz Zeynallının iddiası təmin olunmadı

**İyulun 21-də Ali Məhkəmə «Xural» qəzetinin Mətbuat Şurasına qarşı qaldırdığı iddiaya baxıb.**

"Xural"ın məlumatına görə, məhkəmədə qəzetin həbsdə olan baş redaktoru Əvəz Zeynallı da iştirak edib.

Məhkəmə qəzetin iddiasını təmin etməyib.

Əvəz Zeynallı 2011-ci ilin sentyabrında Mətbuat Şurasının «Xural»ı «qara siyahı»ya daxil etməsi haqqında qərarından məhkəməyə şikayət edib.

Əvəz Zeynallı Milli Məclisin keçmiş deputatı Gülər Əhmədovanın şikayəti əsasında 2011-ci il oktyabrın 28-də həbs edilib.

## Ali Media Mükafatı laureatları müəyyənləşib

### Milli Mətbuat Günü ilə bağlı tədbir "Altun Saray" restoranında keçiriləcək

**İyulun 21-də Mətbuat Şurası İdarə Heyəti iclasını keçirib. MŞ sədri Əflatun Amaşov iclası açaraq müzakirəsi tövsiyə olunan məsələlər barədə məlumat verib. İH üzvləri müzakirələrdən sonra 4 məsələnin gündəliyə daxil edilməsi razılığına gəliblər.**

Əvvəlcə Mətbuat Şurası sıralarına yeni üzvlərin qəbulu məsələsinə baxılıb. Bu məqsədlə MŞ-yə müraciət edən KİV-lərin rəhbərlərinə suallar verilib. İdarə Heyəti üzvləri "Yeni həyat", "İrəvanın səsi", "KATV1" qəzetlərinin, "Azərbaycan", "Azərbaycan məktəbi", "Günəş" jurnallarının, AJB.az, strategiya.az saytlarının və "Yazıçı" nəşriyyatının Azərbaycan Mətbuat Şurası sıralarına qəbul olunması barədə qərarlar çıxarıblar.

Sonra MŞ-nin Şikayətlər üzrə Komissiyası və "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının rəyləri əsasında qərarlar qəbul olunub. "Kafkaz news" və "Azad Azərbaycan Respublikası" qəzetlərinin adlarının Mətbuat Şurasının "qara siyahı"sına salınması məqsədəuyğun hesab edilib.

İclasın sonunda Mətbuat Şurasının Ali Media Mükafatının 2014-cü il üçün laureatlarının adları müəyyənləşdirilib. Mükafatların iyulun 22-də Bakının "Altun Saray" restoranında keçiriləcək milli mətbuatımızın 139 illiyinə həsr olunmuş mərasimdə təqdimatı qərarlaşdırılıb.

❑ SEVİNC

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Bəşir Süleymanlı jurnalistlərə müraciət etdi

### "Sizi araşdırma aparmağa, öncə QHT sektorundan başlamağa dəvət edirəm"

**Bakı İstintaq Təcridxanasında saxlanılan Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrsi Mərkəzinin (SMDT) icraçı direktoru Bəşir Süleymanlı Azərbaycanda Milli Mətbuat Günü münasibətilə jurnalistlərə müraciət edib.**

**Müraciətdə deyilir:** "Milli Mətbuat Günü münasibətilə haqqın, ədalətin yanında olan bütün jurnalistləri, bloqçuları, yeni media təmsilçilərini təbrik edirəm. Bildirmək istəyirəm ki, mətbuat həmişə müxalif olmalı, jurnalist problemi araşdırmalı və yazıları tənqidi ruhda yazılmalıdı. Təəssüf ki, Azərbaycanda tənqidə dözümsüzlük var və yazılarına görə xeyli sayda jurnalist həbsdədir. Buna baxmayaraq, mən dəyərli jurnalistləri araşdırma aparmağa və tənqid etməyə səsləyirəm və ilk olaraq QHT sektorundan başlamağa dəvət edirəm. Ədliyyə Nazirliyinin saytına nəzər salsaq görərik ki, Azərbaycanda 100 000-lə qrant alan QHT-lər hansı işləri görüblər və həmin nazirlik tərəfindən qeydiyyata alınan 1000-lə QHT-nin rəhbərləri kimlərdi, kimə və nəyə xidmət edirlər. *(Müstəqil olanlardan, bank hesabına əl qoyulanlardan başqa).* Və sonda vicdan və siyasi məhbuslardan yazan jurnalistlərə xüsusi olaraq təşəkkür edirəm".

Qeyd edək ki, mayın 26-da Bakı Ağır Cinayətlər Məhkəməsində SMDT rəhbəri Anar Məmmədliyə, Bəşir Süleymanlıya və Elnur Məmmədova hökm oxunub. Anar Məmmədli 5 il 6 ay, Bəşir Süleymanlı 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Elnur Məmmədov isə 3 il 6 ay şərti həbs cəzası alıb. B. Süleymanlı məhkəmə zalında həbs edilib. Yerli və beynəlxalq hüquq müdafiə təşkilatları, demokratik ölkələr onların həbsini siyasi motivli sayır və seçki müşahidəçiliyi ilə məşğul olduqları üçün həbs edildiklərini bildirirlər.

❑ Sevinc TELMANQIZI

## TƏKZİB

**"Yeni Müsavat" qəzetinin 19 iyul tarixli sayında "Hikmət Hacızadənin Səməd Vurğun haqqında dedikləri etiraz doğurdu" başlıqlı yazıda yazıçı Seyran Səxavətin adından gedən fikirdə yanlışlığa yol verilib. Belə ki, Seyran Səxavətin açıqlamasında "Birinci şəxsdən tutmuş, sıravi insana qədər hər kəs ağlına gələni danışır" cümləsi "Deyirlər ki, ölkəmizdə söz azadlığı yoxdur. Bu fikirlərlə razı deyiləm. Kim nə istəyirsə, danışır" şəklində olmalıdır.**

❑ Redaksiya

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Nurəddin müəllim

**Həbsxanada vaxt öldürməkdən adamın heç nəyə vaxtı qalmır. Bu misranı istedadlı şair (şairə yazmağı xoşlamıram) Səadət Cahangirin "Vaxt" şeirinin təsiri altında yazdım. Yeri gəlmişkən, bu xanımın şeirlərini təkrar-təkrar oxumaqdan yorulmuram.**

Hə, orda qaldıq ki, həbsxanada vaxt öldürməkdən danışırdım. Vaxt öldürməyin ən yaxşı usullarından biri də xəyallara dalmaqdır. Keçən həftə nədənsə ilk müəllimim olmuş Nurəddin müəllimi xatırladım. Həftənin sonu evə zəng edəndə bacım dedi ki, kəndə gedibmiş, Nurəddin müəllimi görüb. Müəllimim onu mənim haqqında sorğu-suala tutub. Bacım deyir ki, Nurəddin müəllim mənim həbsimi sözün əsl mənasında ürəyinə salıb, çox nigarandır, səbirsizliklə azadlığa çıxmağımı gözləyir. Əlbəttə ki, bütün bunlar məni mütəəssir etdi. Təkcə mən yox, Nurəddin müəllimin bütün şagirdləri olmuş həmkəndlilərim onun necə həssas, duyğusal və mərhəmətli ürəyə sahib olduğunu yaxşı bilirlər. Ancaq məni daha çox mütəəssir edən Nurəddin müəllimin mənim həbsimlə bağlı keçirdiyi səmimi nigaranlığı yox, mənim niyə həbs edildiyimi bilməsi oldu.

Dəfələrlə yazılarımda doğma kəndimiz İncəoğlunu dünyanın ən gözəl kəndi adlandırmışam. Zaman-zaman müxtəlif bölgələrdən gəlmiş bütün qonaqlarım İncəoğlunu gördükdən sonra heç bir şişirtməyə yol verməyimi etiraf ediblər. İndi də eyni qətiyyətlə bildirirəm ki, dünyada ən gözəl ibtidai sinif müəllimi Nurəddin müəllimdir. İlahi, sənətini, uşaqları necə sevməlisən ki, müxtəlif psixologiyalı, nadinc, bəzən, hətta qabiliyyətsiz uşaqların nazını çəkə-çəkə, nazı ilə oynaya-oynaya, əsəbiləşmədən, söymədən-döymədən onlara hərfləri oxumağı, yazmağı öyrədəsən. Nurəddin müəllim hər bir uşağa, onun çıxdığı ailənin xarakterinə uyğun yanaşırdı. Ona görə də o elə ilk gündən bütün uşaqlarla dil, onların qəlbinə yol tapırdı. Birinci sinif uşaqlarının bir hissəsi ona "Nurəddin məllim", bir hissəsi də "Mürəddin məllim", bəziləri hətta "Mürəbbə məllim" də deyirdilər. Dəqiq yadımdadır ki, əmim oğlu Nazim ona " Mürəbbə məllim" deyirdi. Nədənsə birinci sinfə gedən ətcə balalara "Nurəddin" adını tələffüz etmək bir az çətin gəlirdi. Nurəddin müəllim ona uşaqların necə müraciət etməsinə düzəliş verməzdi, onların başını tumarlaya-tumarlaya, hətta qılıqlaya-qılıqlaya yazıb-oxumaq öyrədirdi.

1967-ci ildə səkkizillik məktəbin birinci sinfinə getmişəm. Dəqiq xatırlamıram, yəqin o günədək çoxları kimi mənim də ən böyük arzum böyüyəndə ya dondurmasatan, ya da şofer olmaq olub. Ancaq onu dəqiq xatırlayıram ki, Nurəddin müəllim məndə kitab-dəftərə məhəbbət oyatdı, onları sevməyi öyrətdi. O, həm də mənə dürüst olmağı, dürüstlük uğrunda mübarizə aparmağı öyrədirdi. Bir dəfə Qarabağda döyüşərkən çətin vəziyyət yaranmışdı. Həmin vəziyyətdən salamat çıxmamaq real idi, nəinki qurtulmaq. Təhlükəli vəziyyət yaranmışdı. Bir xəndəkdə gözəlim avtomatı sinəmə sıxaraq, qısaca xəyala daldım. Özümə sual verdim, mən niyə burdayam? Bir azdan hər şey bitəcək, cansız cəsədimin yerini bilən də olmayacaq. Axı mən də gedib Rusiyada-zadda özümə yaxşı həyat qazanmaqla məşğul ola bilərdim. Ola bilərdimi? Əlbəttə ki, yox! Mən burada döyüşdə olmalıydım, başqa yerdə ola bilməzdim. Atamın və əmilərimin məni hansı ruhda böyütdüklərini xatırladım. Bax, həmin an, həm də Nurəddin müəllimimi xatırladım. Bəli, Nurəddin müəllimin sevdiyi şagird, Nurəddin müəllimi sevən şagird məhz burada olmalıydı.

Elə qazamata da yolum eyni səbəbdən düşüb. Sizə salamlar olsun, ey dünyanın gözəl müəllimi. Əgər bu mənfur rejim məni qazamata atıbsa, deməli, əmin olmalısınız ki, mənə öyrətdiklərinizi sırğa edib qulağımdan asmışam. Bu o deməkdir ki, məktəb dərslərində olduğu kimi, vətən, qeyrət və həyat dərslərində də qiymətim, ancaq "5"dir.

Görüşənədək, müəllimim! Görüşəcəyik, müəllimim!

# Rauf Mirqədirovun istintaqındakı müəmmalı disk...

## İki dövlət qurumunun açıqlamasındakı disk qeybə çəkilib; vəkil: "Bunların Raufa qarşı irəli sürməyə mötəbər sübutları yoxdur..."



**"Ayna-Zerkalo" qəzetinin həbsdə olan yazarı Rauf Mirqədirovun istintaqında müəmmalı məqamlar ortaya çıxıb. Ən şübhəli məqamlardan biri Baş Prokurorluğun və Milli Təhlükəsizlik Nazirliyinin (MTN) iyulun 16-da birgə yaydığı açıqlamada göstərilən diskdir.**

Açıqlamada göstərilir ki, Mirəqədirova qarşı irəli sürülmüş 274-cü maddəni *("Dövlətə xəyanət")* sübut edəcək disk əldə edilib. Diskin montaj olmadığı bildirilir. Maraqlısı odur ki, keçən müddətdə açıqlamada qeyd olunan diskdən əsər-əlamət gözə dəyməyib. Belə bir vəziyyətin yaranması diskin olub-olmaması ilə bağlı şübhələr yaradır. Rauf Mirqədirovun vəkillərinin bu məsələdə ehtiyatlı danışmaları başadüşüləndir. Çünki qanunvericiliyimizə əsasən, hər bir vəkildən istintaq sirrini yaymamaqla bağlı iltizam alınır. Eləcə də işi araşdıran dövlət qurumlarının istintaq sirrini yaymağa səlahiyyətləri yoxdur. Amma reallıq budur ki, hər iki dövlət qurumunun açıqlamasında istintaq sirri yayılıb.

**Rauf Mirqədirovun vəkili Elmar Süleymanov müvəkkili barədə yayılan açıqlamaya şübhə ilə yanaşdıqlarını bildirdi:** "Bu diskin nə dərəcədə mövcud olması, reallığı əks etdirməsi sual altındadır. Ümumiyyətlə, bu diskdə Rauf bəyə qarşı irəli sürülən ittihamların sübut olunacağı ilə bağlı fikirlər düzgün deyil. Diskdəki "səs"in Rauf bəyə məxsus olub-olmaması bizdə olduqca şübhələr yaradır. Sübut əhəmiyyətinə malik olmaması birmənalıdır. Bu məlumatın yayılması Rauf bəyin vəziyyətini heç də ağırlaşdırmır. Çünki bir daha ictimaiyyətə sübut olunur ki, bunların Raufa qarşı irəli sürməyə mötəbər sübutları yoxdur. İctimaiyyətin fikrini başqa istiqamətlərə yönəldəcək, heç bir sübut olmayan belə bir məlumat yayıblar. Dedikləri ilə təqdim etdikləri arasında nəzərə çarpacaq dərəcədə ciddi fərqlər var".

**Vəkil açıqlamada adları çəkilən erməni təşkilatları məsələsinə də aydınlıq gətirdi:** "Məlum olmayan bir təşkilatın adı ilə yayılan məlumatların istintaqa təsiri yoxdur. Açıqlamada adı çəkilən "Samvel" adlı şəxs barədə heç kəsdə dəqiq məlumat yoxdur. Bu şəxs istintaqın özünə belə məlum deyil. Biz də belə bir şəxsin olmasını mətbuatdan öyrəndik. Deməli, "sübutları" bunlara təqdim edən mənbə naməlumdurl. Açıqlamada göstərilir ki, "Samvel" adlı şəxs yoldan keçən iki turistə disk hədiyyə edir. Sonra onlar buna baxış keçirərkən guya Azərbaycan MTN-in adına xələl gətirəcək məlumatların şahidi olublar. Sual ortaya çıxır ki, onlar bunu necə anladılar? Əsas şübhəli məqam diskin Baş Prokurorluğa göndərilməsidir. Onlar ən azından "Samvel" adını mətbuata açıqlamaya bilərdilər. Xırda bir məsələ böyük təkzibə yol açır".

**Elmar Süleymanov Rauf Mirqədirovun istintaq müddətinin 4 ay uzadılması ilə bağlı da mövqeyini açıqladı:** "Hakim qanunvericiliyi kobud şəkildə pozaraq ciddi qanun pozuntularına yol verdi. Bununla bağlı artıq apelyasiya şikayətimizi məhkəməyə təqdim etmişik".

Onu da qeyd edək ki, Rauf Mirqədirovun özü Baş Prokurorluğun və MTN-in açıqlaması ilə bağlı iyulun 18-də bəyanat verib. Bəyanatda o, hər iki dövlət qurumunu Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıqda ittiham edib.

Xatırladaq ki, Rauf Mirqədirov bu il aprelin 19-da Türkiyədən deportasiya edilərək, həbs olunub. Ona qarşı 274-cü maddə ilə ("Dövlətə xəyanət") cinayət işi açılaraq, barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib. Bu ayın 15-də isə həbs müddəti 4 ay uzadılıb. İrəli sürülmüş maddə üzrə ömürlük, yaxud 15 ilə qədər həbs cəzası nəzərdə tutulur.

❑ **Cavanşir ABBASLI**

# "Nə Qərb, nə Gömrük İttifaqı" siyasəti nə vaxta qədər davam edəcək?

## Mehman Əliyev: "Azərbaycan hakimiyyəti maraqlı deyil ki, bu bazara rus, amerikalı, fransız müdaxilə etsin"

**"Əgər biz Azərbaycanın xarici siyasətinə baxsaq, rəsmi Bakının siyasətinin meyli daha çox Qərbə tərəfdir. Ən böyük layihələr, islahatlar hamısı Avropa institutları ilə birgə həyata keçirilir".**



Mehman Əliyev

"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev bu fikirləri Azərbaycanın balans siyasətinə üstünlük verərək "nə Qərb, nə Gömrük İttifaqı" siyasətini davam etdirməsini və hər iki cinahdan təzyiqlərin artmasına rəğmən balans siyasətinə üstünlük verməsini şərh edərkən bildirdi. Qeyd edək ki, bir müddət öncə Moldova, Ukrayna və Gürcüstanın assosiativ sazişlə bağlı növbəti addım atmasına baxmayaraq, rəsmi Bakı Rusiyanı qıcıqlandırmamaq üçün kənarda qalmağa üstünlük verdi. Amma fakt budur ki, Moskva da Bakını öz yanında görməyə israrlıdır. M.Əliyevin fikrincə, Azərbaycanda aparılan işlər, islahatlar hamısı Qərbə bağlıdır: "Rusiya istiqamətini götürəndə biz MDB-də kifayət qədər zəif təmsil olunuruq. Müdafiə sistemi, təhlükəsizlik sahəsində əsasən Qərblə əməkdaşlıq var. Əlbəttə, burda bir sıra problemlər var. Bu da ondan irəli gəlir ki, Azərbaycan Qərb dəyərlər sistemi çərçivəsinə daxil olmağa tələsmir. Rusiya ilə ümumiyyətlə, getmək istəmir. Nə Gömrük İttifaqı, nə Avrasiya Birliyi, nə də başqa bir sistemdə. Yəni 1993-cü ildə Heydər Əliyev MDB dövlətlərinə üzv sazişi imzalayandan sonra bu istiqamətdə heç bir addım yoxdur".

**M.Əliyev 1993-cü ildən bəri Azərbaycanın Avropaya inteqrasiya istiqamətində xeyli irəli getdiyini xatırlatdı:** "Biz onda ATƏT-dən başqa heç bir institutun, proqramların üzvü deyildik, amma o vaxtdan bəri Avropanın xeyli strateji proyektlərində iştirak etməyə başlamışıq. NATO, Avropa Şurası, TRASEKA, neft-qaz dəhlizləri kimi layihələrdə əməkdaşlıq etmişik. Bizim bütün iqtisadi-siyasi islahatlar hamısı Qərbə bağlıdır. Bunu heç kim inkar edə bilməz. Amma Rusiya ilə belə əlaqələr yoxdur. Ona görə də, sadəcə olaraq, balans deyəndə, mən daha çox deyərdim ki, Rusiyadan qorxurlar. Biz Rusiyanın hətta qardaş slavyan dövləti Ukraynaya qarşı addımlarını da gördük. Rusiya qardaş xalqa özünü necə aqressiv göstərdi, bu, hamının gözü qarşısında baş verdi. Biz onu da gördük ki, Ermənistan assosiasiya sazişi imzalayanda Rusiya ona necə təpindi, hətta erməni xalqını və prezidentini alçaltdı, məcbur etdi ki, Gömrük İttifaqına daxil olsun. Ondan öncə Gürcüstana münasibəti də görmüşdük. Yəni Azərbaycana qarşı da eyni mövqe, siyasət var. Rəsmi və qeyri-rəsmi məlumatlar onu göstərir ki, Azərbaycan tərəfi, sadəcə olaraq, rusların iqtisadiyyatını maliyyələşdirir, yəni pul verir ki, ona əl vurmasınlar. Necə ki, vaxtilə hakimiyyətlər müəyyən illik haqq verirdilər ki, onlara əl vurmasınlar. Yəni burda qorxu var və bunu görürük".

**Ekspert deyir ki, Rusiya zəiflədikcə və Qərbin mövqeləri gücləndikcə Azərbaycan Qərbə tərəf daha aktiv şəkildə inteqrasiya edəcək:** "Mən hələ demirəm ki, burda başqa dövlətlərin də maraqları var. İran və digər bəzi dövlətlər var ki, Azərbaycan-Qərb yaxınlaşmasında maraqlı deyil. Ancaq əsas Rusiyadır. Ona görə də situasiya bir tərəfdən balansı saxlamağa məcbur edir, digər tərəfdən vəziyyət hakimiyyətin xeyrindədir ki, islahatları gecikdirsinlər. Çünki daxili hakimiyyətin möhkəmlənməsi, hər şeyi öz nəzarətinə götürmək, daha dərindən idarə etmək istəyi qalır. Ona görə də Azərbaycan hakimiyyəti maraqlı deyil ki, bu bazara rus, amerikalı, fransız müdaxilə etsin. Kimsə bura girirsə, onlarla şərikinə girməlidir, işləməlidir. Mən qlobal layihələri, neft-qazı demirəm. Ancaq yerli istehsal, xidmət, idxal olunan mallara nəzarət, bank sistemi hamısı inhisardadır. Ona görə də maraq daxildən daha çox güclənmək, içəri daha az müdaxilə imkanı yaratmaqdır ki, iqtisadiyyatın nəzarət paketi burda olsun, xaricin müdaxiləsi zəifləsin. Yəni strategiya bundan ibarətdir".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014

## Hakimiyyət məmur vitrinini YAP rəhbərliyi ilə təzələyir



Mübariz Qurbanlı

# Dini Komitə sədri postuna şok təyinat

### Uzun müddətdir boş qalan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi Mübariz Qurbanlıya tapşırıldı; iqtidar partiyasının funksionerləri dövlət işlərinə aparılır; bir sıra məmurlarla bağlı yaşanan problemlər iqtidarı bu sahədə yeni addımlar atmağa vadar edir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə yeni sədr təyin edilib. İyulun 21-də prezident İlham Əliyevin sərəncamı ilə bu vəzifəyə Mübariz Qurbanlı təyin olunub. Sabiq sədr Elşad İskəndərovun bu postdan uzaqlaşdırılmasından sonra onu əvəzləyəcək şəxslər arasında bir neçə nəfərin adı hallandırılsa da, M.Qurbanlının təyinatı gözlənilməz oldu.**

**Dini ekspertlər Kənan Rövşənoğlu və Ceyhun Məmmədov M.Qurbanlının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə sədr təyin olunmasını "Media forum" saytına şərh ediblər. K.Rövşənoğlu bildirib ki, M.Qurbanlı indiyədək daha çox siyasi fəaliyyətdə və partiya işində olub:** "Onun dinlə və ümumiyyətlə, ölkədəki dini situasiya ilə hər hansı bağlılığı olduğu haqda şəxsən məndə məlumat yoxdur. Bu mənada təyinat mənim üçün çox gözlənilməz oldu. Ancaq bu təyinat bir sıra məqamına görə maraq doğurur. Dini sahədə ciddi problemlərin olduğu, ölkədə radikal İslam fəaliyyətlərinin, çağırışların gücləndiyi bir zamanda, belə demək mümkünsə, "kənar" adamın dini komitəyə sədr təyin edilməsi onu göstərir ki, hökumət daha çox basqı xəttini götürəcək. Yəni Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin keçmiş sədrlərindən Elşad İskəndərovun dövründə olduğu kimi deyil, Hidayət Orucovun vaxtında olduğu kimi sərt xətt olacaq. Yeni təyinatın "kənardan" olması bunu deməyə əsas verir".

**Ceyhun Məmmədov da qeyd edib ki, bu təyinat ölkədə, eləcə də Şərqdə kifayət qədər ciddi proseslərin getdiyi bir dövrə təsadüf edir:** "Hazırda bir sıra müsəlman ölkəsində dini müstəvidə baş verən hadisələr Azərbaycan hökumətindən olduqca ciddi düşünülmüş siyasətin həyata keçirilməsini tələb edir. İraqda və Suriyada baş verənlərin fonunda Azərbaycanda da radikallığa meylli qüvvələrin aktivləşəcəyi ehtimalı güclüdür. Bu baxımdan hazırkı dövrdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə kimin rəhbərlik edəcəyi xüsusi əhəmiyyət daşıyır. Mübariz Qurbanlı dövlətçilik təcrübəsinə malik, ictimaiyyət tərəfindən kifayət qədər tanınmış, dini durumdan məlumatlı şəxslərdən biridir. Onun bu vəzifənin öhdəsindən necə gələcəyini zaman göstərəcək. Kimliyindən asılı olmayaraq bu vəzifədə çalışacaq insanın üzərinə çox böyük məsuliyyət düşür. Uzun müddət bu vəzifənin boş qalması dini durumda gərginliyi daha da artıra bilər. Dini durumda mövcud xoşagəlməz halların qarşısı indidən alınmasa, gələcəkdə Azərbaycan xalqı çox ciddi problemlərlə üz-üzə qala bilər".

M.Qurbanlının komitə sədri təyin olunması ilə əlaqədar Milli Məclisdə boş deputat yerlərinin sayı dördə çatır. "Media forum" bildirir ki, iyulun 21-dək parlamentdə üç deputat yeri boş olub. Prezident İlham Əliyevin deputat Mübariz Qurbanlını Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin etməsi parlament üzvlərinin sayını bir nəfər də azaldır, Mərkəzi Seçki Komissiyası onun səlahiyyətlərinə xitam verməlidir. Konstitusiyanın 85-ci maddəsinə görə, icra hakimiyyəti sistemlərində qulluq edən şəxs Milli Məclisin deputatı ola bilməz. Beləliklə, 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi deputatsız qalacaq. Hazırda 19 saylı Nərimanov, 34 saylı Xətai və 110 saylı Zaqatala seçki dairələrindən deputat yoxdur. 34 saylı dairədən deputat Gülər Əhmədova 2012-ci ilin oktyabrında mandatından imtina edib. 110 saylı dairədən deputat Hikmət Atayev 2013-cü ilin martında avtomobil qəzasında həlak olub. 19 saylı dairədən deputat Əli Əhmədov isə ötən il oktyabrın 22-də baş nazirin müavini təyin edilib və mandatını təhvil verib.

Yeri gəlmişkən, M.Qurbanlı bu ilin ilk ayında 60 yaşının tamamı münasibətilə qəzetimizə müsahibəsində "YAP sədrinin birinci müavini Əli Əhmədov kimi hökumətdə təmsilçiliklə bağlı irəli çəkiləcəyinizi gözləyirsinizmi? Hesab edirsinizmi ki, artıq parlament mərhələsi sizin üçün bitib və komandada yer almağınızın vaxtıdır" sualına maraqlı cavab verməşdi. O, "Şəxsən mən indiki fəaliyyətimdən, işimdən çox razıyam. 60 yaşın özü də ambisiyaların bitdiyi yaş olduğuna görə heç bir ambisiyam yoxdur" demişdi. Ancaq üstündən 6 ay keçəndən sonra M.Qurbanlının vəzifəyə təyin olunması maraqlı haldır. Görəsən, YAP funksioneri özü bu təyinatı gözləyib, yoxsa onunçün də gözlənilməz olub. M.Qurbanlı publika.az-a açıqlamasında bildirib ki, prezidentin etimadını doğruldacaq.

**"Cənab Prezident mənə etimad göstərdi, biz də bu etimadı doğrultmağa çalışacağıq. Amma indi ətraflı danışa bilmirəm, məşğulam. Bu barədə ətraflı sonra danışacam"**,- deyə yeni komitə sədri bildirib.

Bir məqamı da qeyd edək ki, bu posta ən şanslı namizəd kimi YAP üzvü, sabiq deputat Səyyad Aranın adı çəkilirdi. Ən azı ona görə ki, E.İskəndərov bu il mayın 2-də komitə sədrliyindən azad ediləndən sonra komitə sədrinin səlahiyyətlərini sədrin birinci müavini S.Aran həyata keçirib və o, hakim partiyanın sadiq üzvlərindən idi. "Media forum" saytına açıqlamasında S.Aran M.Qurbanlını komitənin sədri vəzifəsinə ən layiqli namizəd kimi dəyərləndirib: "Bu, çox gözəl təyinatdır. Mübariz Qurbanlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə ən layiqli namizəddir. Mübariz Qurbanlının dövlətçilikdə böyük xidməti var, Azərbaycan parlamentarizminin tanınmış nümayəndələrindən biridir. Eyni zamanda keçdiyi həyat təcrübəsi, elmi səviyyəsi və digər xüsusiyyətləri onu bu vəzifəyə yüzdə-yüz layiq edir".

Qeyd edək ki, bu, son prezident seçkilərindən sonra YAP rəhbərliyindən ikinci şəxsin yüksək vəzifəyə aparılmasıdır. Bundan əvvəl isə YAP icra katibi Əli Əhmədov baş nazirin müavini təyin olunmuşdu. Uzun illər YAP rəhbərliyində təmsil olunan bir sıra şəxslərin yüksək vəzifələrə aparılmamaları hakim partiyanın idarəolunmasında iştirak edən bir sıra şəxslər arasında narazılığa səbəb olmuşdu. İndi isə onlara vəzifə qapısı açılır, dövlət idarəçiliyində irəli çəkilirlər. Bu, həm də son vaxtlarda baş verən bir sıra hadisələrin nəticəsidir. Hakimiyyətin bəzi kadrları ilə bağlı müəyyən şübhələrin olması yüksək vəzifələrin daha inanılmış şəxslərə tapşırılmasını zəruri edir. Hakimiyyət daxilindən gələn məlumatlara görə, bu proses davam edə bilər. Buna görə də qarşıdakı aylarda bir sıra vəzifəli şəxsləri postlarında YAP rəhbərliyində təmsil olunan digər şəxslər əvəzləyə bilər.

M.Qurbanlının Dini Komitəyə sədr təyin edilməsi isə cəmiyyətdə şok effekti doğurub. Azərbaycanda dini sahədə vəziyyətin o qədər də yaxşı olmadığı indiki vaxtda bu sahəyə yad bir şəxsin təyin edilməsi birmənalı qarşılanmır.

❑ Elşad PAŞASOY

# Deputatlar İraq türkmənləri üçün həyəcan təbili çalır

**Qəzza olayları müəyyən qədər arxa plana keçsə də, artıq bir aydan çoxdur İraqda İŞİD terroru davam edir. İyunun əvvəlində şimalda ölkənin ikinci böyük şəhərini ələ keçirən terrorçular burda yaşayan dinc insanlara qarşı soyqırım həyata keçirib. Mosul, Telafer kimi şəhərlərdə çoxluq təşkil edən İraq türkmənləri bu prosesdə ən çox əziyyət çəkən əhali olub.**

Məsələ burasındadır ki, İŞİD-in Mosulu və ətraf bölgələri işğal etməsi ilə İraqın mərkəzi və qismən şimal əraziləri nəzarətdən çıxıb. Bu prosesdə fəallaşan kürdlər hökumət qüvvələrin boşaltdığı əraziləri tutmağa başlayıb. Beləliklə, son olaylar nəticəsində İraq türkmənləri həm İŞİD, həm də İraq kürdlərinin basqısı altında qalıb. Ancaq gözlənildiyi kimi, Türkiyə hökuməti İraq türkmənlərinə lazımi dəstəyi vermədi. Bunun bir səbəbi türkmənlərin İraqda ən passiv qrup və şiə məzhəbli olması, nəhayət, Türkiyə hökumətinin Mosul konsulluğunun İŞİD yaraqlıları tərəfindən girov saxlanılması ilə izah olunur.



**Sabir Rüstəmxanlı:**
"Bu gedişlə kürd dövləti qurulduqdan sonra türkmənlərin vəziyyəti daha pis olacaq"



**Fəzail Ağamalı:**
"Azərbaycan cəmiyyəti birmənalı olaraq İraq türkmənlərinin yanında olmalıdır"

Təəssüf ki, digər türk respublikaları, müsəlman dünyası İraqın şimalında tarixi vətənlərində olmazın işgəncələrini və məhrumiyyətlərini yaşayan türkmən xalqına dəstək olmadı. Azərbaycanla xeyli dərəcədə yaxın əlaqələrə, bağlılığa malik olmasına rəğmən İraq türkmənlərinə Azərbaycandan da lazımi dəstək verilmədi.

**Milli Məclisin deputatı, DAK sədri Sabir Rüstəmxanlı "Yeni Müsavat"a açıqlamasında İraq türkmənlərinin problemlərini hər zaman gündəmdə saxlamağa çalışdığını bildirdi. Ancaq onun sözlərinə görə, ictimai rəy türkmənlərə qarşı həssaslıq göstərmədi:** "Milli Məclisdə türkmənlər mövzusunda çıxış eləmişdim. DAK adından bəyanat vermişik. Dəfələrlə yazılarımız olub, bu yaxınlarda twitter-də bir yazım olmuşdu. Bu dəqiqə Türkiyədə İsrailə qarşı Fələstini, Qəzzanı müdafiə aksiyaları keçirilir. Və seçki öncəsi də bundan istifadə edənlər var. Guya İslam birliyi, İslam qardaşlığı adına kampaniya keçirirlər. Ancaq Kərkükdə, Telaferdə ölənlər, övladları gözünün qabağında öldürülən, həyatını, varlığını, evini itirən insanlar da türk olmaqla yanaşı, həm də müsəlmanlardır. Ərəb müsəlmanlarına, Fələstin müsəlmanlarına bu qədər canı yanan Türkiyə rəsmisi İraq türkmənlərinin taleyinə bu qədər laqeyddir. Mən bu barədə dəfələrlə demişəm, yazmışam. Ancaq bu qədər deyilməsinə və yazılmasına baxmayaraq vəziyyət dəyişmir".

**S.Rüstəmxanlı rəsmi Bakının İraq türkmənləri üçün edəcəyi işin az olduğunu, ancaq əsas işin ictimaiyyət tərəfindən görülə biləcəyini deyir:** "Azərbaycanın Türkiyə qədər imkanları yoxdur. Türkiyə İraqla həmsərhəddir, eyni zamanda Türkiyənin Kərkük və Mosulla bağlı bir qarantorluq hüququ var. Amma təəssüf ki, burda bunların heç birindən istifadə olunmadı. Türkmənlər əlacsızlıqdan, İŞİD-in təhlükələrindən qorunmaq üçün terrorçu təşkilatlara, PKK-ya sığınmağa məcbur olub. Oradakı durum çox pisdir və bu gedişlə kürd dövləti qurulduqdan sonra oradakı türkmənlərin vəziyyəti daha da pis olacaq. Azərbaycan burda yalnız diplomatik yolla təzyiqlər göstərə bilər. Bir də humanitar yardımlar mümkündür. Kərkük türkmənləri bizim bir parçamızdır. Füzulini, bir çox böyük sənət və söz adamlarını dünyaya bəxş eləmiş toplumdur. Güney Azərbaycanı nəzərə almasaq, Azərbaycanın bir uzantısıdır, qədim Azərbaycan torpağıdır. Ancaq təəssüf ki, bizim həm müharibə şəraitində olmağımız, həm də gənc dövlət olmağımız bəzən ciddi reaksiya verməyimizə mane olur. Türkmənlər üçün pul toplamaq üçün marafon vaxt istəyir, yayda indi vaxt yoxdur. Həm də bu işin texnologiyasını bilən, təcrübəli insanlar lazımdır. Mən bu işləri o qədər də bilmirəm. Amma biz bu həftənin sonunda İraq türkmənlərinə həsr olunmuş dəyirmi masa keçirəcəyik".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı İraqda baş verənlərin türkmənlər üçün faciəyə çevrildiyini deyir:** "İraqda son dərəcədə ağır, hətta nəticəsi proqnozlaşdırılmayan qanlı proseslər gedir. Orada bizim soydaşlarımız olan türkmənlər də bu ağır faciəni öz üzərlərində daşımaqdadırlar, ağır qurbanlar verməkdədirlər. Təəssüf ki, İraq hökumətinin İŞİD silahlılarının qarşısını almağa gücü çatmır. Avropa dövlətləri isə bəyanatlar verməklə kifayətlənir. Türkiyə də bir şəkildə bəyanatdan o tərəfə keçən hansısa addımlar atmır. Yaranmış situasiyadan istifadə edərək Kürdüstan özünün dövlətini yaratmağa çalışır. Artıq yeni kürd dövləti yaranma ərəfəsindədir".

**Türkmənlərin gələcəyinin qaranlıq olduğunu qeyd edən F.Ağamalı deyir ki, Azərbaycan cəmiyyəti türkmənlərin yanında olmalıdır. Partiya sədri qəzet vasitəsilə siyasi partiyaların konfransını keçirməyə çağırış etdi:** "Belə bir vəziyyətdə əlbəttə ki, türkmənlərin, bizim soydaşlarımızın taleyi qaranlıqdır. Onların vəziyyətdən necə çıxacaqları bəlli deyil, ortada çox ciddi suallar var. Ona görə də, məncə, Azərbaycan cəmiyyəti birmənalı olaraq İraq türkmənlərinin yanında olmalıdır. Hazırda bildiyiniz kimi, yay vaxtıdır, insanların böyük əksəriyyəti tətildədir. Ancaq yaxın zamanda siyasi partiyaların, Azərbaycan cəmiyyətində ictimai rəyin formalaşmasında gücü olan siyasi partiyaların bu məsələ ola bağlı dəyirmi masa keçirməsinə düşünürəm ki, ehtiyac var. Sizin qəzetiniz vasitəsilə bu ideyanı irəli sürürəm və düşünürəm ki, yaxın günlərdə bu tədbiri keçirmək olar".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014

**Müsavat Partiyası Divanını üzvü, iqtisadçı-ekspert Qubad İbadoğlunun "Yeni Müsavat" qəzetinə verdiyi müsahibənin sonuncu - 3-cü bölümünü təqdim edirik.**

# "QHT sektorunda həbslər gündəmə gələ bilər"

## Qubad İbadoğlu: "Bu hakimiyyətin Azərbaycana ən böyük mirası işsizlikdir"

***- Qərb bu məsələdəki mövqeyini hansısa formada konkretləşdiribmi?***

- Müxtəlif səviyyələrdə reaksiya var, ancaq ciddi təpkidən söhbət gedə bilməz. Diplomatlarla görüşündə dövlət başçısı İlham Əliyev dedi ki, biz müstəqil dövlətik, heç bir dövlət və ya onun başçısı bizə təsir göstərə bilməz. Bugünlər zaman baxımından da uğurlu dönəm deyil. Ramazan ayıdır, vətəndaş cəmiyyətinin təmsilçiləri də daxil olmaqla, bu ayda o qədər də fəal deyillər. Qərb üçün isə bu aylar istirahət, məzuniyyət aylarıdır. Qurumların çoxu payıza doğru yenidən fəaliyyətlərini artıracaqlar. O zaman reaksiyalar ola bilər, Azərbaycanla bağlı müzakirələr, bəyanatlar arta bilər. Ancaq bu da çıxış yolu deyil. Anar Məmmədlinin həbsindən sonrakı durumu yada salın. Ən yüksək səviyyələrdə bu həbs pislənib, neçə-neçə bəyanatlar qəbul olunub, ancaq Azərbaycan iqtidarının buna adekvat cavabı olmayıb. Hətta edilən müraciətlərin çoxu ümumiyyətlə cavablandırılmır.

***- Çıxış yolu nədir o zaman?***

- Dəfələrlə demişəm ki, vətəndaş cəmiyyəti ilə dialoq olmalıdır. Azərbaycan hakimiyyəti ölkədə fəaliyyət göstərən beynəlxalq qurumların, diplomatik korpus təmsilçilərinin, vətəndaş cəmiyyəti institutları təmsilçilərinin iştirakı ilə dialoqlara başlamalıdır. Bu, yüksək səviyyədə təşkil olunmalıdır. Çünki biz aşağı səviyyədə dialoq təşkil etsək, qərarların dəyişməsinə nail olmaq mümkün olmayacaq. Aşağılar bu qərarların qəbul olunmasında iştirak eləmirlər. Onlar yalnız icra edirlər. Hətta nazirlik səviyyəsində qərarlar qəbul etmək səlahiyyəti onların əlindən alınıb və bu səlahiyyətlər daha yüksək vəzifələrin sahiblərinə verilib. Ona görə də dialoq da qərar verən şəxslər səviyyəsində olmalıdır.

***- Qubad bəy, Azərbaycandakı bütün QHT-lərin bank hesabının dondurulduğunu deyirsiniz. Ancaq mediaya bu proses haqqında heç bir bilgi verilmir. Aydındır ki, Azərbaycanın öz reallıqları var - bəzən nəticə əldə etmək üçün məsələləri dar çərçivədə həll etmək gərək olur. Sizcə, indiki halda bu xəbərlər ictimailəşdirilməlidirmi?***

- İctimailəşdirilməlidir. Birmənalı. Ancaq hamının içərisində bir gözlənti var. Bütün vətəndaş cəmiyyəti institutları gözləyir ki, onların müraciətləri müsbət cavablandırılacaq. Bəzi qurumlarla bağlı prokurorluqda yoxlamalar gedir. Kimlərinsə ölkədən çıxmasına qadağa qoyula bilər. Ölkədən çıxmasına qadağa qoyulan şəxslərdən kimlərinsə həbsi gündəmə gələ bilər. Bunlar gözləniləndir. Bugünlərdə Gəncədə həbs olunan Həsən Hüseynli Azərbaycan vətəndaş cəmiyyətinin ən sağlam, saf, eyni zamanda işgüzar təmsilçilərindən biridir. Avropa gənclər paytaxtı elan edilən Gəncədə gənclərlə çox gözəl iş aparırdı. Ancaq onu saxta, qurama ittihamlarla həbs etdilər. Bunu da göz qabağına alanlar var. Hər kəs görür ki, repressiya maşını getdikcə daha da güclənir. İllərlə bu cameədə olan insanlar da bu narahatlıqları yaşayırlar.

***- Siz bayaq Anar Məmmədlinin həbsi məsələsinə toxundunuz. Vətəndaş cəmiyyəti cameəsində qarşılıqlı münasibətlər necədi? Bəlkə bu gün üzləşdiyiniz mənzərə Anar bəyin həbsi zamanı ortaya ciddi təpki qoyulmaması ilə bağlıdır?***

- Şərq Tərəfdaşlığı Proqramının Vətəndaş Cəmiyyəti Forumu var. Həmin forumun Anar Məmmədlinin həbsi ilə bağlı 5 bəyanatı olub. Vətəndaş cəmiyyətinin bütün aparıcı qurumları bu həbsə etirazlarını dəfələrlə bildirib. Bəyanatlardan, tələblərdən başqa edə biləcəyimiz heç bir iş yoxdur. Daha bir məsələ də var - toplum vətəndaş cəmiyyəti institutlarının önəmini yetərincə dərk etmir. Təbii, burada bizim media ilə işləməməyimizin də rolu var. Nəticə isə odur ki, bu gün hətta müxalifət düşərgəsində QHT-lərə qarşı bir qıcıq var. Elə müxalifətçilər var, onların vətəndaş cəmiyyəti institutlarına münasibəti hakimiyyətin münasibətindən fərqlənmir. Onların fikrincə, QHT-lər qrant alıb mənimsəməklə məşğuldurlar. Bu, çox yanlış bir yanaşmadır. Öz təşkilatım adına deyə bilərəm ki, biz Azərbaycanda beynəlxalq səviyyəli maliyyə-mühasibat sistemi qurmuşuq. Biz bilirik ki, hansı ölkədə fəaliyyət göstərirk və nələrlə üzləşə bilərik. Yəni bir yanaşmanı bütün qurumlara aid etmək olmaz. Əgər səhlənkarlıq edənlər, maliyyə fəaliyyəti şəffaf olmayanlar varsa, onlar qanuna dəvət edilməlidir. Cəmiyyəti də başa salmalıyıq ki, QHT-lərin əngəllənməsi Azərbaycanın inkişafının qarşısını alan böyük əngəldir.



**"Bu gün hətta müxalifət düşərgəsində QHT-lərə qarşı bir qıcıq var. Elə müxalifətçilər var, onların vətəndaş cəmiyyəti institutlarına münasibəti hakimiyyətin münasibətindən fərqlənmir"**

***- Qubad bəy, bir qədər də Azərbaycanın ümumi iqtisadi durumu haqqında danışmağınızı istəyirik. Ölkə üçün ən ciddi problem, sizcə, nədir?***

- Bu iqtidarın Azərbaycana ən böyük mirası işsizlik olacaq. Bu ili hökumət Azərbaycanda sənaye ili elan edib, amma sənayedə 2,1 faiz azalma var. Azərbaycanda iqtisadiyyatın şaxələnməsi haqqında çox danışılır, ancaq yeni də iqtisadiyyat neftdən asılıdır. Qeyri-neft ixrac məhsulu 4,5 faiz azalıb. Ölkəyə ərzaq idxalı durmadan artır. Azərbaycan Hollandiya xəstəliyinə tutulub. Biz nefti satırıq və əldə etdiyimiz maddi gəlirlərə ərzaq alırıq. Böyük istehlak xərcləri ildən-ilə artır, qiymətlər bahalaşır. Əldə edilən gəlirləri iqtisadiyyatın bu günü, gələcəyi üçün əlavə dəyər yaradan sahələrə yönəldə bilmirik. İldən-ilə bu problemlər ciddiləşir. Bu gün Azərbaycan büdcəsini doldurmaq probleme çevrilib. Kiçik və orta sahibkarlıqdan yığılan vəsait büdcənin əsas donoruna çevrilib. Halbuki Azərbaycanın yetərincə böyük potensialı var. Bu yaxınlarda 2013-cü il üzrə hesabat hazırladıq, bəlli oldu ki, 2013-cü ildə "Kaspar" QSC büdcəyə cəmi 100 min manat vergi verib. Bu, kiçik sahibkarlıqla məşğul olan qurumların göstəricisi qədərdir. "Kaspar"ın nə qədər gəmiləri, yaxtaları var, onlar hamısı ayrı-ayrı şirkətlərdə icarədədir, dövlət niyə oradan qazanılan gəlirləri büdcəyə yönəltmir. Dövlətin həll edəcəyi yetərincə ciddi məsələlər var. Bu problemləri biz görürük, deyirik, ancaq təəssüflər olsun, onların çözümü üçün çox gec təşəbbüslər irəli sürülür, ya da kampaniya xarakteri daşıyır. Biznes-forumlarda çıxış edən yetkililər deyir ki, Azərbaycanda artıq idxalı əvəz edən iqtisadiyyat formalaşıb. Reallıq isə tam fərqlidir. Xarici-ticarət hesabatında təkcə kartofun dəyəri ilə bazardakı qiymətləri müqayisə edəndə iqtisadiyyatla bağlı mənzərəni aydın təsəvvür etmək olur. Rusiyadan 4,4 qəpiyə gələn kartofu əhali 90 qəpiyə alır. Ən bahalı kartof 7-9 qəpikdən rəsmiyyətə salınıb. Üzərinə vergiləri də əlavə etsək, qiymət 10 qəpiyi keçmir. Niyə istehlakçılar bunu 1 manata, 1 manat 50 qəpiyə alır? Bu dəqiqə mənim səlahiyyətlərim olsa, Azərbaycanda qiymətlərin, xüsusən ölkəyə daxil olan ərzaq məhsullarının qiymətini 2 dəfə ucuzlaşdırmasına nail ola bilərəm. Bunun çox sadə formulası var - idxaldakı monopoliyaları aradan qaldırmaq lazımdır. Dünya Ticarət Təşkilatının tələblərinə uyğun olaraq Azərbaycan gömrük orqanlarının yenidən qurulması prosesini həyata keçirməlidir. Əslində ölkə iqtisadiyyatının tamamilə modernləşdirilməsinə ehtiyac var. İnvestisiyaların axını üçün şərait yaradılmalıdır. İnvestisiya təkcə pul deyil ki, texnologiyadır, elmdir, yenilikdir. Bu investisiyalar gəlsə, ölkə yenilənə bilər, yeni iş yerləri açıla bilər. Nəticədə iqtisadiyyat şaxələnər, ciddi problemlər çözülər. Bu gün daxildəki monopoliyalar investisiya axını üçün ciddi baryerdir.

Korrupsiya və monopoliya beynəlxalq hesabatlarda Azərbaycanın 2 ən ciddi problemi kimi göstərilir. Hökumətin korrupsiya ilə bağlı ən azı bəyanatları var, monopoliyadan isə heç danışılmır. Sanki hökumət bu məsələni adi həyat normasına çevirməyə çalışır.

Bütün sahələrə eyni yanaşma var. Mən bir zaman demişdim ki, zaman gələcək Azərbaycanda banklarla QHT-lərin sayı bərabər olacaq. Uzağı 30 QHT qalacaq. Ehtiyac olanda onlara sifarişlər verib işlədəcəklər. Eyni yanaşmanı hökumət biznesə də tətbiq edir. Azərbaycan iqtisadiyyatı 15-20 holdinqin üzərində qurulub. Həmin holdinqlərin mülkiyyət sahibləri bəllidir. Bizə bəllidirsə, hakimiyyətdə olanlara da bəllidir. Hakimiyyət həmin holdinqlərin işinə ildən-ilə daha geniş şərait yaradır. Çünki həmin sahiblərin sahibləri özləridir. Necə ki, xarici donorun vətəndaş cəmiyyəti institutlarına maliyyə ayırmasını istəmirlər, eyni cür də xarici investorların iqtisadiyyata yatırım qoymasını istəmirlər. Hətta bildirilir ki, Azərbaycan başqa ölkələrə sərmayə qoyursa, bizim sərmayə cəlb etməyə nə ehtiyacımız var? Hakimiyyət daxili institutlar hesabına ölkəni tam nəzarətdə saxlamaq istəyir. Hökumət indi daha səmimidir. Qabaqlar bu işləri gizlində görürdülər, indi isə açıq görürlər. Məqsəd odur ki, ölkə tam nəzarətdə olsun, hakimiyyətin sifarişlərini yerinə yetirsin.

***- Azərbaycan cəmiyyəti getdikcə dünyadan tamamilə təcrid olunur. Baş verənləri regionda gedən qlobal proseslərin tərkib hissəsi sayırsınızmı?***

- Təbii. Bu gün Türkiyədə, Suriyada, İraqda, eləcə də Ukraynada, Rusiyada baş verən olaylar təhlil olunur. Dünya görür ki, Azərbaycanın yerləşdiyi region çox hərəkətlidir. Ona görə də bu regionu tam nəzarətdə saxlamaq, demokratiya nəfəsliklərini qapatmaq istəyirlər. Üstəlik, ölkə Rusiya, Ermənistan, İran tərəfdən davamlı təhdid altındadır. Bu ilin fevralında mən İraqda beyin mərkəzlərinin toplantısına dəvət edilmişdim. Bağdadda ciddi hərbi rejim hökm sürürdü, hər yer silahlıların nəzarəti altında idi. O zaman mən dərk etdim ki İraqda problemlərin ən böyüyü hələ bundan sonra başlayacaq. Çünki nəzarət müxalif qüvvələri daha da radikallaşdırır. Bu yanaşma Azərbaycan üçün də keçərlidir. Fəaliyyəti qadağan olunan istənilən qurum müxalifətdə yer alacaq.

**"Ən bahalı kartof 7-9 qəpikdən rəsmiləşdirilir. Üzərinə vergiləri də əlavə etsək, qiymət 10 qəpiyi keçmir. Niyə istehlakçılar bunu 1 manata, 1 manat 50 qəpiyə alır? Bu dəqiqə səlahiyyətlərim olsa, Azərbaycanda ərzaq məhsullarının qiymətini 2 dəfə ucuzlaşdıra bilərəm"**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014



# Quldur bıçağı kimi skalpel

Xalid KAZIMLI

**Bu ölkədə səhiyyə sisteminin necə bərbad olduğu haqqında heç nə yazılmasa da, deyilməsə də, danışılmasa da, ölkənin xaricə çıxış məntəqələrində durub müşahidə aparmaq yetər: hər gün yüzlərlə, bəlkə də minlərlə insan canındakı "pünhan mərəz"i də götürüb yurd dışına çıxır.**

Bu İran, bu Türkiyə, bu Rusiya, bu İsrail, bu Gürcüstan, bu Almaniya, bu Ukrayna, bu Belorusiya... Azərbaycanlılar öz sağlıq problemləri ilə bu ölkələrin şəfa ocaqlarına axışırlar. Hətta Qazaxıstana gedənlər də var. Kimin bir az artıq maddi imkanı və qıraqda dostu-tanışı var, ora gedir. Təki öz həkimlərimizin əlinə düşməsin.

Əslində, yerli həkimlərin ümidinə qalanların xərci-xəsarəti də az çıxmır, hətta daha çox çıxır. Sadəcə, bir çox insanlar nabələdlikdən xaricdə müalicəyə getmirlər. Gediş-gəliş, yer tapıb yerləşmək asan olsa, uzun yol gözə durmasa, burda qalan olmaz.

Bunun başlıca səbəbi odur ki, bizim ölkəmizdə tibb işçilərinin böyük əksəriyyətinin əsas məqsədi insanlara şəfa vermək deyil, pul qazanmaqdır. Tibb ocaqları əslində biznes obyektləridir. Sadəcə, adam qəssab olacaqmış, həkim olub, əlində dönər bıçağı işlədəcəkmiş, skalpel işlədir, təkərə hava vuran vulkanizator olacaqmış, gəlib anestezioloq olub və sair və ilaxır.

Yaxşı həkimlərimizin haqqını yeməyək. Elələri də var. Amma çox azdırlar. O qədər azdırlar ki, hamımıza rast gəlmirlər. Yaxşı həkimin adama rast gəlməsi bəxt işidir, tanış-biliş, düzgün tövsiyə işidir. Durduq yerdə, təsadüfən, tanımaza-bilməzə qapısını açıb içəri girərək, yaxşı, vicdanlı həkimə rast gələ bilməzsən.

Dünyanın ən etinasız həkimləri bizdədir. Doğrudur, həkim soyuqqanlı olar, emosiyalarını cilovlamağı bacarar, amma bizim həkimlər o mənada soyuqqanlı deyil, bunların soyuqqanlılığı gönüqalınlıqdandır. Xəstə yiyəsinin pulu var, yoxdur, onlara dəxli yoxdur. Neştər əllərində hazır dayanıblar, xəstə yiyələri deyilən məbləği tapıb düzəldib verməsələr, xəstə ölümə məhkumdur.

Son illər bu ölkədə elə klinikalar, tibb mərkəzləri açıblar ki, İsrail və Almaniya həkimləri belə gəlib onların içindəki avadanlıqlara, səliqə-sahmana, təmizliyə həsəd apararlar. Amma bu tibb marketlərində qəssab, möhtəkir təfəkkürlü personallar oturub. Onları bu cür olmağa "şəfa ocaqları"nın sahibləri vadar edirlər. Beş-in nəfər vicdanlı həkim də o cür "tibb maqnatları"nın muzdlu fəhləsi olaraq vicdan əzabı çəkməkdə, simaları itirmələri üzündən mənəvi iztirab yaşamaqdadırlar.

Bəli, bu ölkədə xəstələnməmək mümkün deyil - qidalanma, hava, su, təbii şərait imkan vermir. Bura Lozanna, Cenevrə, Sürix, Kalqari, Ottava, Stokholm, Karlovı Varı, Lerik deyil ki, havası, suyu sağlıqlı yaşamağa imkan versin. Burada müxtəlif xəstəliklərə tutulmaq, yoluxmaq qaçılmazdır. Ancaq daha pisi odur ki, burada xəstəliklərdən yaxa qurtarmaq çox bahalı layihədir, həm də çox bahalı.

Bildiyiniz kimi, köşə yazarımız Mahal İsmayıloğlu neçə vaxtdır sağlıq problemləri ilə üzləşib. Necə deyərlər, dərmanlarla yaşayır. Dünən zəng eləmişdi, bir az söhbətləşdik. Elə səhiyyə mövzusunda yazmağı onunla söhbətdən sonra qərara aldım.

Mahal bəy qəbul etdiyi dərmanların bahalığından narazılıq etdi. Heç demə, həkimlərin ona təyin etdiyi mirsera adlı dərman Bakı şəhərində 125-138 manata tapılır - yəni ən ucuz aptek dərmanı 125 manata, bahacıllar isə 138 manata təklif edir. Qırxdır, bir əskik deyil, alırsan, al, at, sağal, almırsan, özün bilərsən.

Jurnalist həmin dərmanı tapmağı Türkiyədəki dostlarından xahiş edib. Məlum olub ki, bu dərmanın qiyməti Türkiyədə vur-tut, 27 dollardır - bizim pulla 21 manat 50 qəpiyə. İndi siz qiymətlər arasındakı fərqə baxın.

Bir həmin dərman olsaydı, nə vardı ki. Mahal İsmayıloğluna yazılmış reseptdəki dərmanların qiymətinin ümumi məbləği 538 manat edirmiş. Eyni dərmanları ona Türkiyədən alıb göndəriblər - 174 dollara, bizim pulla - 135 manata. Yəni yeddi cür dərman-dava təkcə mirseranın qiymətinə.

Belə səhiyyə, belə əczaçılıq xidməti hansı ölkədə var? Belə də soyğunçuluq olarmı? Bunun adı qarət, oğurluq deyil. O ifadələr yüngül qalır. Bu, gecənin qaranlığında bıçağı boğaza dirəyib "cibindəkiləri ver" deyən quldur hərəkəti ilə eyni şeydir, hətta daha da pisdir. Quldur ən azı "bilmirəm, get qohum-əqrəbandan topla, kredit götür, gətir mənim pulumu ver" demir.

Bu ölkədə həkimin skalpeli quldurun bıçağından daha pisdir.

# Qocaman YAP-çıdan şok açıqlamalar və ittihamlar

**Yeni Azərbaycan Partiyasının (YAP) üzvü, sabiq deputat Maksim Musayevin YAP-ın icra katibi, baş nazirin müavini Əli Əhmədova və digərlərinə ünvanlı tənqidi çıxışlarına bəzi reaksiyalardan ötən saylarımızda bəhs etmişdik. Təhsil eksperti Etibar Əliyevin qocaman YAP-çını söylədiyi fikirlərə görə tənqid etməsi qarşı tərəfdən də əks reaksiya ilə qarşılanıb.**

*M.Musayev zəng edib E.Əliyevin dediklərinə münasibət bildirmək istədiyini dedi və ona mövqeyini ifadə etmək üçün fürsət yaratdıq. M.Musayevin dediklərindən:*

- Hiss olunur ki, bu adam nə məni tanıyır, nə məni bilir, nə məndən xəbəri var. Deyir ki, Maksim Musayevin fəaliyyətindən xəbərdaram. Ancaq görünür ki, o, mənim tərcümeyi-halımı bilir. Ancaq mən istədim sizin qəzet vasitəsilə Əli Əhmədova deyim ki, o yazıq yaman əziyyət çəkib. Bu mənada gözü onun üstündə olsun, imkan varsa, ona vəzifə versin, maddi yardım göstərsin. Bu adam deyir ki, Qərbi Azərbaycan regionunun hamısı karyerapərəst, vəzifəpərəstdir. Deyəsən, o da Qərbi Azərbaycandandır. Hiss olunur ki, onun da ürəyindən vəzifə, karyera keçir. Mən istəyirdim Əli Əhmədova deyim ki, ona kömək eləsin. Özü deyir ki, qərbi azərbaycanlılar vəzifəpərəstdirlər, mən də oralıyam. Yəni bu, işarə eləyir ki, ona kömək eləsinlər.

***- Amma burdan ortaya çıxan bir nəticə də var ki, bu mərhələdə sizi müdafiə edən yoxdur, hətta qərbi azərbaycanlılar arasında da...***

- Mənim müdafiəyə ehtiyacım yoxdur axı. Kiminsə müdafiəsini istəmirəm. Çünki mən nə vəzifə, nə pul istəyirəm. Mən istəyirəm ki, yaratdığımız partiyanın fəaliyyəti canlansın. Mənə vəzifə lazım deyil. Beş dəfə vəzifə təklif ediblər, imtina etmişəm. Oturub kitablarımı yazıram, 12-yə yaxın siyasi kitabım çıxıb.

***- Amma yaşınızın bu vaxtında siz sakitcə YAP-dan uzaqlaşıb kitablarınızla da məşğul ola bilərdiniz...***

- Mən niyə YAP-dan uzaqlaşmalıyam? YAP-ı yaratmaqdan ötrü o qədər əziyyət, zülm çəkmişik, canımızı bu yolda qoymuşuq, təhlükələrlə üzləşmişik. Elə vaxt olub bizi həbsxanalara salmaq istəyiblər. Mən nə təhər YAP-dan uzaqlaşım? Nədi-nədi ora 2-3 nəfər gəlib yığışıb. YAP öz fəaliyyətini göstərib, yenə göstərəcək. Orda çox dəyanətli, qabiliyyətli uşaqlar, yaxşı insanlar var.

***- Sizin son açıqlamalarınızdan sonra bizə bəzi telefon zəngləri olub. Bəzi opponentlərinizin dediyinə görə, 90-cı illərin əvvəllərində Heydər Əliyevin Ali Sovetdəki çıxışına imkan verməyən partokratların sırasında siz də olubsunuz, hətta ayaqlarını yerə döyənlər arasında da adınız hallanır. Bu deyilənlərdə həqiqət varmı?***

- Vallah, indi kim nə deyir-desin, mən ona əhəmiyyət vermirəm. Mənim bir kitabım var: "Heydər Əliyevin qayıdışı: parlamentdə". O kitabda hamısı yazılıb. Kimsə onu oxuyubsa, elə söz danışmaz. İkincisi, nə mən, nə YAP-ı yaradanların Heydər Əliyevi hakimiyyətə gətirməkdə fikri o deyildi ki, gəlsin bizə vəzifə versin. O vaxt Azərbaycan çox yüksək sürətlə dərəyə dığırlanırdı. İstər iqtisadi, istər siyasi, istərsə də hərbi cəhətdən...Ona görə də onun başına yığılmalıydıq ki, Azərbaycanı xilas edək. Orda yığılanların hamısı vətənpərvər, millətini sevən adamlar idi.

***- Amma belə yanaşma da var ki, əslində Heydər Əliyevi hakimiyyətə YAP dəvət etmədi, Əbülfəz Elçibəy dəvət etdi və təşəkkür etmək lazımdırsa da, Elçibəyə edilməlidir.***

- *(Gülür)* Çox düzgün məsələyə toxundunuz. Bəli, Əbülfəz Elçibəy bu məsələdə çox düzgün mövqe tutmuşdu. Onun ətrafına yığılan bəziləri çox çalışırdılar ki, başqaları olsun, nə bilim nə... Mən o işin içində idim, əlaqələrim də çox güclü idi. O vaxt Elçibəy ayağını dirədi və digərlərini də başa saldı ki, bu ölkəni xilas edə biləcək yeganə adam varsa, o, Heydər Əliyevdir. Hətta mənim iki dəfə Əbülfəz Elçibəylə görüşüm olub. Həmin görüşdə də mən hiss etmişəm ki, onun Heydər Əliyevə böyük hörməti var, Heydər Əliyev haqqında yüksək fikirlər söyləyir. Hətta bir epizod danışım. Biz o vaxt Heydər Əliyevin gəlişi ilə əlaqədar imza toplayırdıq ki, parlamentin iclası çağırılsın. Onda kimin harda imza toplayacağını bölüşdürmüşdük. Ali Sovetdə Yusif Hümbətovun kabinetində imza toplamaq haqqında iclaslar keçirirdik, səhv etmirəmsə, o, köməkçi işləyirdi. İmza toplayanlar içərisində bəziləri var idi ki, mən filankəsi tanıyıram, gedib ondan imza alacağam. Onda dedilər "KQB"nin sədri İlhüseyn Hüseynova yaxınlaşmaq çətindir. Oğlu Arif də deputat idi. Dedilər, bəlkə sən onunla söhbət edəsən. Dedim, vallah, mən onu tanımıram, düz çıxmaz. Qayıtdılar ki, sən gəl bunu götür boynuna, səndə bir az cəsarət var. Dedim, yaxşı. Parlamentdə iclas idi, mən Hüseynovu müşahidə elədim, birdən mənə baxdı, dedi "Musayev, yaxın gəl görüm, deyəsən, sənin mənə sözün var". Dedim, bəli. Qayıtdı ki, bilirəm nə sözün var, gələrsən evimizə, mən heç kimi evə dəvət eləmirəm. Sən yəqin bakılı qutabı və düşbərəsi yeməmisən. Gələrsən orda danışarıq. Getdim evə, dedi ki, bizim Heydər Əliyevlə münasibətimiz həmişə çox soyuq olub. Ancaq bu ölkəni vəziyyətdən o çıxara bilər. Düz istiqamətdə, düz yoldasınız, gətir mən də o sənədə qol çəkim ki, sessiya çağırılsın və Heydər Əliyev gəlsin. Amma dedi, mənim oğluma qol çəkdirmə. Çünki bu işin axırını bilmək olmaz, heç olmasa hər evdən bir nəfər salamat qalsın. Heydər Əliyev gələndən sonra da mən ona zəng elədim, dedim, gəlsənə gedək kişi ilə görüşək. Apardım kabinetə, Bəylər Əyyubov da qapının ağzında idi. Onda Milli Məclisin iclası yarım saat gecikdi, ikilikdə söhbət elədilər. Çıxanda mənə dedi, sən yaxşı oğlan imişsən, çoxdan idi bizim belə şirin söhbətimiz olmamışdı.

***- Maksim müəllim, elə isə Heydər Əliyevə qarşı parlament zalında hörmətsizlik olanda, bəzi kommunistlər onun çıxışını kəsməyə çalışanda niyə siz durub onu açıq şəkildə müdafiə etmədiniz? Əgər doğrudan da əliyevçi idinizsə..?***

- Bilirsiniz, o vaxt onun buna ehtiyacı yox idi. Özü tək mübarizə aparmağı bacarırdı. Siz də gördünüz ki, tək mübarizə elədi və qələbə də çaldı. Kimsə durub onu müdafiə etsə, işi korlayardı, onun dahiliyinə ziyan vurardı. Özünüz də görmüsünüz yəqin, birbaşa yayın idi, Heydər Əliyev hamı ilə tək mübarizə aparırdı. Heydər Əliyev o vaxt bütün SSRİ ilə döyüşürdü, Şahnazarovun dəstəsinin başlatdığı hücumu tək dəf etməyi bacarmışdı, onun bizim müdafiəmizə nə ehtiyacı var idi?

**P.S. Obyektivlik naminə M.Musayevin dediklərinə təhsil eksperti Etibar Əliyevin də mövqeyini öyrəndik. Onun cavabı belə oldu:** "Hakimiyyətdə təmsil olunan kiminsə haqqında xoş söz demək məgər vəzifə istəmək anlamı kəsb edir? Mən Maksim Musayevin dediyi kimi vəzifə düşkünü deyiləm. Maksim Musayevin eloğlusu Misir Mərdanov məni Təhsil Nazirliyində 12 il çalışdığım müddətdən sonra tutduğum vəzifədən azad etmişdi. Mən o vəzifəyə qayıtmaq üçün nə kiməsə minnətçi düşdüm, nə bir xahiş elədim. İndiyə qədər də Təhsil Nazirliyinə qayıtmaq niyyətim olmayıb. Mən nə Əli Əhmədov, nə Siyavuş Novruzovdan vəzifə istəyərəm". **M.Musayevin E.Əliyevin Ə.Əhmədovla eloğlu olmasına da təhsil mütəxəssisi maraqlı reaksiya verdi:** "Mən Misir Mərdanovla da eloğlu idim də. Yəni həm də sizin eloğlunuz idim də, əgər eloğlu olmaq əsas şərt idisə, elə isə məni niyə çıxarırdılar?" **E.Əliyev M.Musayevin 90-cı illərdə parlamentdə H.Əliyevə qarşı həqarətləri sükutla qarşılamasından da təəccübləndiyini vurğuladı:** "Deyilənə görə, həmin şəxslərdən biri də Maksim Musayev olub. Əgər Maksim Musayev olmayıbsa, niyə o zaman Heydər Əliyevi müdafiə etməmişdi? Möhtəşəm Heydər Əliyevçi olduğunu sübut etmək üçün məncə, həmin iclasda onu müdafiə etməli idi".

❑ Elşad PAŞASOY





**Maksim Musayev:** "Əli Əhmədova deyin gözü onun üstündə olsun, imkan varsa, ona vəzifə versin, maddi yardım göstərsin"
**Etibar Əliyev:** "Mən nə Əli Əhmədov, nə də Siyavuş Novruzovdan vəzifə istəyərəm"

**Ümid Partiyasının Gəncə şəhər təşkilatının sədri Salman İmanlı partiyanın mətbuat xidmətinin "Kamil Vətəndaş" Maarifləndirmə Mərkəzinin rəhbəri Həsən Hüseynlinin həbsi ilə bağlı suallarını cavablandırıb. Müsahibəni oxuculara təqdim edirik.**

# "Sifarişli, qeyri-qanuni həbsləri pisləyirik"

## Salman İmanlı: "Biz getdiyimiz yola inanırıq və qələbənin bir o qədər də uzaqda olmamasına əminik"



***- İyulun 14-də Gəncə şəhər Nizami Rayon Məhkəməsi "Kamil Vətəndaş" Maarifləndirmə Mərkəzinin rəhbəri Həsən Hüseynlinin 6 il azadlıqdan məhrum edilməsi haqda qərar çıxarıb. Həsən Hüseynli kimi bir ziyalı silah tətbiq etməklə xuliqanlıq və qanunsuz soyuq silah gəzdirməkdə ittiham olunur. Bu barədə nə deyə bilərsiniz?***

- Həsən Hüseynlini çoxdan tanıyıram. İlk tanışlığımız haradasa 20 il bundan əvvələ gedib çıxır. Baxmayaraq ki, onunla bir siyasi təşkilatda heç vaxt təmsil olunmamışıq, amma daima əlaqələrimiz olub. Tez-tez görüşmüşük və ictimai-siyasi prosesləri müzakirə etmişik. Onun Azərbaycanda demokratiyanın bərqərar olması, insanların, xüsusi ilə gənclərin daha çox maariflənməsi istiqamətində, o cümlədən QHT sektorunda gördüyü işləri hər zaman çox yüksək qiymətləndirmişəm. 2005-ci ildə o, 37 saylı Nizami İ (Gəncə) Seçki Dairəsindən Milli Məclisə namizədliyini irəli sürmüşdü. Seçkilərin qeyri-demokratik keçirilməsinə baxmayaraq, kifayət qədər səs də toplamışdı. Bu onu Gəncədə kifayət qədər hörmətə sahib olduğunun göstəricisi idi. O, alimdir, ziyalıdır, elmi dərəcəsi var. Kimisə vurması, kiməsə bıçaqla qəsd etməsi inanılmazdır və bu maddələrlə ittiham olmasını qəti şəkildə pisləyirəm. İctimai-siyasi institutlara qarşı olan təzyiq vasitəsi hesab edirəm. Qeyd edim ki, Həsən Hüseynliyə qarşı atılan bu addım azad fikrə, azad düşüncəyə malik olan insanlara qarşı bir basqıdır.

Son dövrlərdə bir çox tanınmış hüquq müdafiəçilərinə, ümumiyyətlə QHT-lərə qarşı bir basqı var. QHT-lər haqqında qanunlar sərtləşdirildi. Eyni zamanda vaxtilə siyasi institutların zəifləndilməsi istiqamətində hakimiyyətin apardığı siyasət sonradan jurnalistlərə və vətəndaş cəmiyyətinə də yönəldildi.

***- Gəncədə hüquq müdafiəçisinin həbsi, sizcə, bu kampaniyanın tərkib hissəsidirmi?***

- Təbii ki, mən də Həsən Hüseynlinin həbsini bu kampaniyanın tərkib hissəsi hesab edirəm. Nəinki siyasilərə, siyasi institutlara, eyni zamanda azad, fərqli fikir səsləndirən bütün insanlara qarşı həmişə basqılar olub. Siyasilərə, vətəndaş cəmiyyətinə mərkəzdə olan basqılar, həbslər artıq əyalətlərə də transfer olunub.

Həsən Hüseynli uzun müddətdir Gəncədə insanların maarifləndirilməsi, insanların demokratik inkişaf istiqamətdə daha çox bilgilənməsi, seçkilərin azad keçirilməsi uğrunda çalışan bir insan olub. Düşünürəm ki, həbsinin gerçəkləşdirilməsinin səbəbi də onun fəaliyyətidir. Adətən ictimai-siyasi fəalları çox zaman həbs etmək üçün cibinə narkotik qoyub tuturlar. Bu cür ittiham isə Həsən Hüseynli kimi insana verilə bilməzdi. Bu səbəbdən onu başqa formada şərləyib tutdular. Ona qarşı sürülən ittiham absurd və gülüş doğuran bir iddiadır.

O, savadlı intellektual gəncliyin yetişməsində böyük işlər gördü. İngilis dili, kompüter kursları təşkil etmişdi. Hər zaman çoxlu sayda gənc onun ofisində olur, yaratdığı imkanlardan və elmi potensialından yararlanırdılar. Və bu gənclərin qloballaşan dünya ilə ayaqlaşmasına münbit bir şərait yaradırdı.

***- Gəncədə ictimaiyyətin bu məsələyə reaksiyası necədir?***

- Deyim ki, indi elə bir zamandır ki, ictimai-siyasi institutları hakimiyyət məqsədli şəkildə tam tənəzzülə uğradıb. Fərqli fikrə basqıların, təqiblərin olduğu bir zamanda kütləvi və açıq şəkildə insanların etiraz etməsi çox çətindir. Təbii ki, tanıyan hər bir kəs onun bu cür qondarma ittihamla həbsini pisləyir və əleyhinədir.

Bu gün hakimiyyət elə bir vəziyyət yaradıb ki, insanlar ictimai-siyasi proseslərə reaksiya göstərə bilmir, yalnız gündəlik problem və qayğıların düşünmək məcburiyyətində qalıblar. Siyasilər, ziyalılar isə bu məsələdən çox məyus olublar və kəskin şəkildə onun həbsini pisləyir və narazılıqlarını bildirirlər.

Mərkəzdə həbs olunan, basqılara məruz qalan hüquq müdafiəçiləri təbii ki, tez-tez mətbuatda hakimiyyət əleyhinə bəyanatlar verir, insan haqları, seçkilərlə bağlı monitorinqlər aparır, hesabatlar hazırlayır, bəyanatlar yayırlar. Bu isə hakimiyyətin mənafeyinə toxunur. Həsən Hüseynli isə yalnız intellektual gənclərin yetişməsində istiqamətində işləyirdi. Hətta onun həbsinə qədər bir o qədər də gündəmdə deyildi və çoxları onu tanımırdı.

***- Azərbaycanın gələcəyi olan intellektual və qloballaşan dünya ilə ayaqlaşan gəncliyin yetişməsi hakimiyyət üçün bu qədərmi qorxuludur?***

- Biz bundan əvvəl həbs olunan Anar Məmmədli və digərlərinin də həbsini pisləmişik. Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi Gəncədə də fəaliyyət göstərirdi. Təşkilata və onun üzvlərinə olan basqılardan xəbərim var. Təbii ki, bütün baş verənləri və sifarişli, qeyri-qanuni həbsləri pisləyirik.

Bunu Azərbaycanda demokratiyanın boğulması kimi qiymətləndiririk. Həsən Hüseynli təkcə gənclərin maariflənməsi istiqamətində deyil, həm də Azərbaycanın demokratikləşməsi istiqamətində mübarizə aparırdı. Azad və fərqli fikir sahibi idi.

Heç bir siyasi təşkilatın üzvü deyildi. Bir çox tədbirlərdə birlikdə iştirakımız olub.

Həmin tədbirlərdə hakimiyyət nümayəndələri də təmsil olunurdu. Hakimiyyət nümayəndələri arasında da ona qarşı çox normal münasibəti olan, hətta saygı ilə yanaşanlar var idi. Görünür ki, onun gördüyü işlər, səsləndirdiyi fikirlər, yetişdirdiyi intellektual gənclik və insanların ona hörmətlə yanaşması hansısa qüvvələri narahat edib. Həmçinin bu cür aktiv insanları zərəsizləşdirməklə hakimiyyət cəmiyyətdə də bir xof yaradır, insanları aktiv ictimai-siyasi proseslərə qoşulmaqdan çəkindirir. Həsən Hüseynli kimi bir ziyalının məhkəmə zalında bir başqa xuliqanlıq maddəsi ilə həbs olunması, 6 il həbs cəzasına məhkum edilməsi həqiqətən də əhali arasında bir narahatlıq, aktiv insanlarda daxili bir senzura yaradır. Bu hakimiyyətin bələdiyyə və parlament seçkilərində aktivlik edə biləcək ictimaiyyət nümayəndələrinin və siyasilərin proseslərdən kənarda saxlanması hesablanmış bir addımdır. Hesab edirik ki, bu cür addımlarla hakimiyyət beynəlxalq təşkilatlar qarşısında özünü daha da ifşa edir. Bütün bu baş verənlər bizi apardığımız mübarizədən çəkindirə bilməz. Azərbaycanın demokratikləşməsi uğrunda çalışan hər bir kəs sona qədər mübarizə aparacaq və prosesin getməsi üçün əlindən gələni edəcəkdir. Uzun illərin sınaqlarından çıxmış bir siyasətçi kimi deyə bilərəm ki, Ümid Partiyası olaraq bu cür basqılar bizi yolumuzdan, mövqeyimizdən çəkindirə bilməz. Biz getdiyimiz yola inanırıq və qələbənin bir o qədər də uzaqda olmamasına əminik.

# Ümid sədri jurnalistləri təbrik etdi



**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə 22 iyun - Milli Mətbuat Günü münasibətilə Azərbaycan jurnalistlərini təbrik edib.**

**Təbrikdə deyilir:**

"Əsası Həsənbəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycanın milli mətbuatının yaranmasından 139 il ötür. Bu müddət ərzində Azərbaycan mətbuatı keşməkeşli bir tarix yaşayıb, ağır sınaqlardan keçib. Azərbaycanın ikinci müstəqillik tarixində də gərgin mərhələlərin birgə şahidi olmuşuq. Birinci Qarabağ savaşı, demokratiya uğrunda mübarizə, keçid dövrü və digər mərhələlərdə, proseslərdə jurnalistlər, mətbuat işçiləri də çətin və şərəfli bir missiya daşıyıblar.

Bütün dövrlərdə jurnalistlər peşə borcunu yerinə yetirərkən dövlətimizin və millətimizin maraqlarını qorumağa çalışmış, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında, ölkədə insan haqlarının qorunması və demokratikləşmə uğrunda mübarizədə əvəzsiz rol oynamış, Azərbaycanın imicinin yüksəldilməsi üçün əllərindən gələni ediblər. Təəssüflər olsun ki, bu gün Azərbaycan mətbuatı da problemlərdən uzaq deyil, azad və müstəqil mətbuat hələ də formalaşmayıb.

Biz Ümid Partiyası olaraq bu problemlərin aradan qaldırılması, jurnalistlərin normal fəaliyyətinə şərait yaradılması üçün əlimizdən gələni etmişik və edəcəyik.

Bununla bağlı ölkə rəhbərliyinə müraciətlərimiz olub, parlamentdəki çıxışlarımız zamanı dəfələrlə məsələ qaldırmışıq. Hesab edirik ki, mətbuatın problemləri dövlət səviyyəsində həll edilməlidir.

Eyni zamanda bütün bu çətinliklər qarşısında Azərbaycan jurnalistikasının əzmkarlığının şahidi olmuşuq.

Biz bu şərəfli yolda, böyük və yenilməz Azərbaycan uğrunda mübarizədə sizə uğurlar arzu edirik. Tanrı sizə yar olsun!".

Ümid Partiyasının sədri

Millət vəkili

İqbal Ağazadə



# Səbayel ümidçiləri konfrans keçirdi

**İyulun 19-da Ümid Partiyasının Mərkəzi Qərargahında Ümid Partiyası Səbayel rayon şöbəsi növbəti konfransını keçirdi. Əvvəlcə Təşkilat Komitəsinin hesabatı dinlənildi, təşkilatı məsələyə baxıldı və Atlıxan Maqsudov Ümid Partiyası Səbayel rayon şöbəsinə sədr seçildi. Həmçinin NTK üzvləri seçilib və nizamnaməyə uyğun olaraq Məclis üzvləri təsdiqlənib.**



Konfransdan dərhal sonra Səbayel rayon şöbə məclisi və Nəzarət Təftiş Komitəsi öz yığıncaqlarını keçirdi və hər iki qurum özünə sədr seçdi.



# Həzm prosesi

Zamin HACI
zaminhaci@gmail.com

**Mübariz Qurbanlının Dini Komitəyə sədr qoyulmasının yeganə məntiqi izahı odur ki, bundan qabaq komitəyə sədrlik edənlərdən biri vəhhabi, o biri nurçu olub, indi də yapisti balans yaratmaq üçün rəhbər qoyublar. Hakim partiyanın tarixən bircə dini-imanı olub - pul. Orada dollar və avroya tarixən fövqəltəbii qüvvə kimi sitayiş ediblər.**

Ancaq sistem elə vəziyyətdədir ki, ordan Mübariz Qurbanlı kimi üzü üzlər görmüş kadrdan özgəsini tapıb çıxartmaq da mümkün deyil. Yuxarıda yazdığım kimi: bir gənc eşələyib tapmışdılar, onu da Ərdoğan gözündən vurdu. Nəticədə qoca kommunistlər və artıq pensiya yaşı çatan komsomolçuların Əli Əhmədovu baş nazir müavini qoymaqdan özgə çarələri qalmır. Bircə Səyavuşa da hansısa nazir vəzifəsi verilsə, düşük çayxanalarımızda deyilən kimi, "komplekt"in başı bağlanardı. Məsələn, mən təklif edərdim Səyavuş Novruzovu Dövlət Gömrük Komitəsinə sədr qoysunlar. Yoxsa iki həftədir o boyda idarə daş atılmış qurbağa gölünə dönmüşdür, Azərbaycan sərhədlərini 2 dəfə keçib Gürcüstana çatan 3 ton heroinə izahat verə bilmir. Səyavuş müəllimin yeri məlum... İndi elə gopa basıb o heroini qanuniləşdirərdi ki...

İnternetdə bir maraqlı video yayılıb, orda Bakının mərkəzində qanunu pozub qarşı yola çıxan, qəza vəziyyəti yaradan avtomobil göstərilir. Avtomobil Prezident Administrasiyasına məxsusdur, konkret yazsaq prezidentin mətbuat katibi Azər Qasımov adlı şəxsə. Videoda bir nəfərin başını pəncərədən çıxardıb haqsız yerə qışqırması da düşüb, elə həmin şəxs də mətbuat katibinə oxşayır.

Necə gözəl təsadüfdür! Milli Mətbuat Günü ərəfəsində prezidentin mətbuat siyasətini bundan gözəl simvolizə eləmək olmazdı ki, Azər müəllim elədi. Sağ olsun. Bütün yoluna canavar çıxıb blokda ölən jurnalistlər, yoluna dovşan çıxıb kələmə dönən və Bibiheybət yolunda turşuya qoyulan jurnalistlər adından dərin minnətdarlığımızı bildiririk. Qanun hamı üçün qanundur, Prezident Administrasiyasında yaşayanlar üçün lap qanundur! Oruellin dahi əsərindəki prinsiplərdən biri yada düşür: "Bütün heyvanlar bərabərdir, lakin bəzi heyvanlar başqalarından daha çox bərabərdir!" Bərabərlik, sosial ədalət və qardaşlığımız var olsun! Durun gedək ASAN-xidmətə!

Sosial ədalət demişkən, dünən bir dostum zəng vurub deyir ki, Bakıda ona bütün apteklərin 130 manata satmaq istədikləri dərmanı Türkiyədən 20 manata aldırıb. Adam qüssə ilə soruşurdu ki, bu heyvani qiymət soyğunçuluğunun, dərəbəyliyin, qansızlığın, faşizmin səbəbi nədir? Çətin sualdır. Faşizmin səbəbini mən hardan bilim? Belə baxanda bütün insanlar doğulanda qəşəng, toppuş olurlar, ancaq sonra yekəlirlər, qarşı yola maşın sürürlər, anqıran siqnallar qoydururlar, eşşəklik eləməkdən qürur duyurlar. Sözgəlişi, aktyor Ələsgər bəyin alçaldıcı şəkildə avtomobil siqnalı kadrına çəkilməsini izlədim. Bir aktyora bundan artıq nə hörmətsizlik eləmək olar? Bunu çəkən debillər guya yumor yaratdıqlarını düşünürlər? O cümlədən, avtomobilinə "Ələsgər, ay Ələsgər... Nə var e, Ələsgər, Ələsgər" replikasını siqnal kimi qoyduran gicbəsərlərin çoxalması münasibətiylə TQDK-nı, təhsil naziri Misir müəllimi, onun yerinə keçən Mikayıl müəllimi, Mübariz Qurbanlının partiyasını, yaxından uzaqdan məclisimizə gələnləri təbrik edirəm. Azərbaycan xalqı tam sizin istədiyiniz plastilin şəklinə düşmək üzrədir. 3-4 sarsaq mübariz qalıb, onları da əridəndən sonra "mübarizqurbanlı" növü cəmiyyətdə tam qalib gələcəkdir.

Daha adam özünə "bunlar nə yeyib-içirlər" sualını da vermir. Yemək-içmək mərhələsi arxada qalıb, indi həzm eləyirlər. Axırıncı mərhələni - həzmdən sonranı ta özünüz bilirsiniz, nə yazım? Bircə qeyd edim ki, son mərhələdə burnunu tutub qaça bilənə əhsən...

# Kongresə təqdim olunan layihənin daha bir hədəfi

# ABŞ-ın Azərbaycanı Rusiyadan gizli qorumaq planı



## Plan hazırkı mərhələdə Kremlin Qarabağda yeni savaş açmasını əngəlləməyə yönəlib; etibarlı təhlükəsizliyimiz, münaqişənin ədalətli çözümü Moskvaya yox, demokratiya müstəvisinə bağlıdırsa, rəsmi Bakı bu plana ən azından mane olmamalıdır...

**Güney Qafqazın yekun taleyini, şübhəsiz, Azərbaycan müəyyən edəcək. Çünki bütün parametrlərə görə bölgənin sanbal etibarilə ən ağır, açar ölkəsi məhz odur. İndilikdə Qərbə, ümumbəşəri dəyərlə münasibətdə bir ölkə lehinə (Gürcüstan), biri əleyhinə (Ermənistan), üçüncüsü isə bitərəf (Azərbaycan) qaldığı üçün region qeyri-müəyyən taleyini yaşamaqda davam edir.**

Təbii ki, son söz Azərbaycanla deyiləcək. İki güc mərkəzinin regionda toqquşan maraqları arasında manevr eləməklə balans yaratmağa çalışan rəsmi Bakının strateji seçimi isə hələ ki, ləngiyir. Lakin əksər təhlilçilərə görə, belə "aralıq" durumu uzun sürə bilməz, nədən ki, Qərb postsovet məkanında Rusiyanın zorla öz dominantlığını bərpa etmək səylərinə, Ukraynada, bütövlükdə keçmiş Sovetlər Birliyi coğrafiyasında "qırmızı xətti" keçməsinə daha seyrçi qalmaq fikrində deyil.

ABŞ Konqresinə təqdim edilən və artıq ikinci oxunuşdan keçən, Rusiya təcavüzünün qarşısının alınması barədə qanun layihəsi məhz buna yönəlib. Bəlli olduğu kimi, sənəd Ukrayna, Gürcüstan və Moldovaya NATO üzvü olmadan da ABŞ-ın müttəfiqi statusu verilməsini nəzərdə tutur. Layihəyə əsasən, Azərbaycan, Bosniya, Serbiya, Monteneqro, Makedoniya və Kosovo isə təhlükəsizliyin təmin olunması və ABŞ Silahlı Qüvvələri ilə qarşılıqlı əməkdaşlıq üçün ABŞ-dan kömək ala biləcəklər. Diqqətçəkicidir ki, siyahıda Ermənistanın adı yoxdur.

Müşahidəçilərə görə, qanun qəbul edilərsə, Avropa İttifaqı ilə təzəlikcə assosiativ saziş imzalayan üç postsovet respublikası - qonşu Gürcüstan, Moldova və Ukrayna müstəqillikləri dönəmində ilk dəfə olaraq Birləşmiş Ştatların hərbi müttəfiqi statusunu alacaq və bununla da özlərinin təhlükəsizliyinə təminat əldə etmiş olacaqlar. Həmçinin ABŞ-ın bu ölkələrdə, deməli, həm də regionda hərbi iştirakı güclənəcək; Amerika təkbaşına bu ölkələrə hərbi yardım, eyni zamanda hərbi kontingent göndərmə fürsəti bulmuş olacaq.

Layihə eyni zamanda Azərbaycan kimi tərəddüd edən postsovet ölkəsini böyük ehtimalla, daha qorxusuz seçim etməyə hazırlamaq, onu ürəkləndirmək məqsədi güdür. Həmçinin, dünyada sürətlə terrorçu dövlət imici qazanan Rusiyaya ciddi xəbərdarlıq mesajıdır. Artıq əminliklə söyləmək olar ki, Ukrayna böhranı yoluna qoyulandan sonra Amerika və Avropa əsas diqqəti Cənubi Qafqaza yönəldəcək.

Bu, orta perspektiv üçün bir strateji plan kimi ortaya çıxmaqdadır. Konturları özünü getdikcə daha qabarıq büruzə verən bu plan mütləq işə salınacaq. Hələliksə Qərb belə görünür, Ukraynadan sonra bölgənin ən mühüm ölkəsi kimi Azərbaycanı öz strateji seçimini edənədək Kremldən maksimum qorumağa səy edir. Bu da ilk növbədə Rusiyanın Qarabağda yeni savaşı qızışdırmaq planlarını pozmağı ehtiva edir.

ABŞ Konqresinə təqdim edilən və bölgə ölkələrinə Amerika ilə hərbi əməkdaşlıq imkanı yaradan layihə bu xüsusda həm də Rusiyanın yeni müharibə həvəsini öldürməyə hesablanıb. Demək, Qərbin belə bir preventiv planına Bakının müqaviməti milli maraqlarımıza uyğun olmazdı. Daha bir mühüm səbəbdən: zaman-zaman sübut olunub ki, Azərbaycanın təhlükəsizliyinə etibarlı qarant qardaş Türkiyənin də təmsil olunduğu Qərb (NATO) təhlükəsizlik sistemidir. Rusiya isə iki on illikdə heç olmasa, Dağlıq Qarabağ məsələsinin ədalətli həllinə töhfə vermək istəmədi - buna əlində bənzərsiz imkanları və rıçaqları ola-ola...

***

Region ətrafında, dünyada gedən proseslər belə bir qənaət formalaşdırır ki, artıq Azərbaycan üçün böyük bir dönəm yekunlaşmaqdadır. Bu dönəmdə o, istiqlaliyyətini qoruya bilsə də, əfsuslar olsun ki, Qarabağ münaqişəsinin həllinə nail ola bilmədi. Ona görə ki, daha çox Rusiya amilini nəzərə aldı, Qərbin təhlükəsizlik sisteminə qoşulmağa ürək eləmədi.

Belə bir ənənəvi "neytrallıq" müstəvisi Azərbaycana bundan artıq divident gətirə bilməz. Zaman onu da göstərdi ki, heç gətirməyəcək. Elə isə qiymətli vaxtı itirməkdənsə, bəlkə doğrudan da müstəvini dəyişmək vaxtıdır? Üstəlik, bunu dünyadakı proseslərin imperativi, o sırada Rusiyanın yanında olmağın vəd etdiyi qorxulu perspektiv diktə edirsə.

**❑ Siyasət şöbəsi**

# Deputat naziri və səfirləri topa tutdu

## Elmar Məmmədyarovun nazir postundan götürülməsi məsələsi qaldırıldı



Qüdrət Həsənquliyev



Elmar Məmmədyarov

**"Mən prezident seçkilərində də söyləmişdim, təəssüf ki, xarici işlər naziri bu hökumətin tərkibində ən bacarıqsız nazirlərdən biridir. Bu gün də bunu bir daha təkrar edirəm ki, onun davranışından tutmuş verdiyi açıqlamalara və səfirlikləri idarəetmə qabiliyyətinə qədər heç nə yerində deyil". Bunu moderator.az-a müsahibəsində Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev bildirib.**

O deyib ki, Elmar Məmmədyarov erməni həmkarı Nalbəndyanla yan-yana duranda düşmən ölkə diplomatı çox ciddi görkəm alır, elə poza verir ki, sanki Ermənistanın torpaqları işğal altındadır, amma bizim nazir gülür və səbəbsiz yerə çiyinlərini yelləyir: "Hər halda, onun davranışları qıraqdan müşahidə edən heç kimə yaxşı görsənmir. Yəni bu adamın sifətinin ifadəsindən tutmuş açıqlamalarınadək heç nə yerində deyil. Bu, ölkənin xarici siyasət idarəsinin başında duran şəxslə bağlı mənim mövqeyimdir və şəxsi mənada da onunla heç bir problemim yoxdur. Sadəcə olaraq, söyləmək istəyirəm ki, onu Bakıda başqa bir işə keçirmək olar. Amma bu sahədə hökumətin ən uğursuz nazirlərindən biri kimi o əvəzlənməlidir".

**Deputat Azərbaycanın xarici ölkələrdəki səfirlərinin də ünvanına ittihamlar səsləndirib:** "Müəyyən istisnalarla bizim çox bacarıqlı səfirlərimiz var. Amma səfirlərimizin də böyük bir qismi elə nazirin özü kimi yerində olmayan adamlardı. Həm ATƏT Parlament Assambleyasında, həm Avronest çərçivəsində xaricə çoxsaylı səfərlərim olur, mən bunu görürəm və bir çox səfirlər sanki səfirliklərin binalarını öz bizneslərini qurmaq istiqamətində də kommersiya məqsədləri üçün istifadə edirlər. Hətta onların bir çoxu Azərbaycan haqqında kiçik bir həqiqəti fəaliyyət göstərdikləri ölkənin heç aparıcı mediasında demirəm, orta səviyyəli mətbu orqanında dərc etdirmək imkanlarına malik deyillər. Amma biz burda Amerika və digər xarici ölkə səfirlərinin fəaliyyətlərini izləyirik və görürük ki, onlar mütəmadi olaraq mətbuatla, aparıcı jurnalistlərlə, vətəndaş cəmiyyəti təmsilçiləri ilə, siyasi partiya rəhbərləri ilə görüşə can atırlar. Amma bizim səfirlər əgər Bakıdan xüsusi bir tapşırıq olmasa onların faktiki fəaliyyəti sıfıra bərabər olur, yalnız ildə bir dəfə Respublika Gününü müəyyən adamları çağırıb qeyd etməkdən başqa əllərindən bir iş gəlmir, əksəriyyətinin işi də bununla məhdudlaşır".

**Q.Həsənquliyev deyib ki, səfirlər nəinki fəaliyyət göstərdikləri ölkə ilə, heç öz diasporlarımızla normal əlaqə qura bilmirlər:** "Əksər diaspor təşkilatlarıyla səfirliklərimizin münasibətləri münaqişə həddindədir. Ona görə də düşünürəm ki, bu sahədə doğrudan da ciddi işlər görmək, təmizləmə aparmaq lazımdır. Düşünürəm ki, diplomatiyamıza cavabdeh olan adamların seçilməsi istiqamətində ciddi islahatlar aparmağa ehtiyac var. Buna ilk növbədə kadr islahatlarından başlanılmalıdır və bu iş yenidən qurulmalıdır".

Qeyd edək ki, bir sıra səfirlərimizin işlədikləri ölkələrdə daha çox biznes işi ilə məşğul olduqları barədə indiyə qədər də informasiyalar yayılıb. Xarici İşlər Nazirliyi isə hələ ki bu iddialara münasibət bildirməyib. Qüdrət Həsənquliyevin nazir və səfirlərlə bağlı dediklərinə Xarici İşlər Nazirliyinin münasibətini öyrənmək üçün qurumun mətbuat xidmətinin rəhbəri Elman Abdullayevlə əlaqə saxladıq. E.Abdullayev Qüdrət Həsənquliyevin fikirləri ilə şəxsən dəqiq tanış olduqdan sonra münasibət bildirəcəyini dedi. Lakin sonradan gün ərzində dəfələrlə zəng etsək də cavab vermədi.

**❑ E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014

# Müstəqil QHT-lər çətin durumdadır

## İqtidar siyasi hədəflər üçün xaricdən gələn qrant axınının qarşısını almağa başlayıb, Əli Hüseynlinin isə Rusiya efirində Amerikanı tənqid etməsi USAİD-lə yollarını ayırıb

**Azərbaycan hökuməti müstəqil, xaricdən maliyyələşən qeyri-hökumət təşkilatlarına qarşı müharibə elan edib. İqtidarın QHT-lərə qarşı bir neçə cəbhədən açdığı savaş bu təşkilatları ağır situasiya ilə üz-üzə qoyub. Hakimiyyət onları bir-bir sıradan çıxarmaq, bank hesablarını dondurmaq xəttini seçib.**

Üstəlik, beynəlxalq donor təşkilatları ilə işləyən QHT-lərdən savayı, özünə yaxın olan qurumların da fəaliyyətini təftiş edir. Buna nümunə kimi deputat Əli Hüseynlinin Hüquqşünaslar Konfederasiyasına USAİD-dən ayrılan qrantların dayandırılmasını göstərmək olar. USAİD heç bir izahatsız layihənin fəaliyyətinə xitam verib. Hətta Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası bu layihənin dayandırılmasına görə 15 min dollar ziyana düşüb.

Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin hesabı dondurulub, iqtisadçı Azər Mehtiyev əməkdaşlıq etdiyi OXFAM-ın maliyyə fəaliyyətinin yoxlanılmasına görə Baş Prokurorluğa dəvət olunub. Son həftələr davam edən bu proses və müşahidələr deməyə əsas verir ki, iqtidar mətbuatdan, partiyalardan sonra QHT-lərlə haqq-hesab çürütmək qərarına gəlib.

Bəzi təhlilçilərin sözlərinə görə, bu, Qərbdən gələn qrant kapitalının qarşısını almağa hesablanmış bir siyasətdir. Çünki buna qədər Qərbin Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə xudahafizləşiblər.

Artıq Norveç İnsan Haqları Evi, Milli Demokratiya İnstitutu, "Freedom House", "Amnesty International" kimi nüfuzlu beynəlxalq qurumların Bakıda ofisləri yoxdur. Beynəlxalq Respublikaçılar İnstitutu, İFES də artıq Azərbaycanda fəaliyyətini dayandırıb. Vəziyyət o həddə çatıb ki, bir qrup QHT rəhbəri ölkə rəhbərinə müraciət edib.

**"Əslində nə baş verir" sualını cavablandıran araşdırmaçı-jurnalist Eynulla Fətullayev deyir ki, görünən bir proses gedir. Bu prosesin nədən ibarət olduğunu açıqlayan E.Fətullayevin sözlərinə görə, postsovet məkanında, "məxməri inqilab"ın olduğu, xaos hökm sürdüyü ölkələrdə QHT-lər xarici dövlətlərdən maliyyələşib:** "Ukraynada 4 min QHT yaradılmışdı və Amerika proqramlar həyata keçirirdi. Eyni ssenari Azərbaycanda həyata keçirilir. Ölkəyə 100 milyona yaxın qrant müxtəlif fondlardan keçirilib. Bu da hökuməti narahat etməyə bilməz. Analoji fakt



**Eynulla Fətullayev:** "Ukraynadakı ssenari Azərbaycanda həyata keçirilir, bu da hökuməti narahat etməyə bilməz"

Türkiyədə, Fransada, Britaniyada olsaydı onların da hökumətlərində narahatlıq doğurardı. Çünki xaricdən ölkəyə pul daxil olur və bu davamlı xarakter alır. İstənilən halda bu, Fransa ya İngiltərədə olsaydı, dərhal hüquq-mühafizə orqanları, Maliyyə Nazirliyi araşdırmağa başlayacaqdı. Sadəcə, uzun illər Azərbaycanda bu sahədə boşluq olub.

Dövlətin təcrübəsizliyi, beynəlxalq praktikanı mənimsəyib tətbiq edə bilməməyi bura gətirib çıxarıb. Məsələn, Türkiyədə 10 ildən çoxdur belə bir praktika var. Təşkilata xaricdən 3 mindən çox maliyyə vəsaiti daxil olanda Daxili İşlər Nazirliyi bunu araşdırır. Bu o demək deyil ki, QHT-lər xaricdən qrant ala bilməz. Sadəcə, öyrənilir ki, bu pul hansı hədəflərə nail olmağa hesablanıb".

**Jurnalist deyir ki, MDİ 3,5 milyon dollar pulu vətəndaşların siyasi proseslərə cəlb edilməsi üçün ayırıb:** "Facebook inqilabı haqda çox yazılıb, təkrara ehtiyac yoxdur. Ancaq hansı vətəndaşların siyasi proseslərə cəlb edilməsindən söhbət gedir? Ümumiyyətlə, postsovet məkanında yaranmış boşluqlar xarici dövlətlərə zəmin yaratmışdı. Mən xarici müdaxilənin əleyhinəyəm. Ona görə də deyirəm ki, dövlətin təcrübəsizliyi nəticəsində uzun illər Azərbaycana daxil olan qrantlara lazımi səviyyədə nəzarət olunmayıb. Xaricdən qrant alan QHT-nin və bu layihənin siyasi məqsədi nədirsə ona baxmaq lazımdır".

**E.Fətullayev USAİD-in ayırdığı qrantların dayandırılmasını belə ehtimal edir:** "Həmin yardım müxalifyönlü təşkilatlara ayrılıb. Amma onun 1 milyon, 500 mini deputat Əli Hüseynlinin təşkilatına verildi. Mən belə güman edirəm ki, Əli Hüseynli Rusiya efirində Amerikanı tənqid etdiyi üçün layihə dayandı".

**M.Qəhrəmanlının təşkilatının bank hesabına həbs qoyulmasını isə E.Fətullayev hüquq müdafiəçisi Leyla Yunusla əlaqələndirir:** "Belə şübhələr var ki, Leyla Yunus Mirvari xanımın bank hesabından istifadə edir. Bilirsiniz ki, Leyla Yunus istintaq altındadır. Bura Mirvari Qəhrəmanlıya aid bir iş yoxdur. Sadəcə, qeydiyyatı olmayan təşkilatların qeydiyyatdan keçmiş təşkilatların bank hesablarından istifadəsi halları mövcuddur. Ona görə də dövlət nəzarətə başlayıb, çoxlu sayda bu sahədə qanun pozuntuları var, onları araşdırır".

❑ **E.SALAMOĞLU**

# Girovların məsələsi hüquqi müstəviyə keçsə...

## Ekspertlər bildirirlər ki, bütün beynəlxalq qanunlar və hüquq bizim tərəfimizdədir, separatçı rejim vəziyyəti öz xeyrinə dəyişmək istəyir

**Ermənilərin öz torpaqlarımızda girov götürdükləri vətəndaşlarımızla bağlı məsələ ciddiliyini qorumaqdadır. Məsələnin hüquqi müstəvidə həllində isə diqqətli olmağın vacibliyi vurğulanır.**

"Ermənilərin girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı bütün beynəlxalq qanunlar və hüquq bizim tərəfimizdədir". Bunu modern.az saytına açıqlamasında **hüquqşünas Erkin Qədirli** erməni hərbi birləşmələrinin girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyevin probleminin beynəlxalq hüquq müstəvisində həllindən danışarkən deyib.

Onun sözlərinə görə, qanunların Azərbaycanın xeyrinə olmasına baxmayaraq onların icrası müşkül məsələyə çevrilib.

"Ermənistan girovlara qarşı məhkəmə keçirərsə, o zaman Azərbaycan onlara vəkil tuta bilər. Separatçı Dağlıq Qarabağ rejimi girovlara qarşı qondarma cinayət işi açmaqla məhkəməni Azərbaycanın işğal altında olan torpaqlarında keçirməyi planlaşdırır. Ermənistan bununla Azərbaycanı böyük bir oyunun içərisinə sürükləmək niyyətindədir. Separatçı rejim heç yerdə tanınmır. Buna görə də əgər girovların məhkəməsi işğalçı rejimdə keçirilərsə, biz ora vəkil göndərməkdən birmənalı şəkildə imtina etməliyik. Əslində separatçıların qurmaq istədiyi oyun ondan ibarətdir ki, Azərbaycan tərəfi onların "məhkəmə"sinin qərarını tanısın",- deyə o vurğulayıb.

**Politoloq Qabil Hüseynli isə bildirib ki, ermənilərin Dilqəm Əsgərovu, Şahbaz Quliyevi və Həsən Həsənovu girov götürməsi Dağlıq Qarabağ münaqişəsinin həll prosesi ilə bağlı aparılan danışıqlara elə də ciddi təsir göstərməyəcək:** "Çünki həmin adamların erməni hərbi birləşmələri tərəfindən girov götürülməsi heç də gözlənilməyən hadisə deyil. Öz ata-baba yurdlarına gedən şəxslərin erməni qəsbkarları tərəfindən girov alınması Azərbaycanla Ermənistan arasında ciddi insident yarada bilməz".

**Onun sözlərinə görə, girovlar Azərbaycana qaytarılmasa, o zaman rəsmi Bakı ilə Ermənistan arasında növbəti münaqişə yarana bilər. Ekspert bildirib ki, Azərbaycan girovlar geri qaytarılmasa, cavab tədbiri görəcək:** "Bizim də hüququmuz var ki, dinc sakinlərimizə qarşı edilən vəhşiliklərə cavab verək".

**Ümumiyyətlə, hazırkı situasiyada Dağlıq Qarabağ problemi ilə bağlı aparılan danışıqlar prosesinə qiymət verən analitik deyib ki, müzakirələr əvvəlki intensivliyi ilə getmir. Bununla belə, politoloq bu qənaətdədir ki, Rusiya Qarabağla bağlı tutduğu əvvəlki radikal mövqeyini sərgiləmir:**

"Rusiya artıq bu radikallığından geriyə çəkilmiş kimi görünür. Kreml hətta özünü pozitiv göstərməyə çalışır. Yeddi rayonun qaytarılması məsələsində də



Moskvanın mövqeyində müsbətə doğru dəyişikliklər müşahidə edilir. Danışıqlar prosesində status-kvonun dəyişməsi üçün real şərtlər yetişib. Bu şərtlərin reallaşması Rusiyadan asılıdır. Rusiyanın isə başı Ukraynaya qarışıb. Düşünürəm ki, Ukraynada Malayziyaya məxsus təyyarənin vurulmasından sonra Rusiya öz imicini yenidən bərpa etmək üçün Qarabağla bağlı məsələdə dönüş etməlidir. Bundan sonra Rusiya Dağlıq Qarabağ probleminin həllində daha aktiv iştirak etməlidir".

Ermənistanın hərbi portalı "Razminfo" isə Kəlbəcərdə itkin düşmüş Cəbrayıl sakini Həsən Həsənovun şəkillərini yayıb. Həsən Həsənovun facebook səhifəsindəki şəkillərini paylaşan portal onun Kəlbəcərdə müqavimət göstərən zaman öldürüldüyünü iddia edib. Amma meyitin şəklini təqdim etməyib.

Portal Həsən Həsənovun Cəbrayılda doğulduğunu, Cəmşid Naxçıvanski adına hərbi məktəbi bitirdiyini yazıb. Həmçinin hərbi akademiyanın kursantı kimi şəkillərini dərc etdirib. Onun "Biz Qarabağı qaytaracağıq" başlığı altında çox sayda hərbi xəbərlər topladığı və yaydığı da bildirilib.

Xatırladaq ki, iyulun 11-də işğal altında olan Kəlbəcər rayonunda azərbaycanlılar girov götürülüb. Onlar Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov olublar. Ermənilər Dilqəm və Şahbazı girov götürüblər, Həsən barədə isə heç bir məlumat verilməyib. Bəzi mətbuat orqanlarında H.Həsənovun ermənilər tərəfindən öldürüldüyü bildirilsə də, Ermənistanın müdafiə naziri Seyran Ohanyan sadəcə azərbaycanlı "diversant" adlandırdığı qrupun ələ keçirildiyini deyirdi. Beynəlxalq Qırmızı Xaç Komitəsi isə hələ də girovlarla görüşə bilməyib.

❑ **Röya RƏFİYEVA**

# "Qaz kamerası"nda boğulan Azərbaycan demokratiyası



**Azər RƏŞİDOĞLU**

**Azərbaycan neft ölkəsi olmasaydı, yəqin ki, demokratik cəmiyyət quruculuğu daha asan olardı. Politoloqların "ehtiyatların lənəti" adlandırdığı "enerjidaşıyıcıları diplomatiyası" demokratiyanı "qaz kamerası"nda boğmağa kifayət edir. Yaxın on illiklər ərzində "ehtiyatların lənəti"ndən qurtulmaq imkanımız da yoxa bənzəyir.**

Burada Mustafa Kamal Atatürkün son nəfəsində dediyi sözləri xatırlamamaq mümkün deyil: "Mən canımı rahat tapşıra bilərəm, çünki Türkiyədə neft yoxdur..."

Neft ölkələri sırasında mühüm yer tutan Azərbaycan böyük dövlətlərlə münasibətlərini daha çox enerjidaşıyıcıları amili üzərində qurur.

Hakimiyyət neft pullarının artıb-azalmasından asılı olaraq siyasi manevrlər edir. Hər şey neft gəlirlərindən asılıdır. Bu gəlirlərin üzərinə çökən hakimiyyət artıq kimsədən qorxmadığını açıq şəkildə nümayiş etdirir.

Azərbaycan hakimiyyəti mütəmadi olaraq Qərbə və beynəlxalq institutlara sərt ittihamlar ünvanlayır.

Ölkədə demokratiyanın və insan haqlarının vəziyyəti ilə bağlı tənqidlər artdıqca, yerli hakimiyyətin buna reaksiyası da sərtləşir, tənqidə qarşı dözümsüzlük hətta bəzən diplomatik çərçivələri də aşır. Müşahidəçilər bunu birmənalı şəkildə neft gəlirlərinin artımı ilə bağlayırlar.

Neft gəlirləri artdıqca, dövlət rəsmiləri və məmurlar "dövlət müstəqilliyi" məfhumunu daha tez-tez xatırlayır, özlərini yerli ictimai rəydən və beynəlxalq münasibətlərdən asılı olmayan kimi aparmağa başlayırlar.

Beləliklə, neft Azərbaycanın siyasi və iqtisadi həyatında özünün mürəkkəb rolunu oynamağa başlayıb. Neft gəlirləri ilə demokratiya demək olar ki, tərs mütənasiblik təşkil edir, gəlirlər artdıqca demokratiyanın sərhədləri daralır. Neftin demokratik proseslərə, iqtisadiyyatın sağlam inkişafına təsiri haqqında əvvəllər də pessimist proqnozlar səslənirdi, lakin hazırda mənzərə daha acınacaqlıdır.

Dövlət rəsmiləri açıq şəkildə bildirirlər ki, beynəlxalq təşkilatların, hətta Avropa Birliyi kimi qurumların ayıracağı böyük maliyyə resurslarına ehtiyacları yoxdur. Deməli, siyasi və iqtisadi islahatlara da ehtiyac duyulmur, ölkəni məmur kapitalizmi istiqamətində inkişaf etdirmək olar. Üstəlik, milli resurslar orta səviyyəli məmurlara da böyük sərbəstlik verir. Məmurlar nazirliklərin ildən-ilə artan büdcəsi hesabına öz problemlərini həll edə, həm də büdcə xərclərində böyük yer tutan təmir-tikinti layihələrindən vəsait mənimsəyə bilirlər. Burada böyük tikinti və kommunikasiya layihələrini xüsusilə qeyd etmək lazımdır. Neft gəlirləri artdıqca hakimiyyətin belə layihələrə marağı daha da artır.

Neft bir neçə parametr üzrə Azərbaycandakı siyasi hakimiyyətin müstəqilliyini artırır, onun beynəlxalq mühitdən asılılığını azaldır.

Əvvəllər ölkə müəyyən mənada beynəlxalq maliyyə institutlarından asılı idi, öz iqtisadiyyatını onların ayırdığı kreditlər hesabına inkişaf etdirirdi.

Neft gəlirlərinin ölkəyə böyük miqdarda daxil olması hətta Azərbaycanın özünü investora çevirib, Azərbaycan Gürcüstanda və Türkiyədə böyük investisiya layihələri həyata keçirir.

Demokratiyanın məhdudlaşdırılmasının digər yolu böyük enerji layihələrinin ölkə üçün yaratdığı geosiyasi manevr imkanlarıdır. Qərb dövlətlərinin təzyiqini hiss edən Azərbaycan bunu Rusiyanın və digər ölkələrin təsiri ilə tarazlaşdıra bilir. Üstəlik, Qərb dövlətlərinin özlərinin də Azərbaycana marağında enerji məsələləri xüsusi önəm kəsb edir və onlar bunu gizlətmirlər.

Təbii ki, hakimiyyətin inzibati resurslarını, xüsusən də güc strukturlarını qeyd etmək lazım gəlir, çünki ölkədəki siyasi hakimiyyətin yaşarlığını təmin edən ilk növbədə onlardır. Neft gəlirləri artdıqca güc strukturlarının büdcə vəsaitləri çoxalır, bu da onların hakimiyyətə qarşı sədaqətini artırır.

Hətta sosial narazılıqları da pensiya artımları və müxtəlif sosial yardımlar vasitəsilə səngitmək mümkündür. Hakimiyyət neftdən gələn gəlirlərin kiçik bir hissəsini məcburi köçkünlərin və aztəminatlı təbəqənin problemlərinin həllinə yönəldir və bununla da narazılığın qismən azalmasına nail olur. Lakin neft pullarının göyə sovrulması gec-tez inqilablarla nəticələnir. Bu reallığı Qərbdə də dərk edirlər...

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014



# Daha bir sualtı görüşə ehtiyac varmı?

Hüseynbala SƏLİMOV

**Ukraynanın şərqindəki hərbi gərginlik və bütün diplomatik səylərə baxmayaraq bu ölkənin hələ də böhranlı vəziyyətdə qalması Qərb dövlətlərini yeni geosiyasi formullar axtarmağa sövq edir.**

Xatırladaq ki, hələ münaqişənin ilk günlərində ABŞ rəsmiləri bildirmişdilər ki, NATO Ukraynanın hesabına genişlənməyəcək. Bundan bir qədər sonra isə Z.Bjezinski maraqlı yazı ilə çıxış etmişdi. O da bildirmişdi ki, Rusiya Ukraynanın Avropa Birliyinə inteqrasiyasına mane olmamağının müqabilində əlavə təminat ala bilər - NATO bu ölkə ilə yalnız qeyri-üzvlük əlaqələri qurar və onu öz üzvlüyünə qəbul etmək haqqında düşünməz.

İndi də belə bir bəyanat yayılıb. Məlum olur ki, ABŞ siyasətçiləri Ukraynaya, Gürcüstana və Moldovaya üzvlük statusu vermədən onlara NATO-nun müttəfiqi statusu verməyi təklif edirlər.

İlk baxışda bu bəyanatlar bir qədər ritorik, hətta söz oyunu təsiri bağışlayır. Amma onların arxasında Qərbin həqiqətən də ciddi narahatlığı dayanır: Qərb bu ölkələrin həqiqətən də təhlükəsizliyini təmin etmək istəyir...

Problem düşünülən qədər də asan deyil. Ukraynanın şərqində nəinki Rusiyanın drijorluğu, hətta hərbi iştirakı hiss olunur. Qərb bu labirintdən həm özünü, həm də Ukraynanı çıxarmağa cəhd edir.

NATO-nun bu il sentyabr ayında Uelssdə keçiriləcək sammitinə böyük ümid bəsləyirdik. Amma hiss olunur ki, sammit Ukraynaya, Gürcüstana və bir də Moldovaya təsəlliverici bir şey təklif edə bilməyəcək.

Hər prosesin gedişində bir məyusluq zolağı olur. İndi, üç ölkə Avropa Birliyi ilə assosiasiya sazişi imzaladıqdan sonra, bizə Avropanın nə qazandığını demək daha asandır, nəinki bu üç ölkənin!

Bəli, deyirlər ki, bu ölkələr 500 milyonluq istehlakçı bazarına çıxış aldı. Amma gəlin görək həmin ölkələrin həmin 500 milyonluq tələbkar və ərköyün istehlakçı kütləsinə təklif etməyə nəyisə varmı?

Sözsüz ki, Avropa Birliyi ilə assosiasiya sazişi imzalamaq lazım idi. Amma bu, daha böyük əməkdaşlığın və inteqrasiya prosesinin ərəfəsi olmalı idi. Bunu isə hələ ki hiss etmirik.

Açığını deyək. Ukraynanın, Gürcüstanın və Moldovanın daha çox NATO-ya ehtiyacı var. Ukrayna assosiasiya sazişini imzaladı. Amma bunun əvəzində nə aldı? Sonu görünməyən bir böhran. Ukraynaya lazım idimi bu?

Ukrayna çox böyük risk etdi. Avropa da heç olmasa, bu riskin ondan birini etməlidir.

Düzdür, Rusiya nüvə dövlətidi, böyük hərbi potensialı var. Bunları çox yaxşı başa düşürük. Amma Avropa da başa düşməyə cəhd etməlidi...

Son bir həftədə ABŞ bir günün içində İsrailə 300 milyon dollar ayırdı. Bunun kimi Ukraynaya da yardım ayırmaq olardı. Amma nə etdilər? Ukrayna prezidenti ilə Polşada görüşdülər. Halbuki ABŞ prezidentinin Ukraynaya səfər etməsi kimlərəsə güclü təsir edərdi...

Sözsüz ki, bir müddət keçəcək, bu məyusluq zolağı da bitəcək. Amma bunun üçün ciddi iş görmək lazımdır. Bu vaxta qədər isə cəmi bir əməli təklif olub-o da budur ki, Şərqi Avropadakı sovet silahlarının Ukraynaya veriləcəyi deyilib.

Amma güman etmirik ki, Ukrayna silah sarıdan kasadlıq çəkir. Bu ölkənin çox unikal hərbi-sənaye kompleksi vardı. Ukrayna, demək olar ki, bunların da hamısını itirdi. Əvəzində isə siyasi tapmacalar və yanıltmaclar qazandı...

Nə demək istəyirik? Qərb dövlətləri öz təkliflərinə istədikləri adı verə və ona istədikləri formanı yapışdıra bilərlər. Amma bütün bunların bir məzmunu olmalıdır: Ukrayna, Gürcüstan və Moldovanın təhlükəsizliyi təmin edilməli və bu, konkret institusional forma almalıdır.

NATO-nun bütün genişlənmə periodlarında Rusiyada həmişə siyasi isterika olub. Guya ki, Rusiya Baltik ölkələrinin NATO-ya inteqrasiyasını istəyirdi? Bəlkə o, Şərqi Avropa ölkələrinin bu bloka qoşulmasını arzulayırdı? Təbii ki, arzulamırdı. Amma mane ola da bilmədi.

Bilirsiniz, məsələnin kökü nədədir? O, çox dərindir. Buşla Qorbaçovun sualtı görüşünü xatırlayırsınızmı?

SSRİ-nin süqutu ərəfəsində SSRİ rəhbərliyi ilə söhbətlərdə ABŞ rəhbərliyi sovet respublikalarından yalnız Baltik respublikalarının məsələsini qaldırırdı. Onları da müstəqil etdilər. Qalan respublikalar isə təsadüfün və taleyin ümidinə buraxıldı. Tale və təsadüf isə həmişə şıltaq olur...

**Netanyahu hökuməti Qəzzanı bombaladıqca, dünya tənbəlcə bir-iki ağız qınayır və hamı öz işinə davam edir. Özümü dərk edəndən bu işlər belədir, dəyişən heç nə yoxdur. Bəşər tarixinin olduqca maraqlı bir dönəminə şahidlik edirik deyəcəm, amma Fransız İnqilabından, Birinci Dünya müharibəsindən, İkinci Dünya müharibəsindən öncə də "bəşər tarixinin maraqlı dönəminə" şahidlik etdiyini düşünənlər, yazanlar olub. Doğru da olub - hər kəs öz zamanının müstəsnalığına inanır. İndi iş o yerə çatıb ki, İsrailin adı gələndə, tarixən susan alman mətbuatı da dilə gəlib, İsraili qınayır. Qınayır deyəndə, ABŞ bu gün tam dəstəyini ifadə edib. Nə qınamaqbazlıqdı? İsrail qırmızı xətti keçib? İsrail 1948-dən bəri dəfələrlə və daha iri miqyaslarda "qırmızı xətlər"in üstündən keçib. Bunlardan biri mənim çox yaxşı yadımdadır.**

Əli ƏKBƏR



# Kahrolsun İsrail!

1996-cı ilin 27 sentyabrında 4000 İsrail əsgəri Məscidi Aqsanı mühasirəyə alır və cümə namazı əsnasında 12 müsəlmanı güllələyir. Yenə həmin bu Netanyahu baş nazirdir. Netanyahu direşir ki, mən məscidin altından tunel çəkəcəm. Bunu da nəqliyyat infrastrukturunun yaxşılaşdırılması adı ilə edir. Ümumiyyətlə, hadisələr zamanı yetmiş fələstinli öldürülür, 2100 nəfər də yaralanır. Bunun müqabilində 12 İsrail əsgərinin ölməsi Netanyahu hökumətini çox qəzəbləndirmişdi. Bu dəfə isə üç israilli gənc ölmüşdü, əsgər yox; bəhanə bu oldu. Netanyahuya görə, bu hadisə daha şiddətli cavab tələb edir. Bu da nəticəsi.

İsrail-Fələstin konfliktinin çoxsaylı qanlı və qara səhifələri arasından nə üçün məhz bu hadisəni xatırladığımı da uzun-uzadı yazmaq və sizi yaxşıca yormaq istəyirəm. 1996-da, universitetin birinci kurs tələbəsi statusu ilə, İstanbulda bir yataqxanada qalırdım. Bu yataqxana, o zamankı hökumətin koalisiya ortağı məşhur Refah Partiyasının gənclər təşkilatı olan MGV-nin (Milli Gençlik Vakfı) tabeliyində idi. Bu yataqxanaya düşməyim, mənim azad seçimim idi. Mən bu ölkəyə oxumağa gedəndə, artıq Bakıdan bir sünni dindar kimi getmişdim, sadəcə siyasi baxışlarım formalaşmamışdı. Tələbəliyimin o dövründə, özümə ən yaxın hiss etdiyim siyasi görüş, Ərbakanın Milli Görüşü oldu. Çünki az-çox plüralizm, müxtəliflik, hər əqidə və düşüncədə müsəlmana qucaq açma (seçkilərdə Refah Partiyasına səs ver, bəsdir), eyni zamanda da namaz-niyaz təkcə onların yataqxana və tələbə evlərində olurdu. Qalan dini camaat və icmaların hamısında avtoritarlıq hökm sürürdü. Hamısında. İstisnasız.

Məscidi Aqsada yaşanan həmin bu qırğından sonra Milli Gənclik Vakfı, 27 sentyabr 1996-cı tarixinə, İstanbuldakı İsrail konsulluğunun qarşısında mitinq təyin edir. Mitinq üçün icazə filan alınmır. Yataqxanada qalanlar mitinqə getsələr pis olmaz deyilir. İki-üç şüar olacaq, biri də "Kahrolsun İsrail!" Əsasən bu şüarı qışqıracağıq. Uşaq vaxtı atamla Azadlıq meydanındakı mitinqə getməyim yadımda düşdü. Dedim bir baxım görüm bunların mitinqləri necə olur? Amma tək getməyə də ərinirdim. Qazaxıstanlı yaxın dostum olan Bolata zəng elədim, görüşdük, dərdimi ona açdım. Dedim sən atanın canı, sabah gəl mənimlə mitinqə gedək. Atası da nə az, nə çox o illərdə Qazaxıstanda nazir müavini idi (nazirliyin adını yazmayacam). Bolatla ortaq dəyərimiz rus dili, sovet estetikası, Kino və Rammstein qrupları idi. ümumiyyətlə iki sovet şəhərlisi kimi bir-birimizi yaxşı başa düşürdük. Amma adam içki içirdi, radikal dindarlara yaxşı baxmasa da, mənə dözürdü. Viktor Tsoy və Rammsteina qulaq asan bakılı dindar onun üçün də maraqlı idi deyə, dözürdü.

Dedim, sən atanın canı, sabah mənimlə mitinqə gedək. Ona İsrailin vəhşiliyi haqda danışdım, ölən fələstinli uşaqların qəzetdə şəkillərini göstərdim. Bolat çox kövrəldi, gözləri doldu. Dedi, məni təhrik edirsən, axı mən mitinq adamı deyiləm, atam da nazir müavinidir. Fələstinli uşaqlara ürəyim ağrıyır, Allah bu İsrailin də bəlasını versin, amma birdən mitinqdən şəkilim gedər çıxar biz tərəflərə, Nursultan vurar təpiyi atamın dalından, qalarıq ac-yalavac. Məni bu qaranlıq işlərinə soxma.

And-aman elədim, yalvardım, dedim, elə şey yoxdur. "Dostuq, qardaşıqsa, sən mənə görə bu mitinqə gəlməlisən. Viktor Tsoy yaşasaydı, mütləq bu mitinqə gələrdi. Sabah gəl gedək, qulağımızda qulaqlıq, qulaqlıqda Rammsteindan Der Meister, Herzeleid olsun, səsini sonacan açaq, əlimiz cibimizdə dalaq insan selinə, İsraili söyək, özümüzü yaxşı hiss edək." Mitinqi romantik göründürmək üçün min hoqqadan çıxırdım və sonda Bolat təslim oldu. Dedi, "sabah görüşək gedək mitinqə".

Ertəsi gün görüşdük. Gördüm Bolat ölüsü min dollarlıq kostyumda, beş yüz dollarlıq ayaqqabıda gəlib. Şəhər uşağı ki, şəhər uşağı. Beynində köhnə 1 May nümayişlərinin havası qalıb. Partnomenklatura dədəsini hər il 1 May paradına təzə kostyum geyinib gedən görüb, elə bilir İstanbulda anti-İsrail mitinqi də halvadır. Mitinq icazəsiz olsa da, hökumətdə Ərbakan idi. Polisin müdaxilə etməyəcəyinə hamı inanırdı. Yenə də onun bu eleqantlığı burada qəribə görünürdü.

Minlərlə adam toplaşmışdı. Mitinq başladı. Şüarlar qışqırdıq, İsraili lənətlədik, bir də onu gördüm ki, müxtəlif saqqallı kişilər məni ayaqlamaq istəyir. Polis nə zaman müdaxilə etdi, necə müdaxilə etdi xatırlamıram. Dubinkalar havada uçuşdu, neçə baş yarıldı, fəryadlar qopdu. Bolatı bir göz qırpımında itirdim, adam sanki qeybə çəkildi. Bayaqdan sağımda dayanmışdı. İki-üç dəfə yerə aşa-aşa mitinq meydanından güc-bəla ilə çıxa bildim. Çıxa bildim deyəndə ki, insan seli özü aparıb məni harasa tulladı.

Mobil telefon yox, facebook yox, heç nə yox. İndi mən bu Bolatı hardan tapım? Yaxşı ki, manıs özü məni tapdı. Üst-başımın tozunu çırpırdım ki, səsini eşitdim. Pencəyinin qolu qopmuşdu, ayaqqabısının da bir tayı itmişdi. Yaxınlaşdı, üzümə baxdı. Qəzəbli deyildi, əksinə, gülmək istəyirdi. Pencəyə, ayaqqabıya yanmırdı, sadəcə könül verməditi, ürəkdən bağlı olmadığı bir dava uğrunda meydana çıxmağın və bu meydanda itki verməyin absurdluğuna işarə edirdi. Onu bir daha inandırmağa çalışdım ki, Fələstində uşaqlar ölür, adamların ayaqları-əlləri qopur, cəsədləri gözünün önünə gətir. "Bax, mitinqə solçular da gəlmişdilər". Bolatın cavabı isə belə oldu ki, "Solçuların da, refahçıların da, hamısının da..." Seymur Baycan demişkən, nöqtələrin yerini özünüz doldurun.



Bolat dedi, "Heyf içmirsən, vurardıq qəşəngcə. Heç olmasa gedək mənə təzə paltar, ayaqqabı alaq. Nazir müavinini yenə xərcə salım".

Mən bu gün, Türkiyədə meydanlarda yenə həmin adamları görürəm. O vaxt olduğu kimi, bu gün də boş-boş danışırlar. Yenə cümə namazı çıxışında İsrailə lənət oxuyurlar. İsraildə də həmin Netanyahu öz işində-gücündədir.

Əsas odur ki, inanmadığın dəyərlər uğrunda canfəşanlıq etməyəsən. Etməyə məcbur olanda da, heç olmasa itki verməyəsən.

**"Abbas Abbasov xeyli vaxtdır ki, Azərbaycanda yaşamır. Özü də açıq deyib ki, ona icazə verilsə öləndən sonra vətəndə dəfn etsinlər. Bu adam Azərbaycandan birdəfəlik getdiyi üçün ürək sözünü rahat şəkildə deyə bilir, Rusiyanın istəklərini açıq danışır. Hamı da onun hansı mövqedə olduğunu görür".**

# Abbas Abbasovun "İstiqlal" ordeninin alınması təklifinə reaksiyalar gəldi

## İstiqlalçı deputatlar "5-ci kolon" üzvlərinə orden-medal paylanmasına qarşı çıxdılar, hakimiyyətə çağırış olundu


Abbas Abbasov

Bunu baş nazirin sabiq müavini Abbas Abbasovdan "İstiqlal" ordeninin alınması ilə bağlı son günlər səslənən çağırışlara münasibət bildirən Vahid Azərbaycan Milli Birlik Partiyasının (VAMBP) sədri, istiqlalçı deputat Hacıbaba Əzimov dedi.

VAMP sədri qeyd etdi ki, Azərbaycanın müstəqilliyi əleyhinə çıxış edənlər A.Abbasovla məhdudlaşmır. Onun sözlərinə görə, iqtidarda Rusiyanın agentləri, donosçuları olanlar var:

"Onlar hakimiyyətdə himayə olunaraq oturublar. Bu adamları Azərbaycanın müstəqilliyi, dövlətçiliyi maraqlandırmır. Onlara Putinin dedikləri əhəmiyyətlidir. Çünki Rusiyaya xidmət edirlər, Putin tərəfindən himayə olunurlar. Ona görə də rus kəşfiyyatının köməyi ilə hakimiyyətə soxulublar, Kremlin mövqeyini müdafiə edirlər. Yəni bu bir adamlıq iş deyil. Rusiyanın Azərbaycanda "5-ci kolonu" mövcuddur. Həmin adamlar Abbas Abbasovdan geri qalmırlar".

**H.Əzimovun fikrincə, Azərbaycanın müstəqilliyi əleyhinə iş görənlər xalq qarşısında mühakimə olunmalıdır:** "Çünki açıq şəkildə xəyanətkar fəaliyyətdə iştirak edirlər və gözləyirlər ki, zamanı gələndə Moskvaya sığınsınlar, oradan ölkəmiz əleyhinə çıxışlarını davam etsinlər. Onlardan biri elə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevdir.

Bu məmur Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə sahiblənib, istiqlalçı deputatların deputatlıq pensiyasının verilməsinə imkan vermir. Səfa Mirzəyevi Mütəllibov o dövrdə gətirib ki, işləsin. Bilirdilər ki, onun Rusiyanın xüsusi xidmət orqanlarına bağlılığı var. Deputat Hadı Rəcəbli də Rusiyanı müdafiə edib, Talış Muğan Respublikasının qurulmasına dəstək verib. İndi Rauf Mirqədirovu ermənilərlə işləməkdə ittiham edirlər.

Bunun heç bir əsası yoxdur. Amma illər əvvəl Polad Bülbüloğlu bir qrup adamla Dağlıq Qarabağa getdi, müsahibələr, bəyanatlarla çıxış etdi. Onun çıxışları Azərbaycanın unitar dövlət quruluşunu dağıtmağa yönələr çağırışlar idi. Biz o zaman baş prokurora yazdıq, amma heç bir reaksiya verilmədi. Reaksiya verilməyəcəkdi də. Çünki Rusiyanın "5-ci kolonu"na xidmət edən adamlardı".

**İstiqlalçı deputat hesab edir ki, bu mənada tək A.Abbasovdan yapışmaq olmaz:** "Onlara orden, adlar verilir, səlahiyyətləri genişlənir. Səfa Mirzəyev, Hadı Rəcəbli "Şöhrət" ordeni alıblar. Tək Abbas Abbasovun yaxasından yapışmaq olmaz.

Ondan da qatı, xəyanətkar adamlar var ki, vəzifədə oturublar. İqtidarda belə adamların tək ordenləri alınmalı deyil, həm də xalq qarşısında mühakimə olunmalıdır. Abbasov bilirik ki, Moskvada yaşayır, belə danışır. Ancaq Bakıda oturub, hakimiyyətdə təmsil olunanlar ondan daha artığını edirlər".

**Milli Şurasının üzvü, istiqlalçı deputat İbrahim İbrahimli** də bu məsələni bir nəfərin üzərində fokuslaşdırmağın əleyhinədir. Onun sözlərinə görə, prosesə fərdi anlamda yox, daha geniş baxış bucağından yanaşmaq lazımdır.

**İ.İbrahimli hesab edir ki, orden və medalların paylanması iqtidarın mövqeyini möhkəmləndirməyə hesablanıb:** "Hakimiyyət onun maraqlarına uyğun olaraq adamları təltif edir. Bu məsələyə açıq şəkildə bir ögeylik, ayrı-seçkiliklə yanaşır.

Qəti şəkildə "İstiqlal" ordeni sağa-sola paylana bilməz. Yalnız istiqlaliyyət uğrunda mübarizə aparmış, bu yöndə prosesləri stimullaşdıran əsərlər yazmış adamlar bu ordenə layiq görülə bilər. Təəssüflər olsun ki, istiqlaliyyətə aidiyyəti olmayan, müstəqillik atributlarının bərpasında iştirak etməyən, əksinə, bu məsələdə aqressiv mövqedə dayananlara "İstiqlal" ordeni verilir".

**İ.İbrahimli "5-ci kolon" üzvlərinin təhdidlərinə kəskin mövqe bildirməyin tərəfdarıdır:** "Bu məsələyə prinsipial, kökündən yanaşmaq lazımdır. Bu gün istiqlaliyyət üçün vuruşmuş adamlar zindanlara salınır, imtiyazlardan məhrum edilir.

Amma müstəqilliyə qarşı çıxanlar mükafat alırlar. Vaxtilə istiqlalçı deputat Mürşüd Məmmədli xəstəlikdən əziyyət çəkdi, yardım olmadı, Ədalət Rəhimli də ağır xəstəliyə tutuldu, himayədən kənarda qaldı, əsərlərini çap etməyə imkanı olmadı. Bu gün Məryəm Həsənova 130 manat pensiya alır, taleyin ümidinə buraxılıb. Hacıbaba Əzimov 200 manat pensiya alır. Müstəqillik üçün əməyi olan adamlara qiymət verilmir".

❑ E.SALAMOĞLU



# Rusiya miqrantlara dil, tarix, qanun şərti qoyur

**Rusiyada işləmək istəyənlər bu ölkənin tarixindən 19 günü və 50 personalı öyrənməli olacaq. Moskvadakı Xalqlar Dostluğu Universitetinin əlavə təhsil üzrə prorektoru Anjela Doljikova iyulun 21-də belə açıqlama verib.**

2015-ci il yanvarın 1-dən Rusiyada müvəqqəti yaşamaq və işləmək razılığı almaq istəyən miqrantlar testdən keçməli olacaqlar. Test rus dili, Rusiya tarixi və qanunvericiliyinin əsasları üzərində aparılacaq. Hazırda Rusiya Xalqlar Dostluğu Universitetində miqrantlar üçün test tapşırıqları hazırlanır.

"Media forum" saytının məlumatına görə, Doljikova tarix üzrə üçündən birini seçməklə 20 sualın hazırlandığını bildirib: "Suallar Rusiya tarixindən ən vacib hadisələri əhatə edir. Hazırda testə 19 tarixi gün və hərbçilər, şairlər, yazıçılar, bəzi müasir siyasətçilər də daxil olmaqla, 50 xadim haqda suallar düşüb".

Prorektorun sözlərinə görə, rus dili üzrə testlər miqrantlar üçün indi qüvvədə olan testləşmədən bir az fərqlənəcək.

Qanunvericiliyin əsasları üzrə modula 20 sual daxil ediləcək. Əcnəbi vətəndaşlar Rusiyada özlərini düzgün aparmaq və inzibati məsuliyyətə cəlb olunmamaq üçün bu suallara cavab verməli olacaq.

Doljikova miqrantları bu test imtahanına hazırlamaq üçün dərsliklər çap olunduğunu vurğulayıb: "Hazırda onların elektron versiyası üzərində də iş gedir".

# Azərbaycan iqtidarı Ərdoğanın prezident olmasını istəyir

## Rəsmi Bakının gözləntiləri var


Rəcəb Tayyib Ərdoğan

**Türkiyədə avqustun 10-da keçiriləcək prezident seçkilərinə hazırlıq kampaniyası sürətlənib. Azərbaycanda da qardaş ölkədəki seçki kampaniyası, kimin prezident kürsüsünə əyləşməsi maraqla izlənməkdədir. Üç namizəddən hansının qalib gəlməsinin Azərbaycanın marağına uyğun olub-olmadığı ilə bağlı siyasətçilər arasında fərqli yanaşmalar var.**

Müxalifət düşərgəsi əsasən birləşmiş müxalifətin ortaq namizədi Ekmeleddin İhsanoğlunun prezident seçilməsini istədiklərini dilə gətirirlər. Hakimiyyət isə baş nazir Rəcəb Tayyib Ərdoğanın Türkiyənin cümhurbaşqanı seçilməsində maraqlı görünür. Hətta Ərdoğana ən müxtəlif şəkildə dəstək verilir. Bəs Azərbaycan iqtidarının Ərdoğandan prezident olacağı halda hansı gözləntiləri ola bilər ki, onu müdafiə edir?

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri** hesab edir ki, Ərdoğan prezident seçildiyi təqdirdə rəsmi Bakının ondan bir sıra gözləntiləri var və bu təbiidir. Hakimiyyət maraqlıdır ki, Türkiyənin prezidenti AKP lideri Ərdoğan olsun. Çünki Ərdoğan hakimiyyəti ilə Azərbaycan hakimiyyətini bağlayan tellər, maraqlar var. Bu iki hakimiyyət arasında isti münasibətlər, əlaqələr uzun illərə gedib çıxır: "İlham Əliyevin də prezident seçilməsində vaxtilə Ərdoğan maraqlı olub. Bunun üçün dəstək ifadə edilib. Ərdoğan hökuməti ilə Azərbaycan hakimiyyətinin bir-birinə dəstək verməsi həm geosiyasi maraqlar, həm də korporativ maraqlardan irəli gəlir. Azərbaycanın təhlükəsizliyi, eyni zamanda hakimiyyətin özünün təhlükəsizliyi məsələsində də Ərdoğan hökumətinin az rolu yox deyil. Azərbaycan hakimiyyətinin Ərdoğanı müdafiə etməsinin səbəblərindən biri də budur. Azərbaycan hakimiyyəti Ərdoğanın prezident seçilməsində maraqlı olmalıdır, başqa cür olması təəccüblü görünərdi".

**Ekspertin fikrincə, Ərdoğan prezident olduğu təqdirdə Azərbaycanın, xüsusən hakimiyyətin maraqlarının ziddinə getməyəcək. Rəsmi Bakının gözləntilərindən biri budur:** "Xüsusilə də Qarabağ məsələsində, bu məsələyə bağlılığı olan Ermənistan-Türkiyə sərhədinin açılması məsələsində Ərdoğanın Azərbaycanın marağına uyğun olmayan addım atmamasını gözləyir. Azərbaycan hakimiyyəti gözləyir ki, Ərdoğan Ermənistanla sərhədi açacaqsa, bu addımı işğal altındakı Dağlıq Qarabağ ətrafındakı rayonlarımızın ermənilər tərəfindən geri qaytarılmasından sonra atsın. Məhz bu məsələ-Dağlıq Qarabağətrafı işğal altındakı rayonlarımızın azad olunması məsələsi bu gün Rusiya ilə Azərbaycan arasında da ciddi siyasi bazarlıq predmetidir. Bu prosesin içərisində Ərdoğan hakimiyyəti də var. Türkiyənin maraqları burda nədir? Türkiyə Rusiyanı razı sala bilsə, Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun boşaldılması təqdirində Türkiyə Ermənistanla sərhədi açardı və bu da Ankaranın maraqlarına uyğundur. Qondarma "erməni soyqırımı"nın yüz illiyinə erməni diasporu çox ciddi hazırlaşır. Bu ajiotajı nisbətən səngitmək üçün Türkiyədə sərhədlərin açılması ciddi təsir rolunu oynaya bilərdi. Ərdoğan da bunu bilməmiş deyil. Rəsmi Bakının da Ərdoğandan gözləntisi Azərbaycanın maraqlarının nəzərə alınmasıdır. Gözləntilərdən biri də həyata keçirilməkdə olan və keçiriləcəyi planlaşdırılan böyük iqtisadi layihələrin heç bir problem olmadan gerçəkləşdirilməsinə Ərdoğanın prezident kimi dəstək verməsidir".

N.Miri onu da dedi ki, Azərbaycan iqtidarı özünə də qarşıdakı mərhələdə Ərdoğandan dəstək gözləyir. Çünki Türkiyə prezidentindən dəstək həmişə mühüm amil olub və bundan sonra da olacaq.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014










# Prokurorluq sabiq nazirin oğlunun tikinti şirkətini möhürlədi

## "SEVİL" MMC-ni Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi qapatdı; şirkətin işçiləri, menecerləri, mühasibləri saxlanılıb, rəhbəri Aynur Zeynalovun isə Türkiyəyə qaçdığı deyilir

**Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi "Sevil" MMC-də qəfil yoxlamalara başlayıb, şirkət qapadılıb. Bir qədər əvvələ qədər KİV-lərdə sürəkli şəkildə reklamı yayılan şirkətin Masazırdakı "Sevil Massivi Yaşayış Kompleksi"ndə də işlər dayandırılıb.**

Şirkətin facebookdakı səhifəsi qapadılıb, əlaqə telefonları - 055 289-50-02 nömrəli mobil telefon söndürülüb, baş ofisdəki 012 347-22-00 nömrəsinə də cavab verilmir.

Redaksiyamıza daxil olan məlumatlarda MMC rəhbəri Aynur Zeynalovun ölkədən qaçdığı, iş icraçılarının və satış menecerlərinin Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə aparıldığı da vurğulanırdı.

İyulun 21-də MMC-nin baş ofisində və yaşayış massivində olduq. Yaşayış massivinin girişində post qoyulub və içəri heç kim buraxılmır. Diqqətçəkən məqamlardan biri də həmin massivə gedən yolun sağ və sol tərəfində üzərində "Sevil MMC" və ""Sevil Massivi Yaşayış Kompleksi" evlər təklif edir" məzmunlu reklam lövhələrinin də yığışdırılması idi. Yalnız massivə dönən yolun üstündən keçən körpünün alt hissəsində MMC-nin reklam lövhəsi qalır. Massivin girişindəki postda qarşımızı kəsən mühafizəçilər müştəriləri içəri buraxmamaq haqda əmr aldıqlarını dedilər. Onlar massivdən ev almaq üçün ödəniş etmiş müştərilərə "içəridə polislər doludur, Vergilər Nazirliyi yoxlama aparır, olmaz" - deyib massivin girişindən geri qaytarırlar. Əslində isə ərazidə heç bir yoxlama getmirdi...

Mühafizəçilərə tikiləcək 5 mərtəbəli binalardan birində yaxın qohumumun 300 min manat ödəməklə ev aldığını dedim. Və qohumumun nümayəndəsi olaraq həmin binanın hansı həddə qədər tikilməsini öyrənmək üçün əraziyə sadəcə baxış keçirmək istəyində olduğumu söylədim. Beləcə mühafizəçiləri massivə baxış keçirməyə razı saldım. Onlardan birinin nəzarəti altında massivi gəzib dolaşdım. Orada mühafizəçilərin dediyi kimi, nəinki polislər, heç söhbət etməyə bir bəni-insan da yox idi. Yarımçıq tikililər, özül üçün qazılmış çalalar... Saymaqla başa çıxmaq olmur. Mühafizəçi bizi tikintinin müvəqqəti dayandırıldığına inandırmağa çalışırdı. Deyirdi ki, Aynur müəllimdən Vergilər Nazirliyi böyük məbləğ tələb edir deyə ərazidə işi dayandırıblar.

"Həmin pulu nəyə görə istəyirlər" sualına mühafizəçi "istəyirlər də" cavabını verirdi.

Mühafizəçi ilə aramızda belə bir sual-cavab olur:

***- Neçə günə işə başlayacaqlar?***

- 10-15 günə.

***- Bəs qapıda olan o bir mühafizəçi dedi ki, 3-4 günə iş başlayacaq?***






- Hə, təxminən avqustun 1-dən başlayarlar.

***- Aynur müəllimlə necə görüşə bilərəm?***

- Burada yoxdur.

***- Ofisdədir?***

- Yox, o, ofisə gəlmir.

***- Bəs kim olur?***

- Burada bir neçə şərik var.

***- Onların adı nədir?***

- Bilmirəm.

***- Deyirlər Aynur müəllim dindardır. Düzdür?***

- Hə, dindardır.

***- Burada dindarların davası olub?***

- Yox. Onu kim deyir?

***- Elə eşitdim.***

***- Burada torpağın sotu hazırda neçəyədir?***

- 10 min manat.

Mühafizəçi qazılmış özüllərdən birinin qarşısında maşını saxlayıb dedi ki, ərazidə çoxlu çoxmərtəbəli binalar tikiləcək. "Nə vaxt" sualına isə "tikəcəklər" cavabını verdi. Yenə də ona suallar verməklə "qohumumun" aqibətinin necə olacağını aydınlaşdırmağa çalışdım.

Cavabları ümumi oldu, tikintinin müvəqqəti dayandırılmasına məni inandırmaq üçün kanalizasiya sisteminin qurulub başa çatdığını, digər kommunikasiya xətlərinin də çəkiləcəyini deyirdi. Şirkət rəhbərliyindən yalnız Ceyhun adlı iş icraçısı ilə avqustun əvvəlində görüşə biləcəyimi söylədi.

Kompleksin ərazindən ayrılıb bir qədər aralıda olan "Sevil" MMC-nin baş ofisinə yollandım. MMC-nin ofisinin giriş-çıxış qapıları bağlı idi. Qapılara üzərində "Azərbaycan Respublikasının



Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi. Zərflər üçün" sözləri yazılan möhür vurulmuşdu. Az keçmədi ki, mühafizəçi yaxınlaşdı. Ondan qapıların möhürlənməsinin səbəbini soruşdum. Gözünü qapıya zilləyib "elə-belə yapışdırıblar. Avam camaatı qorxutmaq üçün belə edirlər. Görmürsən, möhürün üstündə zərflər üçün yazılıb" - dedi.

**"Camaatı niyə qorxudurlar ki" sualına cavabı da maraqlı olur:** "Pul istəyirlər. Ona görə də qorxudurlar ki, səs-küy olsun, pulu alsınlar".

Mühafizəçidən ofis əməkdaşlarının, rəhbərliyinin harada olduğunu soruşduqda dedi ki, iyulun 20-də antikorrupsiya idarəsindən gələnlər ofisin işçilərini, satış menecerlərini, mühasibləri, mühasibat və digər sənəd-sübutları yığışdıraraq aparıb: "Hamını apardılar, sənədləri də. Yoxlayırlar".

Şirkət rəhbəri Aynur Zeynalovun ölkədən qaçdığı haqda məlumatın nə dərəcədə doğru olduğunu da mühafizəçidən xəbər aldım. "Aynur müəllim hər il yayda ailəsi ilə Türkiyədə dincəlir. Bu il də gedib. Narahat olmayın, heç hara qaçmayıb" dedi.

Mühafizəçi ilə söhbət etdiyim zaman ofisin qapısına orta yaşlı bir xanım yaxınlaşdı. Məlum olur ki, "Sevil" MMC müştərilərindəndir və ofisə aylıq pul ödəməyə gəlib. Mühafizəçi ona da avqustun əvvəlində ofisin açılacağını deyib yola salır. Və çox arxayın şəkildə "gedin, narahat olmayın, şirkətin minlərlə müştərisi var, buranı heç kim qoyub qaçmaz" deyərək məni maşına qədər yola salıb ərazidən uzaqlaşmağıma nəzarət etdi.

**Redaksiyaya qayıdıb Baş Prokurorluğun mətbuat xidmətinə "Sevil" MMC-dəki yoxlamaların səbəbi haqda sorğu verdik. Xidmət rəhbəri Eldar Sultanov sorğumuza belə cavab verdi:** "Baş Prokurorluq "Sevil" MMC ilə bağlı hər hansı bir şərh vermir".

MMC-nin möhürlənməsi, yaşayış kompleksində işlərin tamamilə dayandırılması, belə bir vaxtda Aynur Zeynalovun Türkiyəyə ailəsi ilə istirahətə getməsi onu deməyə əsas verir ki, "Sevil" MMC sərfəli vədlər və reklam hesabına minlərlə müştəri və milyonlarla manat pul toplayan, sonradan isə iflas edən "GEN" MMC, "MurAy" MTK və bu qəbildən olan şirkətlər sırasında yer almaq üzrədir. 7 il əvvəl "GEN" MMC 377 vətəndaşdan 12 milyon manat alıb çoxmərtəbəli bina tikəcəyini vəd vermişdi. Hazırda bu şirkətin rəhbəri Elbrus Əliyev həbsxanada 12 illik cəza müddətinin böyük hissəsini başa vurub. Aldadılan vətəndaşlar isə hələ də ev tələbi ilə müxtəlif dövlət orqanlarının qapısını döyməkdən yorulublar. "Sevil" MMC-nin eyni yola getdiyini indidən söyləmək düzgün olmazdı. Amma şirkətlə bağlı internet üzərindən məlumat toplayarkən A.Zeynalovun 23 iyul 2012-ci ildə verdiyi bir müsahibəyə də rast gəldik.

**A.Zeynalov həmin müsahibəsində deyib:**

"Bakının "20 Yanvar" metro stansiyasından 14 km məsafədə, Müşfüqabad qəsəbəsi yaxınlığında hər bir infrastrukturu olan torpaq sahələrinin satışına başlanılıb.

Ümumi ərazisi 59 ha olan "Sevil Massivi"nin 40 faizi infrastruktura və yollara ayrılıb. Ərazi elektrik enerjisi, su, qaz və telefon xətti ilə təmin edilib. Hazırda yolun çəkilişi aparılır, növbəti mərhələdə kanalizasiya şəbəkəsinin qurulmasına başlanılacaqdır".

Yaxın gələcəkdə massivin ərazisində 8 metr enində asfalt yollar, 3.5 ha park və 2.4 ha idman kompleksi, stadion, ticarət mərkəzləri, məktəb, uşaq bağçası və s. yer alacaqdır.

"Sevil Massivi"ndə sahəsi 3, 6, 9 və 12 sotdan ibarət olan 370 torpaq sahəsi var. Aynur Zeynalovun sözlərinə görə, perspektiv planda ərazinin genişləndirilməsi və burada tikiləcək evlərin sayının 1000 ədədə çatdırılması nəzərdə tutulub. "Sevil Massivi"nin torpaq alıb ev tikmək istəyənlər üçün digər bir əlverişli cəhəti burada torpaqların ilkin ödəniş 10-20 faiz olmaqla, 24-48 ay müddətində faizsiz kreditlə satılmasıdır. "Ayda cəmi 375 manat ödəməklə, 48 ay müddətində 3 sot torpaq sahəsinə sahib olmaq mümkündür. Torpaqlar vətəndaşlara sənədli şəkildə - mülkiyyətə dair çıxarışla satılır".

**Aynur Zeynalov qeyd edib ki, massivin ərazisində ev tikən zaman torpaq sahibləri 3 şərti yerinə yetirməlidirlər:** "Birincisi, ev hasara bitişik tikilməməli, ikincisi, evin damı qırmızı rəngli andulin materialı ilə örtülməli, üçüncüsü isə fasadın hörgü araları sement qarışığı ilə doldurularaq naxış şəklinə salınmalıdır. Evin quruluşu, sahəsi, neçə mərtəbəli olması isə torpaq sahibinin öz istəyindən asılıdır". "Sevil Massivi"ndə qohum olan şəxslər 6 sot torpaq alıb üç yerə bölüb evlərini tikə bilərlər. Elə "Sevil" MMC torpaq sahiblərinə evlərin tikilməsi xidmətini də göstərir".

"Ev tikmək istəyənlərin 80 faizi bizə müraciət edirlər. Çünki biz onlara hasarların çəkilməsində kömək edirik, həm də qiymətlərimiz münasibdir", - həmin müsahibədə Zeynalov əlavə edib.

Qeyd edək ki, "Sevil Massivi"nin nümunəvi qəsəbə olması nəzərdə tutulurdu.

Maraqlıdır ki, A.Zeynalovun həmin müsahibəsindən artıq 2 il ötüb və ərazidə tikinti işləri yekunlaşmayıb. Nümunəvi qəsəbədə yaşayış sadəcə yoxdur!

Şirkətin adına gəlincə isə belə məlumatlar var ki, vəhhabi təriqətinin ardıcıllarından olan A.Zeynalov bura öz anasının adını verib. Belə ki, vəhhabilər arasında Hacı Aynur kimi tanınan bu şəxsin anası Sevil Zeynalova vaxtilə Azərbaycanın yeyinti sənayesi naziri olub. Hacı Aynurun ilkin kapitalının da anasından qalan miras olduğu və şirkətə də məhz anasının adını verdiyi bildirilir.

**Yazıda göstərilənlərlə bağlı A.Zeynalovun mövqeyini dərc etməyə hazırıq.**

**Mövzunu davam etdirəcəyik.**

**❑ E.MƏMMƏDƏLİYEV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014

**Ukrayna səmasında vurulan sərnişin təyyarəsi ilə bağlı müəmmalar artır. Son olaraq bildirilir ki, artıq BMT Təhlükəsizlik Şurası Ukraynada düşmüş sərnişin təyyarəsi ilə bağlı qətnamə layihəsini müzakirə edəcək. Layihədə Ukrayna münaqişəsinin bütün tərəflərindən mülki təyyarələrə qarşı zorakılıq aktlarından çəkinmək tələb olunur.**

# "Malayziya təyyarəsini rusiyapərəst separatçılar vurub"

## Qərb mediası birmənalı şəkildə Rusiyanı göstərir, Putin isə növbəti bəyanat verərək qəzanı faciəvi hadisə adlandırıb

Avstraliyanın təqdim etdiyi layihəni yetərli saymayan Rusiya öz layihəsini təqdim edib. Rusiyanın BMT-dəki səfiri Vitali Çurkin bəyan edib ki, Moskva təyyarə faciəsinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının bayrağı altında araşdırılmasını istəyir.

Amsterdam-Kuala-Lumpur reysi ilə uçan "Boinq-777" sərnişin təyyarəsi iyulun 17-də separatçıların əlində olan Donetsk vilayətində yerə düşüb. "Malaysia Airlines" şirkətinə məxsus təyyarədə Niderlandın 192, Malayziyanın 44, Avstraliyanın 27, İndoneziyanın 12, Böyük Britaniyanın 10, Almaniyanın 4, Belçikanın 4, Filippinin 3, Kanadanın 1, Yeni Zelandiyanın 1 vətəndaşı həlak olub.

On min metr yüksəklikdə uçan təyyarənin raketlə vurulduğu ehtimalı böyükdür. Həm Ukraynada, həm də bəzi Qərb dairələrində Rusiyanı və bu ölkəyə bağlı Ukrayna separatçılarını terror aktı törətməkdə ittiham edirlər.

Yeri gəlmişkən, "Belavia" aviaşirkəti Ukraynanın şərqində baş verən təyyarə qəzasından sonra təhlükəsizlik məqsədilə səkkiz şəhərə beynəlxalq uçuşların marşrutunda dəyişikliklər edib. Söhbət Bakı, Tiflis, Batumi, Kutaisi, Krasnodar və s. şəhərlərə həyata keçirilən aviareyslərdən gedir.

Artıq Malayziyaya məxsus təyyarənin qəzaya uğradığı ərazidə 251 nəfərin cəsədi, habelə ölənlərin bədənlərinin 66 ayrı-ayrı hissəsi tapılıb. Bu barədə Ukrayna Fövqəladə Hallar Dövlət Xidmətinin bəyanatında bildirilir. Qeyd olunur ki, cəsədlər və bədən fraqmentləri Torez dəmir yolu stansiyasında refrijerator-vaqonlara yüklənib. Mütəxəssislər artıq 120 kv.m-lik ərazidə axtarış aparıblar.

**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (AZAL) sabiq prezidenti Ədalət Əliyev Ukraynanın Donbas vilayətində "Boeing 777" tipli mülki təyyarənin vurulması hadisəsinə münasibət bildirib. O, musavat.com-a açıqlamasında deyib ki, hadisənin Rusiya tərəfindən törədilməsi barədə iddialar kifayət qədər əsaslıdır:** "Buna əminəm. Rusiya təyyarəni Ukrayna sərhədlərinə yaxın ərazidə vurub bu ölkəni çətin duruma salmaq niyyətindədir. Hadisəni Ukraynanın üstünə atmaq istəyirlər. Rusiya Krımı qoparıb indi bu cür hadisələrlə diqqəti yayındırmaq və baş verənləri yaddan çıxarmaq istəyir. Əslində isə Ukraynanın öz ərazisinə qərb sərhədindən girən və cənubdan çıxan təyyarəni sərhəddən çıxandan sonra vurması məntiqsizdir. Bura döyüş ərazisidir. ABŞ kəşfiyyatı raketlərlə, kosmosdan ərazini, baş verənləri izləyir. Əminəm ki, Amerikanın əlində faktla bağlı konkret dəlillər var".

Rusiya prezidenti Vladimir Putin isə Ukraynanın Donetsk vilayətində "Boeing - 777" təyyarəsinin qəzaya uğraması ilə bağlı növbəti bəyanat verib. Modern.az Kremlin mətbuat xidmətinə istinadla xəbər verir ki, Rusiya dövlət başçısı bir daha bu qəzanı faciəvi hadisə adlandırıb.

**Putin bəyan edib ki, Ukrayna cənub-şərq bölgələrində əməliyyatları dayandırsaydı, bu cür bədbəxt hadisə baş verməyəcəkdi. Kreml rəhbəri onu da bildirib ki, hər hansı siyasi qüvvə yaranmış vəziyyətdən öz məqsədləri üçün istifadə etməkdən çəkinməlidir:** "Heç kim siyasi hədəflərin nailiyyətləri üçün faciədən yararlanmalı deyil. Hadisə yerində beynəlxalq ekspertlərin işinin təhlükəsizliyi üçün hər cür tədbir görülməlidir. Orada Donetsk, Ukrayna və Malayziyadan olan nümayəndələr işləyirlər. Amma bu, kifayət deyil. Qəza yerinə beynəlxalq komissiya da cəlb edilməlidir. Rusiya Ukraynanın şərqindəki münaqişənin hərbi variantdan diplomatik müzakirələrə keçməsi üçün hər şeyi etməyə hazırdır".

AzadlıqRadiosunun məlumatına görə, Qərb mediası əmindir ki, Malayziya təyyarəsini məhz rusiyapərəst separatçılar vurub, onlara isə rusiyalı mütəxəssislər kömək edib.

"Washington Post" qəzeti yazır ki, Malayziya təyyarəsinin qəzası ilə bağlı müzakirələrdə bir vacib məqam var: bu təyyarənin qəzası Rusiyanın Ukraynanın şərqinə təcavüzünün nəticəsidir. Bu təcavüz biləredkdən burada siyasi, hüquqi, hərbi xaos yaratmaq məqsədi güdürdü. Bu xaos olmasaydı, sərnişin təyyarəsinə yer-hava növlü raket atılmazdı.

Lap əvvəldən Rusiya Ukraynanın şərqinə əsgər göndərmədi, bunun əvəzində yaraqlılar, muzdlular və İqor Strelkov kimi əməliyyat rəhbərləri göndərdi. İqor Strelkov Rusiyanın məxfi xidmətinin polkovnikidir və hər iki çeçen müharibəsində vuruşub. Digər belə əməliyyat rəhbəri Vladimir Antyufeyevdir. 1991-ci ildə Latviya KQB-si müstəqil Latviya hökumətini devirmək istəyəndə bu cəhdə məhz Atyufeyev başçılıq edirdi.

"New York Times" onu yazır ki, iyun ayında Rusiyanın bir neçə mediası "Buk" raket kompleksinin şəkillərini vermişdi ki, bunu yaraqlılar ələ keçirib. Bu şəkillərin hamısı sonradan yığışdırıldı.







"Foreign Policy" məcmuəsi əmindir ki, Malayziya təyyarəsini vuran raket Ukraynadakı müharibəyə son qoyacaq: təyyarənin vurulması Ukraynanın şərqindəki separatçıların sonudur, bu, Rusiya prezidenti Vladimir Putin üçün dəhşət yaradacaq.

"Foreign Policy" onu da vurğulayır ki, raketi separatçıların atdığına şübhə çox azdır.

"Bloomberg" xəbər saytı isə yazır ki, Putin Rusiyanı təcrid etmə riskinə gedir. Bu da rusiyalı milyarderləri dəhşətə gətirir.

"Bloomberg"in fikrincə, Putin Ukraynanın şərqində müharibəyə son qoymasa, Rusiya Belarusun, Rusiya liderləri Lukaşenkonun gününə düşəcək.

Qeyd edək ki, Malayziya Hava Yollarına məxsus "Boeing - 777" təyyarəsi Ukraynanın Donetsk vilayətində qəzaya uğrayıb. Layner Amsterdam-Kuala-Lumpur reysi ilə uçurmuş. Ona görə də bu gün qəzada 160 vətəndaşını itirən Hollandiya paytaxt Amsterdamda həlak olanların xatirəsini yad edib.

3 gün öncə Donetsk üzərindən keçərkən, Malayziya Hava Yollarına məxsus sərnişin təyyarəsinin kim tərəfindən vurulması hələ ki məlum deyil. Ukrayna Təhlükəsizlik Şurasının nümayəndəsi təyyarənin üsyançılar tərəfindən vurulması barədə ciddi sübutların olduğunu desə də, faktlar hələ sübuta yetirilməyib. Hadisə nəticəsində 85-i uşaq olmaqla, 298 nəfər həlak olub.

Hadisədən sonra Qərblə Rusiya arasında informasiya savaşı başlayıb. Hər iki tərəf təyyarə qəzasına görə bir-birini ittiham edir. Dünyanın bir çox aparıcı siyasi oyunçusu olan dövlətləri təyyarənin Rusiya və ya ruspərəst qüvvələr tərəfindən vurulduğunu iddia edir. Rusiya isə hadisənin əsas məsuliyyətini Ukrayna hakimiyyətinin üzərinə atır.

❑ **Röya RƏFİYEVA**

# Putinin reytinqi



**Mahal İSMAYILOĞLU**
mahal57@mail.ru

**Şimal qonşumuz Rusiyadakı əhvalı əks etdirən bir rəqəm diqqətdən yayınmır: korrupsiyanın bütün rənglərinin, məmur hədyanlığının istənilən çalarının, səfalətin, yoxsulluğun bütün çeşidlərinin mövcud olduğu Rusiyada prezident Putinin reytinqi son aylar - Krımın zəbtindən, Ukraynanın iki vilayətində törədilən separatizmdən sonra rekord həddə qərarlaşıb... Onun hakimiyyətdə olduğu 15 il ərzində bu, ən yüksək göstəricidir... Rusiyada yaşayan əhalinin 78 faizi onun Ukraynaya qarşı sərgilədiyi aqressivliyi dəstəkləyir. Özü də bu reytinq yüksəlişi eyni kökə malik olan iki xalqın bir-biri ilə apardığı ədavətin getdikcə daha dramatik şəkil aldığı zamana təsadüf edir. Hətta bütün dünyanın lənətlədiyi təyyarə olayı da bu reytinq ucalığına yardımçı olub. Cinayəti törədənlərin kimliyi onsuz da bəllidir. Dünya, sadəcə olaraq, prosedurlara əməl edir, istintaqın sonunu gözləyir, tam və qəti şəkildə barmağı ilə Rusiyanı göstərmir. Amma bu olayda Rusiyanın iştirakçı olmadığını deyən bircə dövlət də yoxdur...**

Doğrudanmı adi, sıravi Rusiya vətəndaşı 298 nəfər günahsız insana qarşı törədilən belə cinayəti dəstəkləyirlər?

Doğrudanmı onların qəfil qırılan ömrü dünyadakı siyasətin incəliklərinə varmayan Sibirdə, ya da Uralda yaşayan insanlara xoş gəlir. Əsla! Bəs nədən bu boyda cinayət də Putin üçün yüksəlişə dönür...

Belə dəstək ingilis, fransız, alman, yapon üçün anlaşılmaz ola bilər, amma rus psixologiyasına bələd olan kəs üçün qeyri-adi deyil... Biz tez-tez eşidirik ki, milli zəmində özbəklərə, taciklərə, azərbaycanlılara, gürcülərə... qarşı rus millətçiləri necə amansız rəftar edirlər. Əksər hallarda bunu görən polislər üzlərini yana çevirirlər. Hətta onlar belə cəza tədbirlərində qatı millətçilərə yardım da edirlər...

Belə açıq ədavətə Rusiyadakı kimi dünyanın heç bir dövlətində təsadüf etməzsiniz... Bu, az qala ancaq ruslara xas olan mental yanaşmadır... İndi Putinin hətta bütün dünyanı sarsıdan bir faciədən sonra reytinq zirvəsinə yüksəlməyi də məhz ruslar üçün xarakterik əlamət sayıla bilər...

Elə bugünlərdə Moskvada üç jurnalist həmkarımızın güllələnməyi ilə bağlı xəbəri müxtəlif təqdimatlarda oxuyun... İndi özünüz bunun davamını izləyin: istənilən halda obyektiv təhqiqat aparılmayacaq, bütün prosedurlar da baş verən cinayəti unutdurmağa yönələcək. Çünki indiyəcən əksər hallarda belə olub... Yeqor Şerbakov adlı bir rus gəncinin məişət zəminində öldürülməsi şovinizmin alovlanmasında qığılcım olursa, bir azərbaycanlı və ya özbək gəncin daha amansızlıqla qətlə yetirilməsi heyrət doğuran sükutla qarşılanıb...

Fransada, Belçikada, İngiltərədə, Hollandiyada, lap elə ABŞ-da olanda rənglərin müxtəlifliyinə diqqət yetiribsinizmi - həm həyat tərzində, həm də insanların üzündəki rənglər o qədər müxtəlifdir ki... Hətta bəzən adama elə gəlir Fransada fransızlar, İngiltərədə ingilislər milli azlıqdırlar... Amma bir o qədər milli zəmində ziddiyyətlərlə qarşılaşmayacaqsınız. Rusiyada isə siyasi mənzərə tamam başqa cürdür. Rus olmayanlar daim səksəkə və təhlükə içində yaşayırlar. Milli zəmində baş verən hər bir münaqişə dərhal şaxələnir, korrupsiyalaşmış zümrə isə bundan ustalıqla bəhrələnir, şovinizm sipəri arxasında gizlənirlər...

Tarix boyu böyük rus şovinizmi bu ölkədə bumeranq kimi qayıdıb özünə dəyib. Hətta rus xalqının böyük fikir dühaları belə millətçiliyin Rusiyaya zaman-zaman çox baha başa gəldiyini bildiriblər... Bir o qədər də hakimiyyət uğrunda savaşanlar bundan yararlanıblar...

Onsuz da kasıb olan, iqtisadiyyatı hələ də 25-30 il əvvəlki həddə çatmaq arzusu ilə yaşayan bir ölkə indi də dünya ilə üz-üzə qalır. Artıq Avropa dövlətlərinin və ABŞ-ın Rusiyaya yönələn siyasi və iqtisadi qadağaları öz işini görür. Son üç ay ərzində belə embarqo rusların həyatında ciddi iz qoyub. Bunun bir il, iki davam edəcəyi şəraitdə nələr baş verəcəyini də proqnozlaşdırmaq mümkün deyil. Amma sonu indidən bəlli olan bir həqiqət var yaşam şərtləri ağırlaşsa, ehtiyac boğa çöksə o reytinq çox qısa zamanda puç olacaq... Artıq bu dəfə qəzəb özünə qarşı yönələcək. Öz tarixi boyu Rusiya dönə-dönə belə hallarla qarşılaşıb. Rusiyanın öz içindən kükrəyən qəzəb onu tarixin axarından ayrı salıb...

Putin indi reytinq yüksəlişinə sevinə bilər, amma belə sevinci heç kimə arzulamayaq...

YENİ MÜSAVAT
N 185 (5894) 22 iyul 2014

# Siyavuş Novruzovun fikirlərinə yazarlardan cavab gəldi

**YAP-çı deputat Siyavuş Novruzov Azərbaycan Yazıçılar Birliyini (AYB) tənqid edib. O, müsahibəsində bunları deyib: "Azərbaycan ədəbiyyatı eyni adamlarla bitə bilməz. Bu baxımdan müxtəlif proqramlar çərçivəsində, mənə elə gəlir ki, gənc yazarlara xüsusi kömək olunmalıdır, dəstək göstərilməlidir. Mövcud yaradıcı birliklər sovet sistemindən çıxıb, yenidən təkmilləşməlidir. Amma hesab edirəm ki, bu gün o tərkibdə də müvafiq dəyişikliklər getməlidir. Məsələn, hər dəfə, heç olmasa, 10 faiz, 20 faiz, 30 faiz dəyişikliklər olanda ədəbiyyatın inkişafına da kömək olur. Azərbaycan Yazıçılar Birliyi dövlət büdcəsindən maliyyələşir və hesab edirəm ki, qurumda hər şey sistemləşməlidir. Mənə elə gəlir ki, bunlar öz nəvə-nəticələri üçün yox, digər şairlər, yazıçılar üçün də çalışmalıdır. Yazıçılar birliyində gənclərə üstünlük verilməlidir".**



**Elçin Mirzəbəyli:**
"Nə qədər ki, ədəbiyyatın ünvanı AYB olacaq, o zamana qədər yazarlarımız öz yazdıqlarını elə özləri oxuyacaqlar"



**Mircəlil Cavanşir:**
"Siyavuşun belə danışması, özünü canıyanan göstərməsi artistlikdir"



**Seyran Səxavət:**
"Mənim üçün bu məsələlər artıq kiflənib, köhnəlib və mənasızlaşıb"

Maraqlıdır, yazarların Siyavuş Novruzovun dediklərinə münasibəti necədir? Onun dedikləri ilə razılaşırlarmı?

Bunu öyrənmək üçün bir neçə yazarla əlaqə saxladıq.

**Publisist-şair Elçin Mirzəbəyli Siyavuş Novruzovun fikirlərində təəccüblü bir şey olmadığını dedi:** "Yazıçılar Birliyinin rəhbər şəxslərini görəndə ikiqat olan bir qrup cızma qaraçının, yaxud istedadlı qorxağın kluarlarda danışdığını olduğu kimi ifadə edib. AYB-nin qurultayında Vaqif Səmədoğlu *(Allah ona cansağlığı versin)* öz çıxışında uşaqlığının Yazıçılar Birliyinin binasında keçdiyini, bu binanın onun üçün doğma olduğunu, uşaqlıq xatirələrinin burada qorunduğunu dedi. Əslində təkcə özünün yox, valideynləri AYB-nin rəhbərliyində təmsil olunmuş bir çoxlarının düşüncələrini dilə gətirdi. Bu baxımdan, Siyavuş Novruzovun fikirlərində təəccüblü heç nə yoxdur. Adamlar öz valideynlərinin və özlərinin xatirələrini qoruyurlar. Amma ədəbiyyatla və yaradıcı adamların problemləri ilə bağlı məsələnin kökünü AYB-də axtarmağı da doğru hesab etmirəm. Yaradıcılığı pula çevirməyin yollarını axtarmaq, insanlarımızı kitab oxumağa alışdırmaq, toplumun ümumi mədəni səviyyəsini qaldırmağın yollarını axtarıb tapmaq lazımdı. Tutaq ki, Azərbaycanda AYB adlı bir qurum yoxdu, o zaman nə olacaq? O zaman günahı kimin üzərinə atacağıq? Azərbaycan ədəbiyyatının problemlərini yalnız AYB-nin kimlərinsə uşaqlıq xatirələrini qoruyan binasında axtarmaq məsələnin ən asan tərəfidir. Ədəbiyyatı inkişaf etdirməyin yolu isə AYB-dən yox, Azərbaycan cəmiyyətindən keçir. Nə qədər ki, ədəbiyyatın ünvanı AYB olacaq, o zamana qədər Azərbaycan yazarları öz yazdıqlarını elə özləri də oxuyacaqlar".

**Yazıçı Mircəlil Cavanşir isə Siyavuş Novruzovun dediklərini artistlik adlandırdı:** "Hesab edirəm ki, AYB-nin belə iyrənc bir quruma çevrilməsinin səbəbkarı məhz siyavuş novruzovların təmsil olunduğu hakimiyyətdir. Siyavuşun belə danışması, özünü canıyanan göstərməsi artistlikdir".

**Yazıçı Qan Turalı AYB-nin qocaların müqəddəs ocağı olduğunu bildirdi:** "Azərbaycan Yazıçılar Birliyi artıq qocaların müqəddəs ocağıdır. Orda gənc nəfəsi dözülməzdir. Bu məsələyə AYB cavab verməlidir, biz yox. Mənim o qurumdan heç bir gözləntim yoxdur".

**Yazıçı Aysel Əlizadə isə onun üçün AYB mövzusunun bağlandığını dedi:** "Mənim üçün AYB mövzusu artıq qapanıb. Bu barədə düşünməyi vaxt itkisi sayıram".

**Yazıçılar Birliyinin katibi Fikrət Qoca isə "Azadlıq"a açıqlamasında bu məsləyə geniş münasibət bildirməyəcəyini söyləyib:** "Görünür, deputatların işi azalıb, indi də yazıçılardan danışırlar. Yəqin yay fəslinə görədir".

**Yazıçı Seyran Səxavət isə belə məsələlərin vaxtının keçdiyini bildirdi:** "Mənim üçün bu məsələlər artıq kiflənib, köhnəlib və mənasızlaşıb".

❑ **Günel MANAFLI**

# Şərikinin qətlini sifariş edənin şikayəti təmin olunmadı

**Bakı Apelyasiya Məhkəməsində "Azər-Ross" MTK-nın baş ofisində törədilən dəhşətli qətl hadisəsində və dələduzluqda ittiham olunan Hümbət Məmmədov, Tofiq Bəkirov, Fərman Hacıyev, Ramil Hacıyev, Sahil Şamilov və Şamil Şamilovun cinayət işi üzrə proses keçirilib.**

Hakim Mirpaşa Hüseynovun sədrliyi ilə keçirilən son prosesdə prokuror Nəsir Bayramov çıxış edib.

Prokuror bildirib ki, təqsirləndirilən şəxslərin apelyasiya şikayətlərinin təmin olunması üçün əsaslar yoxdur. Onun sözlərinə görə, təqsirləndirilən şəxslərin əməllərinə birinci məhkəmə instansiyası tərəfindən düzgün hüquqi qiymət verilib. Prokuror təqsirləndirilənlərin apelyasiya şikayətlərinin təmin edilməməsini istəyib. Məhkəmə iclası iyulun 23-də müdafiə tərəfinin çıxışı ilə davam etdiriləcək.

İttihama görə, 2011-ci il iyulun 11-i saat 13 radələrində paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "Azər-Ross" mənzil-tikinti kooperativində qurumun təsisçisi Əflatun Piriyev odlu silahdan açılan atəşlə qətlə yetirilib, baş mühasib Əmiraslan Əhmədov ağır yaralanıb. İstintaq araşdırmaları zamanı cinayət işi üzrə dələduzluq faktları da üzə çıxıb.

Məlum olub ki, şirkətin təsisçilərindən biri olan Hümbət Məmmədov vətəndaşları aldadaraq bir mənzili bir neçə nəfərə satmaqla dələduzluq edib. Cinayət işi üzrə dələduzluqla üzləşmiş 26 vətəndaş zərərçəkmiş qismində tanınıb. Zərərçəkən vətəndaşların 24 nəfərindən 1 milyon 777 min manat pul alınıb və onların heç birinə mənzil verilməyib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Hümbət Məmmədov və Vüsal Qurbanov ömürlük, Tofiq Bəkirov 14 il, Fərman Hacıyev 14 il 6 ay, Sahil Şamilov və Şamil Şamilov isə hər biri 12 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Hökmdən təqsirləndirilən şəxslər apelyasiya şikayəti veriblər. Sahil və Şamil qardaşları barələrində olan hökmün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını istəyiblər. Digər təqsirləndirilən şəxslər cəzalarının yüngülləşdirilməsini xahiş ediblər.

❑ **E.HÜSEYNOV**

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

- *Kiyev Dövlət Texniki Universiteti*
- *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
- *Kremençuk Dövlət Universiteti*
- *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
- *Kiyev Dövlət Dəniz Akademiyası*
- *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
- *Tbilisi Dövlət Tibb Universiteti*
- *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
- *Minsk Dövlət Universiteti*
- *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
- *Qrodno Dövlət Universiteti*
- *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
- *Volqoqrad Dövlət Aqrar Universiteti.*
- *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**
**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**






**Ötən gün sosial şəbəkələrdə Prezident Administrasiyasına məxsus "10 PA 522" dövlət nömrə nişanlı "BMW" markalı avtomobilin İstiqlaliyyət küçəsində yol hərəkəti qaydalarını kobud şəkildə pozmasını əks etdirən video yayılıb. Musavat.com avtomobilin kimə məxsus olduğunu dəqiqləşdirib.**




# Qaydanı pozan maşın prezidentin mətbuat katibinindir

## Vaqif Əsədov: "Kimliyindən asılı olmayaraq, yol hərəkəti qaydalarını pozan sürücülər cəzalandırılır"

Əldə etdiyimiz məlumata görə, maşın prezidentin mətbuat xidmətinin rəhbəri Azər Qasımovun istifadəsindədir. Qarşı yola çıxan avtomobildən düşən və onun maşınına yol verilməsini tələb edən də Azər Qasımovun özüdür.

Sosial şəbəkələrdə yayılan video İstiqlaliyyət prospektində çəkilib. "10 PA 522" dövlət nömrə nişanlı "BMW" markalı avtomobil qoşa xəttin tələbini pozaraq, qarşı hərəkət zolağına çıxır və hərəkətini bu cür davam etdirmək istəyir.

Qeyd edək ki, yol hərəkətinin pozulduğu yerdə günün əksər vaxtlarında DYP əməkdaşları növbə çəkir. Videodan da görünür ki, hadisə yerinin təxminən 20-30 metrliyində polis əməkdaşı dayanıb.

**Sözügedən hadisəyə münasibət bildirən Bakı Şəhər Dövlət Yol Polisinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Vaqif Əsədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, məzuniyyətdən yeni qayıdıb və yayılan videodan xəbərsizdir:** "Məzuniyyətdən yeni qayıtmışam. Videoya baxdıqdan sonra qanunla həmin sürücü haqqında tədbir görüləcək".




Bununla belə, V. Əsədov əmin etdi ki, kimliyindən asılı olmayaraq, yol hərəkəti qaydalarını pozan sürücülər cəzalandırılır.

Bəs Azər Qasımovun sürücüsünü hansı cəza gözləyir?

**Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkət qaydalarının pozulmasına görə yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların 151.3-1. bəndində deyilir:** "Birtərəfli hərəkət yollarında müəyyən edilmiş hərəkət istiqamətinin əksinə hərəkət etməyə, habelə 1.1, 1.3 və 1.11 üfüqi nişanlanma xətlərinin tələblərini pozmaqla nəqliyyat vasitəsini tam olaraq əks istiqamətli nəqliyyat axınının hərəkət zolağına keçirərək nəqliyyat axınına əks istiqamətdə hərəkət etməyə görə 4 bal və 100 manat cərimə tətbiq olunur".

Eyni zamanda sözügedən avtomobilin sürücüsü qarşı yola çıxmaqla qəza şəraiti yaratdığı üçün qəza şəraitinin yaradılması, yəni hərəkətin başqa iştirakçılarının sürəti və hərəkətin istiqamətini məcburi dəyişməsinə səbəb olan pozuntuların törədilməsinə görə əlavə olaraq 4 bal və 80 manat cərimələnə bilər.

❑ **Fərahim İLQAROĞLU**

# Pirşağı sakini "Bakıelektrik"dən şikayətçidir

## Faiq Əliyev: "Məndən "hörmət" tələb edirlər"




**Sabunçu rayonu, Pirşağı qəsəbəsi Ə.Məlikov küçəsi ev 3-də yaşayan Əliyev Faiq Əzizağa oğlu redaksiyamıza məktub ünvanlayıb. F.Əzizov məktubunda yazır ki, 23 noyabr 2009-cu ildə "Bakıelektrikşəbəkə"nin Səxavət adlı işçisi evinə elektrik sayğacı quraşdırıb. Amma sayğac xarab çıxıb:**

"Həmin sayğaca görə 300 manat ödəmişəm. Sayğac qoyulduqdan 2 ay sonra "Bakıelektrikşəbəkə"dən yoxlama gəldi və mənə 460 manat cərimə yazdılar. Həmin cərimənin qanunsuz olduğunu "Bakıelektrikşəbəkə"nin "Sayğacların və cərəyan transformatorları"nın yoxlanması ilə sübut etdim. Həmin protokolda da göstərilir ki, sayğac yararsız olub. Həmin yararsız sayğaca görə 300 manat ödəmişəm. İndi də cərimə olaraq məndən 460 manat tələb edirlər. Baxmayaraq ki, həmin Səxavət adlı işçini məhz bu əməllərinə görə işdən azad etmişdilər, indi təkrar həmin nəzarətçi işinə bərpa ediblər. Artıq mən neçə ildir ki, "Bakıelektrikşəbəkə"nin müxtəlif idarələri arasında get-gəldəyəm. Hər biri mənim haqlı olduğumu bildirir, ancaq həmin məbləğin ən azı 50 faizini məndən "hörmət" olaraq tələb edirlər. Mənimsə həm imkanım yoxdur, həm də haqlı olduğum halda min bir əziyyətlə qazandığım pulu heç kimə vermək istəmirəm".

❑ **E.HÜSEYNOV**

# Bakının mərkəzində yol polisini maşın vurdu



**Bakının mərkəzində yol polisini maşın vurub. Milli.az-ın verdiyi məlumata görə, xidmət zamanı yol polisini vuran maşın ərazidən uzaqlaşıb. Hadisə Səbayel rayonunda, Zərifə Əliyeva və Rəsul Rza küçələrinin kəsişməsində baş verib. Rayon Polis İdarəsindən verilən məlumata görə, 48 yaşlı Dövlət Yol Polisi İdarəsinin inspektoru Teymur Sonayevi 90 XM 542 dövlət nömrə nişanlı "Hyundai" markalı maşın vurub. Sürücü qəzadan sonra hadisə yerindən uzaqlaşıb. Yaralı polis əməkdaşı isə Daxili İşlər Nazirliyinin hospitalına yerləşdirilib. Faktla bağlı cinayət işi başlanıb.**

# Bilik Fondu nə verəcək?

## Etibar Əliyev: "Hesab edirəm ki, bu fondun üzvləri ölkədə biliklərin inkişafı istiqamətində ciddi işlər görəcək"

**Dövlət başçısı iyulun 19-da ölkə prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvlərinin təyin edilməsi haqqında sərəncam imzalayıb. Şuranın tərkibinə millətlərarası münasibətlər üzrə dövlət müşaviri Kamal Abdulla, Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov, İslam Universitetinin rektoru Sabir Həsənli, rejissor Azərpaşa Nemətov, deputatlar Sahibə Qafarova və Mübariz Qurbanlı daxil edilib.**

Xatırladaq ki, Bilik Fondu elmi-texniki, sosial-iqtisadi, humanitar biliklərin artırılması, azərbaycançılıq məfkurəsi zəminində milli-mənəvi, dini dəyərlərin təbliği, ekoloji təfəkkürün formalaşdırılması, Azərbaycan dövlətinin daxili və xarici siyasətinin, ölkədə aparılan sosial-iqtisadi, mədəni quruculuq proseslərinin mahiyyətinin ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb.

Maraqlıdır, mütəxəssislər belə bir fondun yaradılmasını zəruri hesab edirlərmi və ondan nə gözləyirlər?



**Təhsil eksperti Etibar Əliyev belə bir fondun yaradılmasının "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının tərkib hissəsi olduğunu dedi:** "Demək olar ki, bütün dünyada biliklərin ötürülməsi istiqamətində müxtəlif fondlar yaradılır. Azərbaycanda da belə bir fond yaradılıb. Bilik Fondu ölkədə elm və təhsilə dəstək məqsədi üçün yaradılıb. İndiki durumda belə bir fondun yaradılması təhsil və elm sahəsində geriliklərin aradan qaldırılmasında mühüm rol oynaya bilər. Bildiyimiz kimi, Azərbaycan universitetləri dünya universitetləri ilə rəqabət aparmaq gücündə deyil. Ölkəmiz elmi tədqiqatların aktivlik indeksinə görə də xeyli geridədir. Dünya təcrübəsinə istinadən söyləmək olar ki, bizdə yaradılmış bu fondun əsas məqsədi gənc nəslin dünya səviyyəsində təhsil almasına yardımçı olmaq, ölkədə yüksək səviyyəli elmi tədqiqatların aparılmasına dəstək durmaq və ən əsası gələcək nəsillərə investisiya qoyuluşunu təmin etmək olmalıdır. Bundan başqa, Bilik Fondu humanitar, sosial, iqtisadi, elmi-texniki sahələr üzrə elm və təhsilin qabaqcıl ölkələrin səviyyəsinə çatdırılması istiqamətində də işlər aparmalıdır. Hesab edirəm ki, belə bir fondun yaradılması "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının tərkib hissəsidir. Bildiyimiz kimi, Dövlət Proqramı çərçivəsində 2000-dən çox Azərbaycan vətəndaşı dünyanın aparıcı universitetlərində təhsil alır. Onların qazandığı biliklərin və apardıqları elmi tədqiqatların koordinasiya olunması Bilik Fondunun əsas vəzifələri sırasına daxil olmalıdır. Həmçinin elektron kitabxanaların, açıq ensiklopediyaların, sosial şəbəkə icmalarının, elmi-populyar jurnalların təsis olunması istiqamətində ciddi işlər aparılmalıdır. Biliklərin yayılması və populyarlaşmasında bu işlərin böyük əhəmiyyəti ola bilər. Dünyanın bir çox inkişaf etmiş ölkələrində elmi biliklərin inkişafı konsepsiyası işlənib hazırlanıb. Biz bu prosesdən kənarda qala bilmərik.

Ölkə başçısı tərəfindən yaradılmış Bilik Fondunun üzvləri tanınmış alimlər və ictimai xadimlərdir. Hesab edirəm ki, bu şəxslər ölkədə biliklərin inkişafı istiqamətində ciddi işlər görəcək".

❑ **Günel MANAFLI**

# 150 min manatlıq iş məhkəməyə göndərildi

**Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində "RoyalBank" Açıq Səhmdar Cəmiyyətinin "Qazax" filialı ilə bağlı başlanmış cinayət işinin istintaqı yekunlaşıb. Baş Prokurorluqdan "Media forum"a belə məlumat verilib.**

İstintaq zamanı bəlli olub ki, 2008-2012-ci illərdə filialın müdiri vəzifəsində işləmiş Elmir Əsgərov cəmiyyətin vəzifəli şəxsləri ilə əlbir olub Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyindən ASC-nin hesabına köçürülmüş pulun 150 min manatını kənd təsərrüfatı kreditlərinin verilməsi adı ilə digər şəxslərin adına sənədləşdirərək mənimsəyib, bununla da "RoyalBank" ASC-yə külli miqdarda ziyan vurub. Ona Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə) maddəsi ilə ittiham elan edilib.

İstintaq dövründə dəymiş ziyanın qismən ödətdirilməsi təmin olunub.

Cinayət işinin istintaqı tamamlanaraq Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

YENİ MÜSAVAT

Son səhifə

N 185 (5894) 22 iyul 2014



## Qadınların ən çox nədən narazı olduğu müəyyənləşdi

Qadınlar arasında aparılan sorğu nəticəsində məlum olub ki, onların ən böyük şikayəti ərlərinin anlayışsız olmasıdır. Qadınlar ərlərindən daha çox dostları və qonşularından razıdır. Türk qadınları arasında aparılan araşdırmada məlum olub ki, onların şikayətinin səbəbi anlayışsız ərləridir. Bu araşdırma 2 min qadın arasında aparılıb.

"Səni ən çox kim daha yaxşı anlayır" sualına qadınların 40 faizi "Qonşularım və dostlarım" cavabını verib. Qadınların 20 faizi isə bu sualı "xalaqızı və dayıqızılarım" deyərək cavablandırıb. 25 faizi isə "Məni ən yaxşı anam anlayır" deyib. "Səni kim başa düşmür" sualına qadınların 48 faizi "ərim məni başa düşmür cavabını verib". 20 faizi atam və qardaşım cavabını verib. Qadınların 23 faizi isə övladlarından şikayət edib və onları analarını anlamadığı üçün günahlandırıb.

Aparılan araşdırmada türk qadınlarının 40 faizi ev sahibi olmaq istədiyini deyib. 30 faizi ən böyük arzularının ərindən pul istəməməsi üçün karyera sahibi olmaq istədiyini bildirib. 10 faizinin ən böyük xəyalı fərqli ölkələri gəzməkdir.

Bu anketdə iştirak edən qadınların 70 faizi karyera sahibi olmaqdan zövq aldığını deyib. Onlar bildirib ki, işləyən qadınlara cəmiyyətdə daha çox hörmət edilir və dəyər verilir. Çünki işləyən qadınların dünya görüşü fərqli olur və evdar qadınlara nisbətdə özlərini müdafiə edib sözlərini deyə bilir. Evdar qadınlar isə məişət problemləri altında əzilir.

# Prezident 60 illik yubileyində evlənəcək

Fransa prezidenti Fransua Olland bu ilin 12 avqustunda aktrisa Juli Qaye ilə evlənməyə qərar verib. Fransa mətbuatının yazdığına görə, prezident 60 illik yubileyi günü nikaha girməyi planlaşdırır. Xəbərdə həmçinin bildirilir ki, Ollanda evlənməyi rəhbəri olduğu Sosial Partiyanın üzvləri məsləhət görüb. Onlar bildiriblər ki, prezidentin hazırkı imici o qədər də ürəkaçan deyil. Belə ki, vətəndaş nikahında yaşadığı Valeriya Trierveylerdən ayrılandan sonra cəmiyyətdə onun barəsində sirli imic yaranıb ki, bu da ölkə əhalisi tərəfindən neqativ qarşılanır. İctimaiyyət cütlüyün münasibətindən 2014-cü ilin yanvarında xəbər tutub. Evlilik baş tutarsa, bu, 41 yaşlı aktrisa Ollandın ilk rəsmi həyat yoldaşı olacaq.





Çünki onun daha öncə birgə yaşadığı qadınlarla ancaq vətəndaş nikahında olduğu məlumdur. Hətta 4 uşağının anası olan Meri Seqolen Ruaylla da rəsmən evli olmayıb.

# Qolunu multfilmə "bağışladı"

**"Simpsonlar ailəsi" dünyanın ən populyar animasiya seriallarından biridir. Bu serialın "ulduz"u olan Homer Simpsonun isə on milyonlarla pərəstişkarı var. 27 yaşlı Li Veyr də belə fanatlardan biridir. Amma o, başqa fanatlardan çox fərqlənir. Belə ki, Yeni Zelandiyanın Oklend şəhərində yaşayan Linin vücudunda 41 Homer döyməsi var.**

Milli.az "Daily Mail"ə istinadən bildirir ki, "Simpsonlar" animasiya serialına uşaqlıq illərində baxmağa başladığını və elə ilk seriyadan vurulduğunu deyən Linin sözlərinə görə, bədəninə Homerin "sima"sını tatuaj etdirməklə, sanki rahatlıq tapır. "Bədənimdə indi 41 Homer var. Eyni zamanda başqa personajların da tatuajlarını bədənimdə çəkdirdim. Mənə ləzzət verir, çünki Homer Simpsonu çox sevirəm. Bu seriala baxmağı atam mənə yasaqlamışdı. O, real həyatdakı Ned Flanders idi. Fəqət serialı çox sevdiyimdən baxmağa davam edirdim", - Li söyləyib.

Onun sözlərinə görə, sağ qolunu Homer Simpson və başqa personajların tatuları ilə bəzəmək 25 saat davam edib. Tatuların müəllifi isə tanınmış tatuaj ustası Ben Cenkisdir. Li Veyrin adı "Ginnesin Rekordlar Kitabı"na düşüb.





## Polis oğrunu görüşə çağırdı, həbs etdi

Kaliforniya ştatında San-Mateo polisi restorandan televizor və digər elektrik əşyaları oğurlayan şəxsi maraqlı üsulla həbs edib. Hüquq-mühafizə orqanlarının məlumatına görə, 31 yaşlı Kevin Kintanilya oğurluqdan qısa müddət sonra həbs edilib. Cinayətkarın telefon nömrəsini qarət olunan restoranın xanım əməkdaşı verib. Məlum olub ki, qarətdən bir neçə saat öncə oğru həmin xanımla tanış olmaq üçün israrlı cəhdlər edib. Hətta buna görə öz koordinatlarını ona verib. Kintaniliyanın evində televizor və oğurlanan digər əşyalar tapılıb. Polisin onu yaxalaması isə o qədər də çətin olmayıb. Restoranın xanım əməkdaşı 31 yaşlı kişiyə zəng edərək, onun evində görüşmək istədiyini deyib. Evin yerini və görüş saatını dəqiqləşdirəndən sonra polis evə basqın edib.




**QOÇ** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşacağınızdan xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd işlərdən yayınmalısınız. İşgüzar ələqələrə başlayın.

**BUĞA** - Hiss olunur ki, maddi durumunuz qənaətbəxş deyil. Bu isə əksər sahələrdə passivliyinizə zəmin yaradır. Buna baxmayaraq, nahardan sonra ikitərəfli əməkdaşlıq üçün şanslarınız olacaq.

**ƏKİZLƏR** - Ay bürcünüzdə olduğu üçün o qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər.

**XƏRÇƏNG** - İşgüzar sövdələşmələr aparmaq istəyirsinizsə, bürcünüzün bu son təqvimindən yararlanın. Əmin olun ki, hər şey ürəyinizcə olacaq. Sadəcə, qərarlarınızda reallığa əsaslanın.

**ŞİR** - İyulun bu gününü uğurlu keçirəcəksiniz. Şəxsi işlərinizdə dönüş yaratmaq üçün saat 15-dən sonra şanslarınız olacaq. Büdcənizi artırmaq istəyirsinizsə, əzmkarlığınızı artırın.

**QIZ** - Bütün enerjinizi fəaliyyət prinsipinə istiqamətləndirin. Çünki gələcək perspektivləriniz iyulun bu təqvimindən birbaşa asılı olacaq. Pul sövdələşmələrində ötkəm olun.

**TƏRƏZİ** - Saat 13-ə qədər ev şəraitində olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə, əsəbi məqamlar yaşayacaqsınız. Axşamsa qonaqlıq gözlənilir.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələr gözlənilir. Yaxşı olar ki, səfərə çıxasınız.

**OXATAN** - Ümumi gərginliyinizə baxmayaraq çıxış yolu tapmağa davam etməlisiniz. Hər şeyi dəqiqliklə ölçüb-biçməli, ağıllı məsləhətlərə qulaq asmalısınız. Uzaq səfərlərə çıxmağa dəyər.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. Nahardan sonra səfərə çıxmağa dəyər.

**SUTÖKƏN** - İstifadə etdiyimiz bütün astroloji mənbələr bu təqvimi bütünlüklə səfər və qonaqlıqlara həsr edəcəyinizi göstərir. Yeni müsahiblərinizə qarşı bir qədər mülayim davranın.

**BALIQLAR** - Yaxşı olar ki, heç bir ciddi işə baş qoşmayasınız. Əks təqdirdə, uğursuz cəhdlərlə rastlaşacaqsınız. Bununla yanaşı, sizə qarşı qərəz nümayiş etdirənlərə kəskin cavab verməyi də təxirə salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Onu sosial şəbəkədə 100 milyon nəfər izləyir




Latın Amerikalı müğənni Şakiranın facebookdakı səhifəsi "layik" toplama sayına görə lider olub. Onun səhifəsini düz 100 milyon dəfə bəyəniblər. Ondan əvvəl bu liderliyi reper Eminem qazanmışdı ki, sosial səhifədə 92 milyon təqibçisi vardı. Pərəstişkarlarının aktivliyinə videomüraciət vasitəsilə təşəkkür edən müğənni bildirib ki, sosial media onlara auditoriya ilə aralarındakı uçurumu götürməyə yardım edib. Yüz milyonluq izləyicisinə görə facebookun yaradıcısı Mark Zükerberq də Şakiranı təbrik edib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565